Xalqın qəzeti!

# Xalq qəzeti

№ 196 (30600) 10 sentyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan və Qazaxıstan qardaşlığının strateji tərəfdaşlıq zirvəsi

**Sentyabrın 9-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Qazaxıstan Prezidenti, ilk növbədə, ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib.

Kasım-Jomart Tokayev Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə Azərbaycan Respublikası Prezidentinin iştirakını xüsusi qeyd edib.

Prezident İlham Əliyev Məşvərət Görüşünə dəvətə görə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı hazırda Qazaxıstanda keçirilən V Dünya Köçəri Oyunlarının uğurlu təşkili münasibətilə təbriklərini çatdırıb. Qazaxıstan Prezidenti öz növbəsində Azərbaycan idmançılarının bu Oyunlarda fəal iştirak etdiklərini vurğulayıb.

Bu ay Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi məsələsi də məmnunluqla qeyd olunub.

Tərəflər Azərbaycan və Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıblar.

Qazaxıstan Prezidenti Astananın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların aparılması üçün platforma rolunu oynamağa hazır olduğunu bildirib.

Dövlətimizin başçısı Azərbaycan üçün Astanada iki ölkə arasında bu danışıqların aparılması təklifinin məqbul olduğunu qeyd edib.

Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

## Papikyan Cənubi Koreyada nə axtarır?

**Ermənistanın müdafiə naziri Suren Papikyanın rəhbərlik etdiyi nümayəndə heyəti Koreya Respublikasının (Cənubi Koreya) paytaxtı Seula səfər edib. Bu barədə ölkənin müdafiə nazirliyinin mətbuat xidməti məlumat yayıb. Məlumatda səfərin işgüzar xarakter daşıdığı qeyd edilib.**



O, səfər çərçivəsində sentyabrın 9-da “Hərbi sferada məsul süni intellekt” sammitinin açılış mərasimində iştirak edib. Tədbir Koreya Respublikası, Niderland, Böyük Britaniya, Sinqapur və Keniyanın müdafiə və xarici işlər nazirlikləri tərəfindən hərbi texnologiyaların daha yaxşı mənimsənilməsi və döyüş əməliyyatları zamanı süni intellektdən istifadəyə nəzarət üzrə beynəlxalq mexanizmlərin yaradılmasının təşəbbüskarı olmaq məqsədilə təşkil olunub.

*(ardı 4-cü səhifədə)*

## “Qərbi Çıraq” Xəzərin yeraltı xəzinəsinin qapısıdır



Səhifə ⇨ 7

## Erməni təəssübkeşliyinin İran vektoru və Azərbaycan amili

*Yaxud “iranşünas” Vardan və Tehrandan eşidilən anti-rus səslər*



**İran İslam Respublikasının müxtəlif vəzifə tutan rəsmilərinin əvvəl regionda sərhədlərin dəyişməsinin yolverilməzliyi, Cənubi Qafqaz ölkələrinin ərazi bütövlüklərinin və suverenliklərinin toxunulmazlığı kimi meydana çıxmış, sonradan yalnız Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı və sərhədlərinin dəyişməzliyi məzmunlu fikirləri davam edir. Belə görünür ki, bu fikirlərdən Ermənistanda “ruhlananlar” tapılıb.**

Onlardan biri də özünü “irançı” adlandıran Vardan Vaskanyandır. Əlbəttə, dar təfəkkürlü, avantürizmə köklənmiş bir ekspert qırığının dedikləri üzərində dayanmamaq da olardı. Ancaq dayanırıq. Ona görə ki, bu məxluqun sərsəmləmələrinə erməni mediası geniş yer verir. Voskanyan nə deyir, onun və erməni ictimai rəyinin məqsədi nədir, məsələ barədə söz açacağıq. Hələlik isə başqa bir məqamın üzərində dayanaq.

*(ardı 3-cü səhifədə)*

## Roma Statutundan imtina



Səhifə ⇨ 6

## Bakı – İrəvan sülh layihəsinin 10-cu redaktəsində anti-sülh ritorikası

**İrəvan və Bakı sülh sazişi layihəsi üzrə 16 bənddən 13-nü tam, 3-nü isə qismən razılaşdırıblar. Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ölkəsində səfərdə olan lüksemburqlu həmkarı Xaviyer Bettel ilə keçirdiyi birgə mətbuat konfransında deyib. Daha doğrusu, o, faktiki olaraq, Ermənistanın bir neçə gün əvvəlki mövqeyini yenidən təkrarlayıb. Əlbəttə ki, bəzi əlavələrlə.**



A.Mirzoyan bildirib ki, Azərbaycanın və Ermənistanın yekun sülh sənədini ən qısa müddətdə imzalaması üçün imkan yaranıb. Sülh sazişinə sayca 10-cu redaktənin edildiyini və baxılmaq üçün Bakıya göndərildiyini vurğulayan Mirzoyan onun tam razılaşdırılmış mətn olduğunu diqqətə çatdırıb. Daha dəqiq desək, o, 10-cu redaktədə əvvəllər tam razılaşdırılmış maddələrin və ya məqamların hissələrinin yer aldığını qeyd edib.

“Biz Azərbaycanın reaksiyasını gözləyirik”, – deyən Mirzoyanın sözlərinə görə, Ermənistanın kommunikasiyaların blokdan çıxarılmasına yanaşması da dəyişməzdir və ölkə prosesin “Dünyanın kəsişməsi” təşəbbüsünün prinsiplərinə uyğun olaraq, mümkün qədər tez reallaşdırmağa hazırdır. O zaman sual olunur: əgər sülh sazişi özündə regional kommunikasiyaların açılması müddəasını birləşdirirsə, məsələ “Dünyanın kəsişməsi” egidası altında gerçəkləşə bilərmi?

Məlumdur ki, “Dünyanın kəsişməsi” avantürası Azərbaycanın “Zəngəzur dəhlizi” təşəbbüsünə zidd olaraq irəli sürülmüş məntiqdir və rəsmi Bakı heç vaxt belə bir iddia ilə razılaşa bilməz. Elə ən böyük məqam da budur. O zaman düşünmək mümkündür ki, sülh müqaviləsində regional kommunikasiyaların açılması seqmenti ümumiyyətlə yer almır. Yer almırsa, deməli, Ermənistan, həm də Azərbaycanın Naxçıvana maneəsiz yol tələbini yerinə yetirmir. Belə olduqda, “Dünyanın kəsişməsi”ndən heç danışmağa dəyməz. Çünki Naxçıvan əvvəlki kimi blokadada qalırsa, Ermənistan üçün də dalan perspektivi qaçılmazdır.

Digər tərəfdən, Mirzoyan bir yandan sülhlə bağlı nikbin ab-havanın olduğu təəssüratını yaradır, başqa bir yandan isə həmin ab-havaya zidd fikirlər səsləndirir. Onun dilə gətirdikləri “oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı” məsəli ilə assosiasiya oluna bilər. Məsələn, erməni XİN rəhbəri deyir ki, sülh sazişinə yalnız imza atmaq qalıb: “Digər sual ondan ibarətdir ki, Azərbaycan, bildiyiniz kimi, vaxtaşırı başqa ilkin şərtlər irəli sürməyə başlayır və ya başqa məsələlər ortaya qoymağa çalışır”.

Məlumdur ki, Ermənistan rəsmiləri bütün platformaları anti-Azərbaycan təbliğatının plasdarmına çevirmək üzrə, belə demək mümkünsə, ixtisaslaşıblar. Lüksemburqun xarici işlər naziri ilə birgə mətbuat konfransı da A.Mirzoyan üçün bu baxımdan istisna olmadı. Nəticəyə gəlirik ki, erməni nazir nəyin rəsmi Bakı tərəfindən məqbul qarşılanmayacağını yaxşı dərk edir. Sadəcə, o, həyasızlığa güc verir və çalışır ki, qarşıdakı müddətdə ölkəmizin, guya, sülhdən yayındığını iddia etmək üçün əsas olsun.

Hərçənd Mirzoyan belə bir fikri də səsləndirir: “Lakin bu mətni imzalamaqla, digər mübahisəli məsələlərin həlli yollarını taparaq irəli getmək mümkün olacaq”.

A.Mirzoyanın üzərində dayandığı başlıca detallardan biri də kommunikasiyaların açılması məsələsində özəl mühafizə şirkətinin yola, yəni Naxçıvana yola nəzarəti reallaşdırmasına dair tezisdir. Məlum olduğu kimi, məsələ Ermənistandakı bəzi qüvvələr tərəfindən rəsmi İrəvanın prinsiplərindən geri çəkilməsi kimi təqdim olunur.

*(ardı 5-ci səhifədə)*

## Biznes layihələri qovluqlarda qalmır



Səhifə ⇨ 7

## Koreya Xalq Demokratik Respublikasının Dövlət İşlərinin Sədri Zati-aliləri cənab Kim Çen Ina

**Zati-aliləri,**

Koreya Xalq Demokratik Respublikasının Yaranması Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələr daha da inkişaf edəcək, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımız bundan sonra da genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

## Tacikistan Respublikasının Prezidenti Zati-aliləri cənab Emoməli Rəhmona

**Hörmətli Emoməli Şərifoviç,**

Tacikistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin uzaqgörən rəhbərliyiniz altında Tacikistan hərtərəfli inkişaf və sosial-iqtisadi yüksəliş yolu ilə inamla addımlayaraq beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır.

Biz Azərbaycan ilə Tacikistan arasında ortaq tarixi-mədəni köklər, qardaşlıq, qarşılıqlı etimad və dəstək kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərə böyük əhəmiyyət veririk. Qardaş xalqlarımız arasında təşəkkül tapmış çoxəsrlik möhkəm dostluq əlaqələri, aramızdakı fəal siyasi dialoq və qarşılıqlı anlaşma bu gün yüksək səviyyəli Azərbaycan-Tacikistan əməkdaşlığını şərtləndirən başlıca amillərdəndir.

Bu ilin mayında Azərbaycana həyata keçirdiyiniz dövlət səfəri Azərbaycan-Tacikistan əlaqələrinin tarixində yeni səhifə açmış, münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir.

Əminəm ki, həyata keçirdiyimiz çoxsaylı qarşılıqlı səfərlər əsnasında əlaqələrimizin gələcək fəaliyyət istiqamətlərinə dair əldə etdiyimiz razılaşmalar dövlətlərarası əməkdaşlığımızın yeni məzmunla zənginləşməsinə, qardaş xalqlarımız arasında həmrəyliyin daha da möhkəmlənməsinə, ölkələrimizin və bütövlükdə regionun davamlı inkişafına və rifahına töhfələr verəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Tacikistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 6 sentyabr 2024-cü il**

## MSK-nın növbəti iclası



**Sentyabrın 9-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə komissiyanın sentyabrın 4-də və 5-də keçirilən iclaslarının protokolları təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər beynəlxalq müşahidə missiyasının təmsilçiləri, media mənsubları, o cümlədən maraqlı subyektlərin bilavasitə iştirakı ilə komissiya üzvləri tərəfindən geniş müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

İclasın sonunda, həmçinin cari məsələlərə də baxılıb.

**XQ**

# Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun ölkəmizin paytaxtında öz işinə başlaması münasibətilə sizi səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı və uğurlar arzulayıram. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu bir zamanda Forumun təşkilinin rəmzi məna kəsb etdiyini xüsusi vurğulamaq istəyirəm.

Xaricdə yaşayan həmvətənlərimizin sıralarında elm xadimlərinin geniş yer tutması Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır. Diasporumuzun fəaliyyətinin sistemliliyinin təmin edilməsi məqsədilə elm sahəsində çalışan soydaşlarımızla daha sıx münasibətlər qurulması, milli maraqlarımıza xidmət göstərən müxtəlif proqram və layihələrdə onların yaxından iştirakının dəstəklənməsi istiqamətində ötən müddət ərzində təqdirəlayiq işlər görülmüşdür.

Forumun dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi, onların elm və təhsil ocaqlarımızla əlaqələrinin dərinləşməsi, qazanılan müştərək nailiyyətlərdən yararlanmaqla ölkəmizin qlobal hədəflərə sürətlə yaxınlaşması, habelə Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası baxımından son dərəcə səmərəli olacağına əminəm.

İnanıram ki, Forum Azərbaycanda elmin dayanıqlı və innovativ inkişafı naminə ətraflı fikir mübadiləsi və dolğun müzakirələr şəraitində keçəcək, işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesinə alimlərimizin öz bilik və təcrübələri ilə töhfə verə bilmələri üçün faydalı əməkdaşlıq yollarını müəyyən edəcəkdir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 9 sentyabr 2024-cü il**

## Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2024-cü ilin dekabr ayında Azərbaycanın Xalq şairi, ictimai xadim, Dövlət mükafatları laureatı Nəbi Xəzrinin (Nəbi Ələkbər oğlu Babayevin) anadan olmasının 100 ili tamam olur.

Nəbi Xəzri Azərbaycan ədəbiyyatını yeni poetik obrazlarla zənginləşdirərək onun inkişafında özünəməxsus rol oynamış görkəmli söz ustasıdır. Çoxcəhətli yaradıcılığı boyu sənətkar insanın mənəvi aləminin saflığını geniş lirik-epik lövhələrlə tərənnüm etmiş və daim ülvi ideallarla yaşamağa çağırmışdır. Azərbaycan xalqının tarixi-mədəni yaddaşının bir çox səhifələri onun yüksək vətəndaşlıq qayəsindən yoğrulan əsərlərində öz bədii təcəssümünü tapmışdır. Təbiət gözəlliklərinə vurğunluq və doğma torpağa bağlılıq hissləri aşılayan Nəbi Xəzri poeziyası dərin lirizmi, ifadə tərzi və həyata fəlsəfi münasibəti ilə seçiyyələnir. Nəbi Xəzrinin dram əsərləri Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş və müəllifinə şöhrət qazandırmışdır. Nəbi Xəzri eyni zamanda ictimai xadim kimi səmərəli fəaliyyət göstərmiş, Azərbaycan mədəniyyəti və incəsənətinin xarici ölkələrdə təbliği istiqamətində təqdirəlayiq işlər görmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Nəbi Xəzrinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 9 sentyabr 2024-cü il**

# Ermənistan kommunikasiyalarla bağlı öhdəlikləri yerinə yetirmir

**Təəssüf ki, Ermənistan tərəfi növbəti dəfə ictimaiyyətin fikirlərini real vəziyyətdən yayındırmaq məqsədi güdür.**



Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın xarici işlər nazirinin "sülh sazişi" və kommunikasiyalar ilə bağlı fikirləri ilə əlaqədar yerli medianın suallarına cavabında deyib.

O bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsi üzrə sonuncu dəfə Azərbaycan tərəfindən iyun ayında təqdim olunmuş şərhlərə Ermənistan tərəfi avqust ayının sonunda, təqribən 70 gün sonra şərhlərini göndərib.

"Ermənistan tərəfi, Azərbaycanın təqdim etdiyi şərhlərə adekvat reaksiya vermək əvəzinə, layihədə əks olunması zəruri olan müddəaları çıxarmaqla problemlərə göz yummağa cəhd göstərib. Layihə üzrə indiyə qədər bir çox müddəalar, yəni təqribən 80 faiz razılaşdırılsa da, bəzi müddəaların razılaşdırılması hələlik mümkün olmayıb. Ancaq bu o demək deyil ki, Ermənistan tərəfi təklif etdiyi kimi, razılaşdırılmamış müddəaları layihədən çıxarmaqla saziş imzalanmalıdır. Bu məqbul hesab edilə bilməz. Çünki sülh sazişinin davamlı və uğurlu olması üçün bir sıra istiqamətlərdə iki ölkə arasında problemli məsələlərə layihədə aydınlıq gətirilməlidir.

Azərbaycana qarşı ərazi iddialarını davam etdirən, keçmiş münaqişənin qalığı olan Minsk qrupunun işinin bərpasına çalışan Ermənistanın "sülh sazişi"nin mətninin əhatə dairəsini azaldaraq onu hər bir formada imzalamağa çağırış etməsi bu ölkənin əsl niyyəti barədə bir çox suallar yaradır.

Saziş layihəsinin imzalanması üçün Ermənistan, ilk növbədə, hazırda ölkəmizə qarşı ərazi iddialarına istinad edən konstitusiyasında müvafiq dəyişikliklər etməlidir.

Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı Ermənistan yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinin mövcud olduğunu bilsə də, onları son 4 ilə yaxın müddətdə yerinə yetirməyib. Hər iki ölkə ərazisində xarici özəl şirkətin prosesə cəlb olunması barədə fikirlər ilə bağlı isə qeyd edək ki, Azərbaycan heç zaman öz ərazisində üçüncü tərəfin prosesə cəlb olunması barədə müzakirə aparmayıb. Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir", - XİN rəsmisi vurğulayıb.

Qeyd edək ki, 9 sentyabr tarixində Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan Lüksemburqun xarici işlər və ticarət naziri ilə birgə mətbuat konfransında bildirib ki, sonuncu dəfə Ermənistan tərəfindən Azərbaycana təqdim edilmiş "sülh sazişi" layihəsinin mətni tam olaraq razılaşdırılıb və layihə razılaşdırılmış müddəaları ehtiva edir. Bununla yanaşı, o qeyd edib ki, Ermənistan tərəfi öz ərazisindən keçən hər hansı bir yola nəzarəti üçüncü tərəfə vermək niyyətində deyil. Bununla yanaşı, yük və sərnişinlərin təhlükəsiz hərəkətini təmin etmək üçün hər iki ölkədə xarici özəl şirkətin prosesə cəlb edilməsi məsələsinin müzakirə edildiyi diqqətə çatdırılıb.

**XQ**

## TDT Ədliyyə Nazirləri Şurasının 2-ci iclası Azərbaycanda keçiriləcək



**Ədliyyə naziri Fərid Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Ədliyyə Nazirləri Şurasının ilk iclasında iştirak edib.**

Tədbirdə çıxış edən Fərid Əhmədov ədliyyə sahəsində üzv dövlətlərlə çoxtərəfli formatda əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Ötən dövr ərzində Azərbaycan və türk dövlətləri arasında elektron ədliyyə xidmətləri, notariat fəaliyyəti, məhkəmə ekspertizası, cəza-icra sistemi və kadr hazırlığı sahəsində ikitərəfli əməkdaşlığa dair çoxsaylı sənədlərin imzalandığını qeyd edən nazir Ədliyyə Nazirləri Şurasının üzv dövlətlər arasında sahə üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində effektiv platforma olacağını bildirib.

Toplantıda üzv dövlətlər arasında çoxtərəfli əməkdaşlıq üçün perspektivlər, ədliyyə sahəsində rəqəmsallaşmanın əhəmiyyəti, hüquqi sahədə yeni razılaşmaların əldə edilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Nazirlər görüşün yekununda Azərbaycan tərəfinin də təkliflərı nəzərə alınmaqla Birgə Bəyannamə imzalayıb və şuranın 2-ci iclasının 2025-ci ildə Azərbaycanda keçirilməsi barədə qərar qəbul ediblər.

**XQ**

## Prezidentin xüsusi nümayəndəsi Tatarıstanda

**Prezidentin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi Vahid Hacıyev Rusiyanın Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovla görüşüb.**

Hökumət Evinin ofisində baş tutan görüşdə xüsusi nümayəndə ilə yanaşı, onun müavini Səbuhi Mehdizadə, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İcraçı direktoru Növrəs Cəfərov da iştirak ediblər.



Rüstəm Minnixanov çıxışında hazırkı işgüzar əlaqələrin davam etdirilməsinin Rusiya–Azərbaycan münasibətlərinin gələcək inkişafı çərçivəsində vacibliyini vurğulayıb. Tatarıstanın Rəisi Azərbaycana işgüzar səfərini xatırlayaraq Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında bərpa-quruculuq işlərinin sürəti barədə olan müsbət təəssüratlarını qeyd edib. Sonra birgə layihələrin müzakirəsi olub, digər aktual mövzulara da toxunulub.

Vahid Hacıyevin Tatarıstana işgüzar səfəri Rüstəm Minnixanovun dəvəti əsasında baş tutub. Üç gün davam edəcək səfər zamanı Kazan və İnnopolis şəhərlərində bir sıra dövlət və özəl qurumlarda görüşlərin keçirilməsi nəzərdə tutulub.

**XQ**

# Ölkəmiz AIPCE-nin toplantısında



**Londonda Avropa Müstəqil Mətbuat Şuraları Alyansının illik toplantısı keçirilib.**

Toplantıda ölkəmizi Azərbaycan Mətbuat Şurasının Beynəlxalq Əlaqələr Komissiyasının sədri Müşfiq Ələsgərli və qurumun İdarə Heyətinin üzvü Yadigar Məmmədli təmsil edib.

Tədbir AIPCE-yə üzv təşkilatların illik hesabatlarının təqdimatı və müzakirəsi ilə başlayıb. Ayrı-ayrı ölkələr üzrə mətbuat şuralarının hesabatlarının dinlənilməsindən sonra təşkilati məsələlərə baxılıb. Növbəti bir il üçün AIPCE-nin fəaliyyətini koordinasiya edəcək katiblik formalaşdırılıb.

Toplantıda, həmçinin müasir media trendləri ətrafında da diskussiya gedib. "Süni intellektin jurnalistikaya təsirləri", "ChatGPT, Google Search və müəllif hüquqları", "Peşəkar medianın mövcud problemləri və gələcək təhdidlərə qarşı dayanıqlılığın yaradılması", "Rəqəmsallaşma dövründə media şuralarının rolu" kimi mövzular üzrə panel sessiyalar təşkil olunub.

Qeyd edək ki, Avropa Müstəqil Mətbuat Şuraları Alyansı Avropa dövlətlərində fəaliyyət göstərən mətbuat şuralarının koordinasiyasını həyata keçirən beynəlxalq təşkilatdır. Azərbaycan Mətbuat Şurası AIPCE-nin tamhüquqlu üzvüdür və onunla sıx əməkdaşlıq edir.

**XQ**

# İrəvan, Aİ, Moskva və Tehranın “düyün” əməliyyatı

## *Zəngəzur dəhlizini kəsişmə nöqtəsindən qarşıdurma platformasına çevirmək cəhdləri*

**Cənubi Qafqazda qlobal maraqları olan kənar aktorlar qitələrarası nəqliyyat kommunikasiyalarının işə düşməsi ilə bağlı ortaq məxrəcə gələcəkləri nöqtələri aradıqları indiki məqamda Tehrandan bu layihəyə kəskin etirazlar eşidilməkdədir. Baxmayaraq ki, rəsmi Bakı məhz “böyük güclər”in diqqətlə izlədiyi Zəngəzur dəhlizi məsələsini sülh danışıqlarının gündəliyindən çıxarılması və bu mövzunu ikinci mərhələdə daha detallı şəkildə müzakirəsi ilə razılaşıb. Fəqət, Azərbaycan və Ermənistan arasında sülhə qapı açmağa hesablanmış bu xoş niyyət, nədənsə, cənub qonşumuzun narazılığına, hətta qəzəbinə səbəb olub. Belə görünür ki, İran İslam Respublikasının rəhbərliyi Zəngəzur mövzusunu əlində bayraq edərək sülh prosesinə aparan xoş niyyətli addımları özünəməxsus şəkildə “düyün nöqtəsinə” çevirməyə çalışır. Tehrandakı teokratik rejimin bölgəyə sülh və əməkdaşlıq vəd edən addımları boykot etmək siyasəti ilə prosesləri dalana dirəməkdə məqsədi nədir? Bu və digər suallarımıza tanınmış siyasi icmalçı Orxan Amaşov aydınlıq gətirir:**

– Zəngəzur dəhlizi Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması zəncirinin bir halqasıdır. Həm də olduqca vacib, bizim üçün ən fundamental halqadır. Konkret deyək: əgər Zəngəzur dəhlizi açılmasa, bu halda Azərbaycanla Ermənistan arasında heç bir kommunikasiya xətti işə düşməyəcək. Təbii ki, İran bundan çox narahatdır. Narahatlıq ondandır ki, Azərbaycan ərazisinin əsas hissəsindən Naxçıvana, İrana ehtiyac duymadan gediş-gəliş olacaq. Bəli, Tehran buraya təsir gücünü itirir. Axı, bundan əvvəl biz Naxçıvana quru yolla həmişə İrandan keçib getmişik. Yeni variantda Azərbaycanın İrana ehtiyacı, həm də ondan asılılığı azalmış olur. Bununla yanaşı, Ermənistan Azərbaycanın qurduğu ticari-iqtisadi kommunikasiya habına daxil olur. Ən vacibi isə bunun sayəsində Ermənistanla Azərbaycan arasında qarşılıqlı inam yaranır. Çünki biz Ermənistan ərazisindən keçəcəyiksə, deməli, ona müəyyən mənada güvənirik. Bu da İranın maraqlarına heç cür uyğun deyil. Ümumiyyətlə, Tehran həmişə çalışıb ki, iki ölkə arasında münaqişə olsun. Bu zaman İran düşünür ki, həm Azərbaycan, həm də Ermənistan üzərində təsirini daha da gücləndirir.

İkinci Qarabağ müharibəsindən sonra İran çox böyük “siyasi sarsıntı” keçirdi. Azərbaycan Qarabağı işğalçılardan azad edəndə Tehran ciddi narahat idi. Bu səbəbdən onların bizə dediklərinin, təbriklərinin heç biri səmimi deyildi. Rəsmi Tehran istəyirdi ki, torpaqlarımız həmişəlik Ermənistanın işğalı altında qalsın. Onun irəli sürdüyü “Cənubi Qafqazda sərhədlərin dəyişilməsinə heç vaxt imkan verməyəcəyik”, “Zəngəzur dəhlizi bizim “qırmızı xəttimizdir”, “buna imkan verə bilmərik” tezisləri nə deməkdir? Azərbaycanın tarixi torpaqları işğal olunanda artıq mövcud sərhədlər, faktiki olaraq, dəyişmişdi. Ermənistan kimi, İran da Azərbaycanın suveren ərazisinə daxil olur, işğal altındakı torpaqlarımızda qeyri-qanuni, şübhəli fəaliyyət göstərirdi. Yəni, sərhədlərin dəyişdirilməsi yerlərdə bu cür baş verirdi. Tehran isə bütün bunlara göz yumurdu. Maraqlıdır ki, indi İran rəhbərliyi Azərbaycanın əsas hissəsindən Naxçıvana Zəngəzur dəhlizi vasitəsilə gediş-gəlişi sərhədlərin dəyişməsi kimi qəbul edir. Bizə gün kimi aydındır ki, hazırda Bakı və İrəvan arasında həmin ərazinin Azərbaycana transferi müzakirə mövzusu deyil. Burada söhbət kommuni-



kasiya xəttindən gedir. Azərbaycan ümumi şəkildə Ermənistanın ərazi bütövlüyünü tanıyır. Doğrudur, bunu rəqəmlər vasitəsilə anlatmağa ehtiyac yoxdur. Artıq konkret ərazidə sərhəd delimitasiya olunub.

***– Sizcə, Tehranı narahat edən əsas məqam Ermənistanla sərhədinin aradan qalxması perspektividir, yoxsa başqa səbəb var?***

– Biz müasir dünyada yaşayırıq. Azərbaycanlılar Zəngilandan Naxçıvana gedəndə məgər İran ərazisindən Ermənistana daxil olmaq çətinləşəcək? Məgər o yollar kəsişə bilməz? Müasir texnologiya, yeni infrastruktur imkan vermirmi ki, dəhliz və yollar kəsişsin? Bəziləri Zəngəzur dəhlizini İranın Ermənistana girişini bloklayan beton divar kimi təsəvvür edirlər. Bu, məntiqsiz və normal düşüncədən məhrum bir mülahizədir. Şəxsən bizə həmin məntiq aydındır. Yəni, Tehran bizim ona ehtiyacımız olmayacağını düşünür: “Azərbaycan mənim nəzarətimdən kənar ürəyi istədiyi vaxt Naxçıvana gedə biləcək. Ermənistanın məndən asılılığı daha da azalacaq. Ermənistan İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın qurduğu geosiyasi konfiqurasiyanın bir üzvü olacaq. Və əgər bunların arasında ikitərəfli sülh müqaviləsi, yaxud hər hansı çərçivə sazişi olarsa, İranın bölgədə mövqeləri zəifləyəcək”. Tehran bunu çox gözəl anlayır. Bəli, İran Ermənistanla Azərbaycan arasında normal münasibətlərin olmasını istəmir. Ona görə də normallaşmaya ən müxtəlif addımlarla, hərəkətlərlə mane olmağa çalışır.

Əslində, Tehranın bu davranışı rasional sayıla bilər, çünki öz maraqlarından çıxış edir. Amma məsələnin kökü ondan ibarətdir ki, Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra İranı nəzərə aldı. Düşündü ki, Tehran onsuz da müharibədən çox sarsılıb, ondan nəsə istəmək doğru olmaz. Xatırlayırsınızsa, 2022-ci ilin martında biz qarşılıqlı memorandum, dəmir yolunun çəkilişi ilə bağlı anlaşma imzaladıq. Məqsəd İran vastəsilə Naxçıvanla birləşməyi təmin etmək idi. Həmin layihə Tehranın maraqları nəzərə alınmaqla “3+3” formatı çərçivəsində İranın da postmüharibə dövrünün konfiqurasiyasında mövqeyinin möhkəmlənməsinə hesablanmışdı. Təəssüf ki, bunlar İran üçün kifayət deyil. O, Azərbaycanı güclü dövlət kimi görmək istəmir. Bu səbəbdən də indi bu cür davranır. 2022-ci ilin sonlarında Laçın yolu ətrafında baş verən olaylarda İranın sərgilədiyi siyasəti yadınıza salın. İran TIR-ları, sürücüləri orada idilər. Onların Qarabağda, Laçında nə işləri vardı?

***– Bununla Tehran nəyə nail oldu?***

– Heç nəyə! Azərbaycan tarixinin ən böhranlı mərhələlərində İran destruktiv qüvvə kimi çıxış edib. Bizim insanların bir çoxunda belə bir sadəlövh təsəvvür yaranmışdı ki, İranın yeni seçilmiş prezidenti Azərbaycan türküdür, ana dilində danışır, gözəl şeirlər deyir. Guya, bu adam İranın siyasi kursunu dəyişəcək və sair. Əlbəttə, olduqca aldadıcı təsəvvür idi. Çünki İran çox fundamental və elə-belə dəyişən dövlət deyil. Bu dövlətin mahiyyətində Azərbaycana qarşı çox vacib bir element durur. Bu elementin sabah, o biri gün dəyişməsi mümkün deyil. İntəhası, biz ikitərəfli münasibətləri tənzimləyə bilərik. Bəli, aramızda dərin ziddiyyət mövcuddur. Məsələnin kökü budur. Buna baxmayaraq, müəyyən sahələr var ki, yaxından əməkdaşlıq edə bilərik. Misal üçün, böyük potensiala malik Şimal–Cənub layihəsində. Eyni zamanda, Bakı xarici qüvvələrin bölgədə güclənməsini heç arzulamır. Bunda İran da maraqlı olmalıdır. Əməkdaşlıq üçün imkanlar var. İndi isə olduqca maraqlı bir məqam ortaya çıxıb. Rəsmi Tehran Rusiyanın Zəngəzur dəhlizini dəstəkləməsindən narazıdır. Prinsip etibarilə 2020-ci ildən sonra Rusiyanın mövqeyi buna hesablanmışdı.

***– Amma indiki məqamda tarixi müttəfiqlər – İran və Rusiya fərqli mövqelərdən çıxış edirlər. Bunu necə izah edərdiniz?***

– Hazırda İran Rusiyadan narazıdır. Əslinə qalsa, bu, bizim üçün yaxşı əlamətdir. Çünki Tehran və Moskva eyni maraqlardan çıxış edəndə və Ermənistanı dəstəkləyəndə Azərbaycanı çətin vəziyyətdə qoyurlar. Bunun tarixi kökləri də var. Bizim milli məfkurəmizdə İran və Rusiyanın hansı yerlərdə olduğu məlumdur. Bu barədə danışmağa ehtiyac yoxdur. Doğrudur, bugünkü reallıqda onların ikisinin də bölgədə rolu müəyyən qədər qalmaqdadır.

Postmüharibə dövründə Moskva Zəngəzur dəhlizi kimi kommunikasiya xəttinin reallaşmasında maraqlı idi. İstər Lavrov, istərsə də Zaxarova kommunikasiya xətləri üzərində dövlətin suverenliyi prinsipini deyirdilər. Həmin ərazinin Ermənistana mənsubluğu heç kəsdə şübhə doğurmurdu. Əsas münasibət İran tərəfindən bildirilirdi. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, Azərbaycan tərəfi – Prezidentin xüsusi məsələlər üzrə nümayəndəsi Elçin Əmirbəyovun avqustun əvvəllərində kommunikasiya xətləri ilə bağlı müddəalar toplusu-




nun sülh sazişinin mətnindən çıxarıldığını bəyan etməsindən sonra Rusiya fəallaşmağa başladı.

Kreml hiss edirdi ki, Azərbaycan–Ermənistan kontekstində onun rolu azalmağa başlayıb. Sülh danışıqları ikitərəfli formatda aparılır və onlar artıq Moskvada keçirilmir. Danışıqların son platformaları Münxen, Berlin, Astana idi və yenə Astananın olacağı gözlənilir. Moskva kənarda qalıb. 2021-ci ildə sərhədin delimitasiya və demarkasiyası prosesində Rusiyanın konstruktiv iştirakı nəzərdə tutulurdu. İndi o da yoxdur. Yalnız xəritələr onlarda olduğuna görə belə hesab edirlər ki, bu məsələdə aparıcı rolu oynaya bilərlər. Prinsip etibarilə Rusiyanın rolu nə Azərbaycana, nə də Ermənistana lazımdır. Proses ikitərəfli formatda davam edir. Yeganə kommunikasiyaların açılması məsələsidir ki, burada Moskvanın rolu qalmaqdadır. Ən azı, ona görə ki, üçtərəfli hökumətlərarası işçi qrup var və Rusiya da burada iştirakçıdır.

2020-ci il 10 noyabr Bəyanatının 9-cu maddəsi prinsip etibarilə hələ qüvvədədir və dəhlizə Rusiyanın nəzarət funksiyasını heç kim ləğv etməyib. Eyni zamanda, Rusiya indiki tarixi mərhələdə bu layihədəki rolunun minimallaşmasına da razıdır. Təbii ki, İran buna reaksiya verir. Zəngəzur dəhlizinə Tehranın etiraz etməsində təəccüblü heç nə yoxdur. Dediyimiz kimi, Naxçıvana getməkdən ötrü Azərbaycanın İrana ehtiyacı qalmayıb. Amma Bakı o imkanı da yaradır ki, Naxçıvana İran vasitəsilə də gedə bilərik. Fəqət Naxçıvana Araz dəhlizi ilə getməyi Zəngəzurdan keçib getməklə eyniləşdirmək olmaz. Çünki Tehran maneəsiz, Ermənistanın nəzarətindən kənar keçidə qarşıdır. Əgər Bakı və İrəvan öz aralarında razılığa gəlsələr, sual yarana bilər ki, İran bu məsələdə niyə destruktiv rol oynamalıdır? Tehran bu rolunu sərhədə qoşunlarını yığmaqla göstərdi. Amma hesab etmirik ki, indiki məqamda İran rəhbərliyinin atacağı hansısa addım Azərbaycanın bu istiqamətdəki fəaliyyətinə təsir göstərmək gücündə olsun. İran kəşfiyyatı güclüdür və İrəvan Tehrana müəyyən vədlər verib. Bunun qarşılığında nəsə etməlidir.

***– Gəlin, Avropa İttifaqı–Ermənistan – Rusiya münasibətlərinə toxunaq. İrəvan, eyni zamanda, həm Avropaya inteqrasiya yolunu tutub, həm də Rusiyanın üzvü olduğu bir neçə təşkilatda təmsil olunur. Bu, normaldırmı?***

– Əslinə qalsa, eyni vaxtda bir neçə təşkilatın üzvü olmaq normal sayılır. Əgər həmin təşkilatlara üzvlük bir-biri ilə hüquqi ziddiyyət təşkil etmirsə. Amma siz eyni vaxtda iki iqtisadi blokda ola blməzsiniz. Yəni, hər ikisində bənzər, preferensial rejimlər mövcuddursa. Ermənistan Avropa İttifaqının tamhüquqlu üzvü ola-ola Avrasiya İqtisadi İttifaqında qala bilməz. Bu, aydın məsələdir. Axı, burada söhbət Aİ-nin tamhüquqlu üzvü olmaqdan getmir. Məsələ üzvlüyə doğru mərhələli şəkildə irəliləməkdədir.

Fikrimizcə, Paşinyan administrasiyasının ətrafında olanlar, məslək və mənşə etibarilə avrofillərdir və ölkələrinin gələcəyini Qərblə təmasda görürlər. Burada qeyri-adi heç nə yoxdur. Söhbət bunun necə həyata keçirilməsindən gedir. Aİ ilə bağlı məsələnin bir maraqlı tərəfi də var. Ermənistan konstitusiyasının preambulasında müstəqillik bəyannaməsinə, orada isə 1989-cu il qərarına istinadlar mövcuddur. Bəli, bunları aradan qaldırmaq üçün referendum keçirilməlidir. Paşinyan komandasında belə bir yanaşma var ki, əgər biz bu referenduma Azərbaycana görə gediriksə, onda ölkəmizin Aİ-yə üzvlük məsələsini də həmin paketə daxil edək və bu iki məsələ bir yerdə həllini tapsın. Çox maraqlı texnologiyadır. Ola bilsin ki, İrəvan Aİ-yə üzvlüyü özünün strateji məqsədi kimi müəyyən edib. Bəs, reallıqda Ermənistan nəyə nail ola bilər? Aİ-yə üzvlüyün hansı mərhələlərdən keçdiyini, qurumun verdiyi vədlərdən yayındığını da bilirik. Türkiyə nümunəsi göz qabağındadır. Ermənistan isə Avropanın bu qurumuna qəbul ediləcək səviyyədə bir ölkə deyil. Brüssel bu prosesdə Ermənistanı aktiv və konkret addımlar atana qədər dəstəkləyəcək. Amma Aİ-yə üzvlüyün qapısı Ermənistanın üzünə bağlı qalacaq...

*Hazırladı:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Erməni təəssübkeşliyinin İran vektoru və Azərbaycan amili

**(əvvəli 1-ci səhifədə)**

Ötən həftəni İranın regional aktivliyi baxımından məhsuldar zaman kəsiyi saymaq olar. Əlbəttə, buna məhsuldarlıq demək mümkündürsə. Əvvəlcə İslam respublikasının Xarici işlər nazirinin köməkçisi Mürtəca Dəmirçulu, sonra nazir Abbas Araqçi, ardınca isə İranın Ermənistandakı səfiri Mehdi Sobhani daha açıq formada Tehranın İrəvana dəstəyini ifadə etdilər. Sobhani, həmçinin Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanla görüşündə ölkəsinin mövqeyini bir daha ifadə etdi. Qriqoryan bundan ruhlanaraq dedi: “Ermənistan İslam respublikası ilə əlaqələrə böyük önəm verir və heç bir qüvvə İranla Ermənistan arasındakı ərazi bağını aradan qaldıra bilməz”.

Göründüyü kimi, Qriqoryanın “ərazi bağı” məntiqi ölkəsinin avantürizmini daha möhkəmləndirmək və ona saxta mənəvi sipər qazandırmaq cəhdidir. Aydındır ki, İranla Ermənistan arasındakı sərhədi aradan qaldırmaq kimi meyillər yoxdur. Azərbaycan Naxçıvana maneəssiz yol istəyir. Yəni, yolda heç bir sərhəd və gömrük nəzarəti tətbiq edilməsin. Dünya miqyasında da belə təcrübə var. Eyni zamanda, bir müddət əvvəl Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin təmsil olunduqları üçtərəfli görüşdə Naxçıvana yolla bağlı hüquqi dəyərləndirmələr aparılmış və elə formul seçilmişdi ki, Ermənistanın ərazi bütövlüyü və suverenliyi hansısa şəkildə mübahisə predmetinə çevrilməsin.

Ancaq rəsmi İrəvan bundan boyun qaçırdı və faktiki olaraq, danışıqları dalana dirədi, özünün “Dünyanın kəsişməsi” ideyasına fokuslanmağa başladı. Məlumdur ki, bu fokuslanma Azərbaycanın Naxçıvana yol məsələsində irəli sürdüyü “Zəngəzur dəhlizi” təşəbbüsünə qarşı çıxmaq məramına söykənib. 44 günlük müharibəyə yekun vuran və Azərbaycan, Rusiya, Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda həmin yolda təhlükəsizliyin Rusiya Federal Təhlükə-



sizlik Xidməti tərəfindən təmin olunacağı göstərilir. İrəvan isə haqqında söz açdığımız üçtərəfli danışıqlarda belə tələb irəli sürmüşdü ki, rus sərhədçiləri Ermənistan tərəfində olduğu kimi, Azərbaycan tərəfində də keşik çəksinlər. Yəni, danışıqlar məhz bu tələbə görə dalana dirənmişdi.

Aydın idi ki, Azərbaycan məsələnin qoyuluşu ilə razılaşmayacaq. Bunu erməni tərəfi də bilməmiş deyildi. Deməli, İrəvanın sərsəm arqument gətirməsi danışıqları pozmaq üçün bəhanədən başqa bir şey deyildi. O da tam aydındır ki, Ermənistanın istəyi yerinə yetirilsəydi, İrəvan başqa bəhanə irəli sürəcəkdi. Çünki Qərbdən gələn direktivlər Ermənistanı Cənubi Qafqazın yol qovşağına çevirməyə, bununla da erməni avantürizmini Azərbaycana qarşı daim təzyiq vasitəsi kimi saxlamağa hesablanıb. Əlbəttə, Rusiyanı Cənubi Qafqazdan tamamilə çıxarmaq istəkləri də öz yerində.

Bəli, İran hazırda, faktiki olaraq, Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq məqsədi güdən Qərb əlinə oynayır. O Qərbin ki, hər an İranı parçalamağa hazır vəziyyətdə dayanıb. Deyəsən, Tehranda bu məqamı heç nəzərə almırlar. Nəzərə almır və anti-Rusiya tezisləri səsləndirirlər. Məsələn, İran parlamentinin milli təhlükəsizlik komissiyasının üzvü Fədəhhüseyn Maliki ultimativ tonda bildirib ki, Moskva “Zəngəzur dəhlizi” məsələsində paradoksal addımlardan çəkinməlidir. Onun sözlərinə görə, İran diplomatiyası Rusiyanın addımlarına qarşı qəti cavaba hazırdır. “Rusiyanın “Zəngəzur dəhlizi”nə dəstəyi kürəyimizdən zərbədir”, – deyən deputat, həmçinin vurğulayıb ki, Kreml Fars körfəzində 3 ada məsələsinə görə Tehrandan sərt cavab alıb və eyni səhvi indi Zəngəzurda təkrarlayır.

Göründüyü kimi, İranda Ermənistana dəstək ritorikası xeyli güclənib. Erməni təəssübkeşliyinin Qərb cəbhəsində isə nisbi sakitlikdir. Belə təəssürat var ki, Qərb “təəssübkeşlik missiyasını” Tehrana təhvil verib. O da görünür ki, Qərb Rusiya ilə tarixi ədavətini gerçəkləşdirmək üçün, sanki, fürsət tapıbmış kimi davranır. Hesab edirik ki, belə bir düşüncənin özü regional sülh və sabitliyə ciddi zərbədir. Təəssüf ki, İranda məsələyə diqqət yetirməyən şovinistlər iş başındadırlar. Ən pisi də odur ki, bu kateqoriyadan olanlar dövlət təmsilçilərinin fikirlərindən ilhamlanırlar. Yəni, Sobhaninin, Əraqçının və digər rəsmilərin bildirdikləri onlar üçün, necə deyərlər, göydəndüşmədir.

Bəli, belə getsə, qarşıdakı müddətdə İranda anti-Rusiya ritorikasının daha da güclənəcəyini proqnozlaşdırmaq mümkündür. Ermənistanda da bunu gözləyənlər var. Onlar siyasi sərmayələrini region müstəvisində Tehran–Moskva ədavətinin qızışmasına yatırmaqdadırlar. Bu məsələdə anti-Azərbaycan xətt də götürülür. Söhbətimizin bu yerində əvvəldə adını çəkdiyimiz “iranşünas” Vardan Vaskanyanın nə dediyinə diqqət yetirək.

Bəli, “iranşünas” Vardan erməni məkrini, işğalçılıq niyyətini, Azərbaycana qarşı kin və hikkəni ortaya qoyur. Deyir ki, “Azərbaycan adlı süni varlıq real problemdir, onun mövcudluğu Ermənistanın və regionun sülhü və davamlı inkişafı üçün daimi təhlükədir”. Şübhə yoxdur ki, bu, İrandakı şovinist anti-Azərbaycan mövqeli dairələrin deyimidir. Söhbət ölkəmizin süni yaradılmış dövlət kimi göstərilməsindən gedirsə, məlumdur ki, həmin dairələr də Azərbaycanı İrandan qopma olaraq göstərir və onu “tarixi səhv” qismində qələmə verirlər. Belə dairələr üçün ölkəmizin ərazi bütövlüyü və suverenliyi amili tam mənasızdır. Görünür, bu səbəbdəndir ki, İran otuz ilə yaxın müddətdə torpaqlarımızın işğalı faktına göz yumub. Həmin müddətdə rəsmi Tehran regiondakı ölkələrin sərhədlərinin dəyişdirilməsi cəhdinin yolverilməzliyindən söz açmayıb...

Təxribatçı fikirlərini davam etdirən V.Voskanyan Qarabağ və Zəngəzur məsələsində erməni avantürizminə xas cəhətləri qabardır. Bu “məntiqə” onun “süni yaradılmış Azərbaycan” deyimini və Tehrandakı şovinist dairələrin anti-Azərbaycan düşüncələrini əlavə etsək, saxta iranşünas Vardanın, əslində, nəyə eyham vurduğunu təsəvvürə gətirmək çətinlik törətmir. Ekspert, İrana “süni yaradılmış”, “İrandan qopmuş Azərbaycanı” yenidən ələ keçirmək çağırışı səsləndirir. Yəqin, bu yolla avantürizmin Qarabağ mifinin reallaşacağına ümid bəsləyir. Ola bilər, İranın Azərbaycanı işğal etməsindən sonra onun Qarabağı Ermənistana təhvil verəcəyini düşünür. Ortada bu qədər böyük sərsəmlik, axmaq məntiq var və ən faciəlisi budur ki, Ermənistanda belə xəstə düşüncə daşıyıcılarının, vaskanyanların sayı yetərincə çoxdur. Yaxşı olar ki, İrandakı sağlam qüvvələr mövcud məqamı yaxşı-yaxşı düşünsünlər.

“İranşünas” Vardan daha nələrdən danışıb, başqa nə sərsəmləyib? Məsələ üzərində geniş dayanmağa ehtiyac duymuruq. Aydındır ki, “kor” Vaskanyanın tarixi reallığı görməsi mümkünsüzdür. Erməni millətçiliyinin tarix anlayışındakı dayazlığı faktdır. Bunu bilirik. Bilir və deyirik ki, regionda süni surətdə yaradılmış “vələdüzina” dövlət məhz Ermənistandır.

Tarixi Azərbaycan torpaqlarında yaranmış Ermənistanın hansı məqsədlə formalaşdırıldığı da hər kəsə bəllidir. 1826-1828-ci illərin Rus–İran müharibəsindən sonra, 1830-cu ildə ruslar tərəfindən Qafqaza həm də ikiyə bölünmüş Vətənimizin o tayından, indiki İran ərazisindən köçürülmüş ermənilər türk-müstəlman dünyasında xristian pazı oldular. Bu, həm Qərbin, həm də çar Rusiyasının maraqlarından irəli gəlirdi. 1828-ci il məğlubiyyətindən qeyzlənmiş İran da tədricən “erməni pazı”nın vacibliyini dərk etmişdi. Dərketmə fars şovinizminin ənənəvi anti-türk mahiyyəti şəklində özünü göstərmişdi.

Təəssüf ki, sözügedən mahiyyət günümüz üçün də aktuallığını saxlamaqdadır. Tehranın torpaqlarımızın işğalına seyrçi qalması və Ermənistanın, faktiki olaraq, regionda sərhədləri dəyişdirmək cəhdini sükutla qarşılamasına başqa ad tapmaq mümkünsüzdür. İran dairələri Vaskanyan kimilərinin bildirdiklərinə nəzərən düşünsünlər ki, Ermənistanda işğalçılıq niyyəti güdənlər, revanşist ideyalarla yaşayanlar indi də var və belələrinin mövcudluğu, o cümlədən, rəsmi İrəvanın onların düşüncə tərzlərinə uyğun siyasət yeritməsi regional sabitlik və təhlükəsizliyə ən böyük təhdiddir. Onu da düşünsünlər ki, bu xislətin daşıyıcıları regional məsələlərin həllində normal müzakirə apara bilməyəcək qədər cılızdırlar. Cılızlığa alət olaraq İran–Azərbaycan, İran–Rusiya, eləcə də İran–Türkiyə münasibətlərini korlamaq isə onlara heç bir fayda verməyəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu

**Sentyabrın 9-da Bakıda Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu öz işinə başlayıb.**

Tədbirdən əvvəl forum iştirakçıları Fəxri xiyabanını ziyarət edərək ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı üstünə əklil qoyublar. Daha sonra soydaşlarımız ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən, Şəhidlər xiyabanında uyuyan qəhrəman şəhidlərimizin məzarlarını ziyarət edib, ruhlarına dualar oxuyublar.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin forum iştirakçılarına təbrik məktubunu oxuyub.

Daha sonra "Heydər Əliyev və təhsil" mövzusunda videoçarx nümayiş olunub.

Tədbirin moderatoru, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov bu günü Azərbaycanın tarixində əlamətdar hadisələrdən biri kimi dəyərləndirib. Onun sözlərinə görə, dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlı alimlərin iştirakı ilə keçirilən forum Azərbaycanın gücünün və birliyinin ifadəsidir.

Tədbirdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev vurğulayıb ki, xaricdə yaşayan Azərbaycan alimlərinin iştirakı ilə elmimizin səviyyəsinin artırılması, yeni dövrün tələblərinə uyğun kadrların yetişdirilməsi zamanın tələbidir.

ADA Universitetinin fəaliyyətindən danışan rektor rəhbərlik etdiyi ali təhsil ocağının səmərəli yol keçərək yeniliklər yaratdığını qeyd edib və bildirib ki, bu yol asan olmayıb. Onun sözlərinə görə, sovet dövründə ölkəmizdə elm və təhsil çox yaxşı inkişaf etdirilib. Bakı Dövlət Universitetinə xaricdən alim və mütəxəssislər cəlb edilib. Dəqiq elmlər sahəsində də mütəxəssislərə ehtiyac vardı və bu ehtiyac SSRİ-dən olan alimlərin hesabına yerinə yetirilirdi. Rektor bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün sahələr kimi elm və təhsil sahəsində də yeniliklərin tətbiq edilməsi zərurəti yarandı.

Əməkdar elm xadimi, Münxen Texniki Universitetinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, fizika-riyaziyyat elmləri doktoru, dünya şöhrətli azərbaycanlı alim Məsud Əfəndiyev qeyd edib ki, forumun təşkilində məqsəd Azərbaycan elminin inkişafına töhfə vermək, peşəkar və gənc alimlər arasında körpü yaratmaqdır.

Alim Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirilməsi, elmimizin yüksək səviyyədə inkişaf etdirilməsi üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb. "Xalqımızın inkişafına əlimizdən gələn qədər töhfə verməyə hazırıq", – deyə azərbaycanlı alim qeyd edib.

Forumda Azərbaycan elminin inkişaf etdirilməsi istiqamətində maraqlı müzakirələrin aparılacağına əminliyini diqqətə çatdıran elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, tədbir çərçivəsində ən vacib məqam Azərbaycandan kənarda yaşayan alimlərimizlə inteqrasiya məsələsidir.

Elm və Təhsil Nazirliyi tərəfindən göstəriləcək dəstək və imkanlar barədə danışan nazir transformasiyanın ən böyük problem olduğunu qeyd edib. Elmi rəqəmlərlə ölçməyin mümkün olmadığını deyən nazirin sözlərinə görə, Azərbaycan üçün elm və təhsil sahəsində müəyyən problemlər var. Lakin son on il ərzində bu sahədə müsbət işlər görülüb. Nazir xaricdə yaşayan alimlərimizdən gözləntilərin çox olduğunu da diqqətə çatdırıb.









Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov qeyd edib ki, Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun təşkili, dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən azərbaycanlı alimlərin Bakıda toplanması mühüm hadisədir.

Təşkilatlanma işinin əhəmiyyətini qeyd edən F.Muradov komitənin fəaliyyətini dövlətin siyasətinə, "Yol xəritəsi"nə uyğun qurduğunu bildirib: "Məqsədimiz birliyə nail olmaq, həmrəyliyimizi daha da gücləndirməkdir".

"Qadınlar nüvə sahəsində" Ümumdünya Assosiasiyasında Azərbaycanın rəsmi nümayəndəsi Dinara Abbasovanın (Avstriya) moderatorluğu ilə forum çərçivəsində "Azərbaycanda elm və ali təhsilin beynəlmiləlləşməsində alimlərin rolu" mövzusunda panel müzakirələr aparılıb.

Müzakirələrdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev rəhbərlik etdiyi ali təhsil ocağının özülünün beynəlmiləlçilik əsasında qoyulduğunu vurğulayıb. Beynəlmiləl təcrübənin əhəmiyyətindən danışan rektor xaricdən gələn alimlərin rolunu vurğulayıb və forumun bu istiqamətdə töhfə verəcəyindən əmin olduğunu ifadə edib.

Mövzu ətrafında çıxış edən və təkliflərini səsləndirən digər natiqlər tədbirin noyabr ayında Azərbaycanda keçiriləcək COP29 ərəfəsində təşkil edildiyini vurğulayaraq kadrların hazırlanmasının qlobal əmək bazarının tələblərinə uyğunlaşdırılması, rəqəmsallaşma, yeni model universitet təhsili istiqamətində beynəlmilləşmə strategiyasının roluna toxunublar.

Günün sonunda "Qlobal akademik şəbəkənin qurulması: yerli universitet və elmi tədqiqat institutlarının inkişafı üçün yeni yanaşmalar" mövzusunda da panel müzakirələr aparılıb. Əməkdar elm xadimi, Münxen Texniki Universitetinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, fizika-riyaziyyat elmləri doktoru Məsud Əfəndiyevin moderatorluğu ilə aparılan müzakirələrdə çıxış edənlər qlobal akademik şəbəkənin qurulması ilə bağlı mülahizələrini səsləndirib, təkliflərini bildiriblər. Paneldə Azərbaycanda fəaliyyət göstərən universitet və elmi tədqiqat institutlarının beynəlxalq akademik mühitlə əlaqələndirilməsində xaricdə yaşayan alimlərin rolunun inkişaf etdirilməsi barədə danışılıb. Natiqlər Çin diaspor alimlərinin fəaliyyətindən müsbət mənada faydalanmaq təcrübəsindən bəhs ediblər, Azərbaycan üçün bu modelin qurulmasının vacibliyini vurğulayıblar.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə baş tutan tədbir üç gün davam edəcək.



Forumda 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ümumilikdə, 200-ə yaxın elm xadimi iştirak edir.

Forum çərçivəsində iştirakçılar işğaldan azad edilmiş ərazilərin bərpası prosesində alimlərimizin bilik və təcrübəsindən yararlanmaq məqsədilə Şuşa və Xankəndi şəhərlərində olacaq, Qarabağ Universitetinin müəllim heyəti ilə müzakirələr aparacaqlar.

Forumun məqsədi müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparmaq, dünya azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfələr verməkdir.

***XQ***

# Papikyan Cənubi Koreyada nə axtarır?



**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, Ermənistanla Cənubi Koreya arasında diplomatik münasibətlərin qurulması haqqında protokol 1992-ci il fevralın 21-də imzalansa da, iki ölkənin əlaqələrində inkişaf meyilləri son illərdə müşahidə olunur. Bir müddət öncə Ermənistan hökuməti və Cənubi Koreya hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslər üçün viza tələblərinin aradan qaldırılması, həmçinin iki ölkənin mədəniyyət, idman və təhsil sahələrində əməkdaşlığı haqqında saziş imzalanıb. 2018-ci il martın 6-da Ermənistan hökuməti Cənubi Koreya vətəndaşlarına 180 gün müddətinə viza verilməsi barədə qərar qəbul edib ki, bunun da məqsədi iki ölkə arasında münasibətləri gücləndirmək və turizmi inkişaf etdirməkdir. Ermənistan vətəndaşları üçün isə vizanın liberallaşdırılması 30 gün ərzində tətbiq edilir. Ermənistanda yaşayan Cənubi Koreya vətəndaşlarının sayı 373 nəfərdir. Hayastanın Tokiodakı səfirliyi Cənubi Koreyada da akkreditasiya olunub. Cənubi Koreya 2024-cü ildə səfirlik açmaq istədiyi ölkələrin siyahısına Ermənistanı da daxil edib. Yeri gəlmişkən qeyd edək ki, digər ölkələr Gürcüstan, Estoniya və Litvadır.

Cənubi Koreya Sənaye Nazirliyinin ticarət danışıqları departamentinin rəhbəri An Dok Kın bu yaxınlarda İrəvana səfəri zamanı Ermənistanın Cənubi Koreyanın ixracı üçün "strateji regiona" çevrildiyini bildirib. İki ölkə arasında son beş ildə ticarət dövriyyəsi 4,6 dəfə artaraq, bu ilin 9 ayında 90 milyon ABŞ dollarına çatıb. Seul İrəvanla atom elektrik stansiyaları, inkişafa rəsmi yardım, ticarət və investisiya sahəsində əməkdaşlığı inkişaf etdirməyi planlaşdırır. Cənubi Koreya Sənaye Nazirliyinin bəyanatına görə, Ermənistanla "körpülərin qurulması" Seul üçün son vaxtlar böyüyən tammiqyaslı bazara nüfuz etmək və MDB ölkələri ilə praktiki iqtisadi əməkdaşlığı gücləndirmək üçün zəruridir.

Hayastanın bəzi vəzifəli şəxsləri müxtəlif illərdə Seula səfərlər ediblər. Sonuncu dəfə bir neçə gün öncə – sentyabrın 6-da Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan Cənubi Koreyaya işgüzar səfərə getmişdi. Qriqoryan orada bir sıra görüşlər keçirmişdi.

Əlbəttə, Ermənistan rəsmilərinin hansı ölkəyə səfər etmələri ilə işimiz yoxdur. Sadəcə, burada bizim təhlükəsizlik qayğılarımız baş qaldırır. Çünki heç kəsə sirr deyil ki, Ermənistan Azərbaycana qarşı ərazi iddialarından hələ də əl çəkməyib. Rəsmi İrəvan bunu şifahi şəkildə bəyan etsə də, əsas qanunundan, yəni konstitusiyasından müstəqillik bəyannaməsinə istinadın yer aldığı bəndi çıxarmayıb. Onlar ölkəmizin çoxsaylı iradlarına cavab olaraq, hələ bu yaxınlarda konstitusiya dəyişikliyi üzrə referendumun 2027-ci ildə keçiriləcəyini bəyan etdilər. Buna paralel olaraq, Ermənistan Fransadan, Hindistandan silah-sursat alır, Yunanıstan və Kipr Respublikası ilə hərbi və hərbi-texniki əməkdaşlığı genişləndirir. Avropa Sülh Fondu vasitəsilə Ermənistana silahlı qüvvələrini inkişaf etdirmək üçün ilkin olaraq 10 milyon avro vəsait ayrılıb. İndi isə bu ölkələrin siyahısına Cənubi Koreyanın da qoşula biləcəyi arzuolunmazdır. Ərazi iddiasından rəsmi imza ilə əl çəkməyən ölkənin ordusunu sürətlə silahlandırması, təbii ki, bizim narahatlığımıza səbəb olur. Biz bölgədə yeni hərbi toqquşmanın, yenidən gərginliyin yaşanmasını arzu etmirik. Buna görə də Ermənistan müdafiə nazirinin Seula səfərinə və Hayastanın Cənubi Koreya ilə hərbi əməkdaşlığı inkişaf etdirmək niyyətinə həssaslıqla yanaşırıq.

Mövzu ilə bağlı "XQ"yə açıqlama verən **ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov** bildirdi ki, Ermənistan müdafiə nazirinin Cənubi Koreyaya rəhbərlik etdiyi nazirlik, habelə ordunun silahlandırılması ilə bağlı səfər etməsi mümkündür. Onun sözlərinə görə, digər tərəfdən biz bu



gün süni intellektin silahlandırmada getdikcə böyük rol oynadığını görürük: "Məsələn, Rusiya–Ukrayna müharibəsi fonunda – gedən döyüşlərdə süni intellektin əhəmiyyəti və onun gələcəkdə daha böyük rol oynayacağı barədə çox şey demək olar. Cənubi Koreya da bu baxımdan inkişaf etmiş ölkədir. Onların ordusunda süni intellektin imkanlarından geniş istifadə edilir. Düşünürəm ki, Papikyanın hərbi və hərbi-texniki əməkdaşlıq məqsədilə Cənubi Koreyaya getməsi prinsip etibarilə, təəccüb doğurmamalıdır. Hər bir ölkə öz siyasətini, ordusunu özünün görmək istədiyi kimi qurur".

Ş.Ramaldanovun sözlərinə görə, Qərb dünyası, o cümlədən ABŞ və Cənubi Koreya, demək olar ki, eyni blokun nümayəndələridir. Biz burada bir daha görürük ki, Ermənistanın müdafiə naziri də məhz bu məsələlərlə bağlı həmin blokun nümayəndələri ilə bilavasitə sıx əlaqəlidir. Rəsmi İrəvan gələcək perspektiv istiqamətini də bu yolda görür.

Ermənistanın silahlandırılması prosesinin sürətləndirildiyini qeyd edən ehiyatda olan polkovnik bildirdi ki, bəlkə də İrəvanın havadarları hazırda Cənubi Koreya ilə Hayastan arasında müasir silah-sursat alqı-satqısına dair yeni müqavilələrin axtarışındadırlar: "Hər halda düşünürəm ki, Cənubi Koreya ilə sıx əlaqələr qurmağa Ermənistanı havadarları sövq ediblər. İrəvan Cənubi Koreyanın timsalında özünə yeni havadar tapdığını düşünür. Ona görə də hesab edirəm ki, biz yaxın zamanlarda Ermənistan ordusunun silahlanmasına Cənubi Koreyada istehsal edilmiş hərbi təyinatlı məhsulların və silahların da daxil ediləcəyinin şahidi ola bilərik. Ümumiyyətlə, Ermənistan hazırda çox sürətlə silahlandırılır. Bu, açıq-aydın görünür. Mən deyərdim ki, onlar bu silahlanmanı həm də nümayişkəranə həyata keçirirlər. Bunun da bir neçə məqsədi var. Bu, həm daxili auditoriyaya hesablanmış gedişdir, həm də xaricə müəyyən mesajlar verirlər. Prinsip etibarilə Azərbaycana da bir mesajdır ki, biz silahlanırıq, daha doğrusu, bizi silahlandırırlar. Müəyyən şəkildə xarici havadarlarının olduğunu göstərmək istəyirlər. Ermənistan uzun illərdir tutduğu mövqeyindən və regionda sabitliyi pozan ölkə olmaqdan əl çəkmir. Onun havadarları da müəyyən bir şəkildə İrəvanı buna istiqamətləndirirlər".

Müsahibimiz qeyd etdi ki, Azərbaycan Ordusunun hər cəhətdən inkişaf etməsinə, o cümlədən süni intellektin tətbiqi məsələsinə böyük diqqət yetirilir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında, onun diqqəti və səyləri nəticəsində ordumuz bu gün ən müasir silahlarla silahlanır, son istehsal olan avadanlıqlar alınır. Ordumuz bu istiqamətdə inkişaf edir. 44 günlük Vətən müharibəsində də ölkəmiz məhz yeni yanaşmalar tətbiq etməklə, süni intellektin imkanlarından yararlanmaqla, müasir silah və avadanlıqların tətbiqi ilə, təbii ki, onlardan mükəmməl şəkildə istifadə etməyi bacaran peşəkar hərbçilərimizin sayəsində qələbə çaldı. Azərbaycan Ordusu bu sahədəki inkişafı ilə də torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlamış ölkənin ordusunu qabaqlayır. Ordumuzda intellektual potensialı yüksək olan, rəqəmsallaşmış və süni intellektin tətbiq edildiyi silah və texnikanın idarə olunmasında bacarığa malik yetərincə zabit kadrları var. Bu gün də ölkəmizdə istər təlimlərdə, istərsə də məşğələlərdə ən müasir silah-sursat və texnikaya üstünlük verilir. Azərbaycan bu sahədə də Ermənistandan qat-qat irəlidədir.

Erməni nazirin səfərini şərh edən **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə açıqlamasında bildirdi ki, bir ölkənin müdafiə naziri başqa ölkəyə səfər edirsə, bunun ən azı iki səbəbi olur. Birinci səbəb odur ki, həmin nazir səfər etdiyi ölkə ilə hərbi əməkdaşlığı inkişaf etdirmək istəyir və ya getdiyi ölkənin hərbi texnikasına maraq göstərir. Onun sözlərinə görə, Ermənistan müdafiə nazirinin uzaq Cənubi Koreyaya səfərinin hərbi əməkdaşlıqla əlaqəsi azdır, deməli, İrəvan bu ölkənin hərbi texnikasına maraq göstərir: "Ermənistan Fransa, Hindistan və İrandan sonra Cənubi Koreyadan da hərbi texnika almaq istəyir. Cənubi Koreyanın illik müdafiə məhsulları ixracatı 15 milyard dollara yaxındır. Bu ölkə dünyanın ən böyük səkkizinci müdafiə məhsulları ixracatçısıdır. Cənubi Koreya tanklar, artilleriya sistemləri və bir sıra döyüş təyyarələri istehsal edir. Ölkənin müdafiə sənayesi sahəsində 80 şirkət fəaliyyət göstərir və bu şirkətlərdə təxminən 45 min nəfər çalışır. Mütəxəssislər Cənubi Koreyanın istehsal etdiyi bir sıra hərbi texnikanın Qərb analoqlarını üstələdiyi fikrindədirlər. Məsələn, Cənubi Koreya 2023-cü ildə Polşaya 13 milyard dollar dəyərində hərbi texnika tədarük edib".



Onun sözlərinə görə, Ermənistan Cənubi Koreyadan Azərbaycana təhlükə yarada biləcək hərbi texnika almamış Bakı Seulla dialoqa keçməlidir. Əslində, Azərbaycan da Cənubi Koreyanın hərbi texnikasına maraq göstərib. Ötən il Cənubi Koreyada keçirilən hərbi sərgidə Azərbaycanın müdafiə sənayesi naziri koreyalı həmkarı ilə görüşərək geniş fikir mübadiləsi aparmışdı. Görüş zamanı əməkdaşlıq perspektivləri müzakirə edilmişdi. Ermənistan Azərbaycandan əvvəl Cənubi Koreyadan hərbi texnika alarsa, rəsmi Bakı gələcək bəyanatlarında bu ölkəni də tənqid etmək məcburiyyətində qalacaq. Bunun baş verməməsi üçün Cənubi Koreya ilə hərbi əməkdaşlıq məsələsində Ermənistanı qabaqlamaq lazımdır".

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan – Avropa əməkdaşlığının İtaliya poliqonu

*Cavanşir FEYZİYEV,*
*fəlsəfə doktoru*

**Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Ölkəmiz digər siyasi subyektlərlə münasibətlərdə etibarlı və nüfuzlu tərəfdaş kimi tanınır və qəbul olunur. Təsadüfi deyil ki, hazırda ayrı-ayrı dövlətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük önəm verirlər. Məhz ona görə də Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı durmadan artır.**



Azərbaycanın milli maraqlar üzərində qurulan xarici siyasət kursu çoxvektorludur. Belə ki, müstəqilliyimizin bərpasından keçən 30 ildən çox müddət ərzində respublikamız həm Avropa İttifaqı məkanına daxil olan ölkələrlə, həm də geniş İslam dünyasını təmsil edən dövlətlərlə sıx münasibətlər qurub. Bu münasibətləri uzunömürlü edən əsas səbəblərdən biri Azərbaycanın ardıcıl siyasətində ədalət prinsipinə əsaslanması və həmişə qarşılıqlı maraqlardan çıxış etməsidir. Respublikamız yüksək məsuliyyət nümayiş etdirərək qlobal həmrəyliyə davamlı töhfələr verir ki, bu da beynəlxalq səviyyədə Azərbaycanın və onun liderinin nüfuzunun getdikcə artmasını şərtləndirir.

Avropada və ümumiyyətlə dünyada siyasi təsir imkanları getdikcə artan və dünyanın 7-ci böyük iqtisadiyyatına sahib olan İtaliyanın Azərbaycanla əlaqələrinin əhatə dairəsinin genişləndirilməsi Azərbaycanın artan nüfuzunun əyani göstəricisi sayıla bilər. İtaliya Azərbaycanın Avropadakı ən böyük və etibarlı iqtisadi-siyasi tərəfdaşıdır.

Bugünlərdə İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Romaya işgüzar səfəri beynəlxalq medianın da diqqət mərkəzindədir.

İtaliyanın "Agenzia Nova", "Giornale Diplomatico", "Agenpress", "Il Sole 24 Ore", "Askanews", "Italpress", "il Giornale", "La Presse", "Agenzia Vista", "Quotidiano Nazionale", "Tutt Oggi", "Borsa Italiana" və digər kütləvi informasiya vasitələrində yayımlanan məqalələrdə Prezident İlham Əliyevin rəsmi dəvətlə İtaliyaya işgüzar səfərindən geniş bəhs edilib. Romanın "Quirinale" Sarayında İtaliya Prezidenti Sercio Mattarella ilə görüşdüyü bildirilib və görüşdə iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı və çoxşaxəli əməkdaşlığı vurğulanıb.

Dövlət başçısının bu səfəri həm regional, həm də beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyətə malikdir. İki ölkə arasındakı yüksək siyasi dialoq hazırkı dövrlə yanaşı, gələcək illərdə də əlaqələrin şaxələnməsinə, beynəlxalq əhəmiyyətli məsələlərdə səmimi tərəfdaşlığa xidmət edir.

Noyabrda Azərbaycanın ev sahibliyi edəcəyi COP29-un çox əhəmiyyətli tədbir olduğu və İtaliyanın beynəlxalq konfransda yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağı İtaliya Prezidenti tərəfindən diqqətə çatdırılıb.

Azərbaycanla İtaliya arasında mövcud olan yüksək səviyyəli siyasi dialoq iki ölkə arasındakı çoxvektorlu münasibətlərin təməlində dayanan əsas amil qismində çıxış edir. "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamə imzalanıb və qarşılıqlı münasibətlər də bu bəyanatda əksini tapan müddəalar əsasında inkişaf etdirilir.

İtaliya Azərbaycan Respublikasının müstəqilliyini 1 yanvar 1992-ci ildə tanıyıb, 8 may 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulub. 1997-ci ilin mart ayında İtaliyanın Azərbaycanda, 2003-cü ilin dekabr ayında isə Azərbaycanın İtaliyada səfirliyi açılıb.

Hər iki ölkənin yüksək səviyyəli rəsmilərinin müntəzəm qarşılıqlı səfərləri əlaqələrin dinamikasına öz müsbət təsirini göstərir. Tarixə nəzər salsaq görərik ki, ulu öndər Heydər Əliyevin 1997-ci ildə İtaliyaya ilk rəsmi səfəri iki dövlət arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olub. Həmin səfər zamanı Heydər Əliyev İtaliya Prezidenti, Baş nazir, Senatın və Deputatlar Palatasının sədrləri ilə görüşüb. İtaliya rəhbərləri Heydər Əliyevlə söhbət zamanı Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə ədalətli həllinə və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına tərəfdar olduqlarını bildiriblər. Heydər Əliyevin İtaliyaya səfəri nəticəsində iki dövlət arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanıb.

Beləliklə, qarşılıqlı münasibətlər və əlaqələr artan xətt boyunca inkişaf etməyə başlayıb və bundan sonra bir sıra səfərlər həyata keçirilib. İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ilin iyulunda Azərbaycana ilk dövlət səfəri də əlaqələrimizin inkişafında xüsusi yer tutur. Bu səfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri baş tutub. Böyük uğurla keçən səfər çərçivəsində iki ölkə arasında siyasi, iqtisadi, enerji, mədəniyyət, turizm, kənd təsərrüfatı, hərbi, nəqliyyat, təhsil, idman, kosmos, investisiya, ixracın təşviqi və digər sahələri əhatə edən 28 sənəd imzalanıb. Romada, həmçinin Azərbaycanın dövlət başçısı və İtaliya Nazirlər Şurasının Sədri "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni imzalayıblar. Dövlətimizin başçısının 2022-ci ilin sentyabrında İtaliyaya baş tutan işgüzar səfərinin gündəliyi də kifayət qədər geniş olub. Səfər çərçivəsində dövlət başçımızın iştirakı ilə Romada Azərbaycan Respublikasının səfirliyinin yeni binası açılıb, İtaliya–Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsi müəyyən edilib, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair sazişlərin imzalanma mərasimi keçirilib.

Eyni zamanda, dövlətimizin başçısı Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirak və çıxış edib. Qeyd olunmalıdır ki, İtaliyanın dövlət və hökumət nümayəndələri, o cümlədən nazir və nazir müavinləri də Azərbaycana mütəmadi olaraq səfərlər həyata keçirirlər. Bu ilin iyununda İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsinin ölkəmizə təhvil verilməsi, həmçinin İtaliya–Azərbaycan Universitetinin faktiki olaraq fəaliyyətə başlaması, bu universitet üçün hazırda yeni müasir bina və təhsil kompleksinin inşa olunması tərəflər arasında əldə olunmuş qarşılıqlı razılaşmaların uğurla həyata keçirildiyini bir daha təsdiqləyir.

Azərbaycan və İtaliya iqtisadi sahədə əməkdaşlığı da davamlı şəkildə genişləndirirlər. Ölkələrimiz arasında enerji əməkdaşlığı da yüksək səviyyədədir və nümunəvi olması ilə fərqlənir. Xam neft və neft məhsullarının ixracında İtaliya Azərbaycanın ən iri ticarət tərəfdaşına çevrilib. Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəməri ikitərəfli enerji əməkdaşlığını və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən vacib amildir. Ötən il TAP kəməri vasitəsilə İtaliyaya təqribən 10 milyard kubmetr qaz ixrac olunub ki, bu da Azərbaycanın bu ölkənin enerji təhlükəsizliyinə töhfəsinin təzahürüdür.

Ölkəmizlə Avropa İttifaqı arasında əldə edilən razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının illik tədarükü azı 20 milyard kubmetrə çatdırılmalıdır. Təbii ki, bu həcmin Avropaya çatdırılmasında Cənub Qaz Dəhlizinin bir hissəsi olan TAP mühüm rol oynayacaq. Bütövlükdə, İtaliyada istehlak olunan neftin təxminən 17 faizi respublikamızın payına düşür. Bu ölkənin bütün dünyada tanınan şirkətləri Azərbaycanın moderatorluğu ilə həyata keçirilən enerji layihələrinin fəal iştirakçılarıdır. Məsələn, İtaliyanın "ENİ" qrupu Azərbaycanın enerji sektoruna 1995-ci ildən etibarən cəlb olunub. Bu şirkət Bakı-Tbilisi-Ceyhan neft boru kəməri konsorsiumunda 5 faiz paya sahibdir. Saipem, ValvItalia, Renco, Bonatti, Enereco, Max Streicher, Honeywell SRL və s. şirkətlərə isə Cənub Qaz Dəhlizinin tikintisi üzrə 6 milyard avrodan artıq dəyərə malik təchizat və xidmət layihələri həvalə edilib.

Keçən illər ərzində SOCAR ilə İtaliyanın mühəndislik, tikinti və texnologiyalar sahəsində aparıcı şirkətləri arasında bir sıra iri həcmli müqavilələr imzalanıb. Bu müqavilələrə uyğun olaraq İtaliya şirkətləri Azərbaycanda neft–kimya sahəsində müəssisələrin tikilməsi və yenidən qurulması sahəsində layihələndirmə, mühəndislik və tikinti işlərinin yerinə yetirilməsinə cəlb olunub. Layihələrin bir çoxu tamamlanıb, digər layihələr üzrə isə əməkdaşlıq davam etdirilir. Prezident İlham Əliyev bildirib ki, neft-qaz sahəsindəki əməkdaşlığımız təkcə ölkələrimiz üçün deyil, bütün Avropa məkanı üçün xüsusi önəm daşıyır.

İtaliyanın Cənubi Qafqaz ölkələri arasında əsas ticarət tərəfdaşı Azərbaycandır. Cənubi Qafqaz ölkələri ilə İtaliya arasında ticarət dövriyyəsinin 85 faizini məhz Azərbaycanla ticarət təşkil edir.

İtaliya işgüzar dairələri Azərbaycanda böyük məbləğdə sərmayələr qoyur, həyata keçirilən bir sıra beynəlxalq əhəmiyyətli layihələrdə iştirak edirlər. Təkcə onu demək kifayətdir ki, Azərbaycanda 100-dən çox İtaliya investisiyalı kommersiya qurumu sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, xidmət və digər sahələrdə fəaliyyət göstərir. Ötən il fevralın 13-də Azərbaycanın müstəqillik dövrünün ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində Prezident İlham Əliyev deyib: "Onu da bildirməliyəm ki, bizim əməkdaşlığımız təkcə energetika sahəsi ilə məhdudlaşmır. İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərində də İtaliya şirkətləri çox fəal iştirak edirlər - dini abidələrin bərpası və tikintisi, qələbə muzeylərinin tikintisi və dizaynı. Yəni, bu, doğrudan da, çox strateji tərəfdaşlıqdır və əlbəttə ki, bugünkü mərasim bunu bir daha göstərir".

Bu ilin mayında İtaliya Senatında təşkil olunan "Azərbaycan - İtaliya: ikitərəfli əməkdaşlıq və enerji təhlükəsizliyi" mövzusunda forum ölkələrarası əməkdaşlıqda müxtəlif istiqamətlərin müzakirəsi baxımından çox əhəmiyyətli oldu.

Humanitar sahədə əməkdaşlıq Azərbaycan – İtaliya münasibətlərinin mühüm bir istiqamətini təşkil edir. 2012-ci ildə Romanın görkəmli "Villa Borghese" parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olub. Bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2011-ci il 23 dekabr tarixli sərəncamına əsasən ucaldılıb. Həmin sərəncama əsasən, Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olub.

Mədəni əlaqələrdən danışarkən, Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarını da xüsusi qeyd etmək lazımdır. Bu baxımdan Vatikanda Heydər Əliyev Fondunun bəşəriyyət üçün dəyərli əsərlərin qorunması, gələcək nəsillər üçün saxlanılması istiqamətində səyləri mədəni dünya tərəfindən çox yüksək qiymətləndirilir.

2020-ci ildə İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan edilməsi ölkələrimiz arasında mədəni əlaqələrin yüksək səviyyəsinin daha bir göstəricisidir. Azərbaycan Dillər Universitetində italyan dili tərcüməsi ixtisası və İtalyan Dili Mərkəzi fəaliyyət göstərir. Təhsil sahəsində iki ölkə arasında əldə olunmuş ən əhəmiyyətli nailiyyət kimi Prezident İlham Əliyevin 2020-ci ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı Bakıda İtaliya–Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılıq əldə edilməsini göstərmək mümkündür. İtaliya azərbaycanlı tələbələrin Avropada ali təhsil aldığı əsas ölkələrdən biridir. 2022-ci il aprelin 2-də Bakıda ADA Universitetinin kampusunda İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi keçirilib. Bu universitet ölkələrimiz arasında təhsil sahəsində əlaqələri daha da gücləndirəcək.

Qədim tarixə malik olan Azərbaycan–İtaliya mədəni əlaqələri müstəqillik illərində daha da inkişaf edir.

Bu əlaqələrin möhkəmləndirilməsində Prezident İlham Əliyevin böyük xidmətləri var. Dövlət başçısının İtaliyaya budəfəki səfəri iki ölkə arasında strateji tərəfdaşlığı daha da inkişaf etdirəcək və münasibətlərdə yeni səhifə açacaq, gələcək illərdə də İtaliya və Azərbaycan arasında siyasi, iqtisadi və mədəni əlaqələrin qorunub saxlanması və daha da inkişaf etdirilməsinə xidmət göstərəcək. Beləliklə, iki ölkə arasında qarşılıqlı münasibətlər Avropa və Azərbaycan arasında əməkdaşlığın ən uğurlu nümunəsi kimi öz əhəmiyyətini daha da artıracaq.

# Bakı – İrəvan sülh layihəsinin 10-cu redaktəsində anti-sülh ritorikası

**(əvvəli 1-ci səhifədə)**

Mirzoyan isə deyir ki, özəl şirkət cəlb etmək heç də kommunikasiyaların keçəcəyi ərazidə suverenlikdən imtina demək deyil. Erməni XİN rəhbəri mövcud xüsusda danələri vurğulayıb, bu barədə söz açacağıq.

Hələlik isə qeyd edək ki, Azərbaycanın Naxçıvana yolla əlaqədar irəli sürdüyü tələb heç də Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə təhdid deyil. Yəni, ölkəmizin "Azərbaycandan Azərbaycana yol" məntiqi sözügedən ali prinsipləri məhdudlaşdırmır. Təəssüf ki, erməni tərəfi bunu nəzərə almır, özünün ənənəvi klişesini gündəmdə saxlayaraq anti-Azərbaycan mövqe tutur. Halbuki, bütün çıxılmaz durumlardan çıxış yolu tapmaq mümkündür və məsələ iradəyə sahib olmaqdadır. Ermənistan rəhbərliyi isə heç vaxt belə bir iradə nümayiş etdirmir, əksinə, özünün destruktiv mövqeyi ilə sülhdən yayınmaq yolunu tutur. İstisna deyil ki, sülh sazişi layihəsinin 10-cu redaktəsində də anti-sülh ritorikasının motivləri var.

A.Mirzoyan onu da bildirir ki, dəhliz yaradılması və nəzarətin hansısa tərəfə verilməsi ilə bağlı heç bir şey müzakirə olunmur. "Artıq üçüncü qüvvələrin mövcudluğunun qəbuledilməz olduğunu bilirik. Bizim mövqeyimizdə heç nə dəyişməyib", – deyən erməni XİN başçısının "özəl şirkət" məntiqi maraqlıdır. Aydındır ki, indiki halda "üçüncü qüvvə" Rusiyadır. Yəni, Ermənistan həmişəki kimi, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 9-cu bəndini saymazdan gəlir. O bəndi ki, orada Naxçıvana yolda Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhədçilərinin nəzarət tədbirlərini həyata keçirəcəkləri bildirilir. Ermənistan nəinki 9-cu bənddən, ümumən, üçtərəfli bəyanatdan imtina edir, sözügedən sənədi heçə sayır.

Yeri gəlmişkən, baş nazir Nikol Paşinyan və komandasının üzvləri həm üçtərəfli bəyanatı saymır, həm də özlərinə sərf edəndə ona istinad edirlər. Məsələn, dünən Azərbaycanla sülh kontekstindən söz açan Ermənistan parlamentinin spikeri Alen Simonyan saxlanılan ermənilərin qaytarılmasının İrəvanla Bakı arasında sülh müqaviləsi layihəsinə daxil edilmədiyini bildirməklə yanaşı, əlavə edir ki, sözügedən məsələ üçtərəfli bəyanatda əksini tapıb: "Rusiya və Azərbaycan saxlanılanların qaytarılmasını həll etməyə söz veriblər".

Qeyd edək ki, rəsmi İrəvan vaxtilə sülh gündəminə "Azərbaycanda saxlanılan erməni hərbi əsir və girovlar" məsələsini də daxil etmək istəyirdi. Bu yolla ölkəmiz barədə mənfi beynəlxalq rəy yaratmağa çalışırdı. Ancaq məlumdur ki, Azərbaycanda saxlanılan ermənilər 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan sonra ələ keçənlərdir və onlar ərazilərimizdə kəşfiyyat-diversiya fəaliyyəti gerçəkləşdirməyə cəhd göstəriblər. Yəni, onsuz da sülh gündəminə nə onlar, nə də Qarabağdakı keçmiş separatçı qurumun rəhbərləri daxil edilə bilərdi...

Əlqərəz, A.Mirzoyan özəl mühafizə şirkətinin cəlb edilməsindəki məqsədin insanların təhlükəsizlik hissini artırmaq mərama söykəndiyini açıqlayır və bildirir ki, sözügedən şirkət müvafiq lisenziyalı olacaq. Görəsən, onun haqqında söz açdığı



necə bir qurumdur? Lisenziyanı verən kimdir? Həmin qurumun müstəqillik parametri necə müəyyənləşir? Suallar çoxdur və onlara cavab tapılmır. Ancaq Mirzoyan əmin edir ki, özünün də təmsil olunduğu hakimiyyətin qərarında erməni cəmiyyəti üçün hansısa xoşagəlməz sürpriz istisnadır.

Mirzoyan sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycandakı və Ermənistandakı komissiyaların birgə işi haqqında imzalanmış əsasnamə kontekstində olan fəaliyyət üzərində də dayanıb. O bildirib ki, sənədə əsasən, tərəflər delimitasiya prosesində 1991-ci ilin Alma-Ata Bəyannaməsinə söykənəcəklər. Erməni nazir, eyni zamanda, əmin edib ki, başqa prinsiplər müzakirə olunmur: "Sizi əmin edirəm ki, bizim cəmiyyətimiz üçün heç bir xoşagəlməz sürpriz yoxdur. Alma-Ata Bəyannaməsini dəyişdirə biləcək digər prinsiplər müzakirə olunmur".

Sonda onu da qeyd edək ki, ümumən Alma-Ata Bəyannaməsi istinad nöqtəsi kimi götürülə bilər. Ancaq sənədin ehkamlaşdırılması düzgün deyil. Həm də ona görə düzgün deyil ki, bəyannamə müttəfiq respublikaların keçmiş SSRİ-dən ayrılarkən malik olduqları ərazilərin bir-biri tərəfindən tanınmasını əsas götürür. Ermənistan otuz il torpaqlarımızı işğalda saxlayıb. Yəni, faktiki olaraq, Alma-Ata Bəyannaməsinə əməl etməyib. Digər tərəfdən, sual yaranır: nə üçün SSRİ-dən ayrılma üzərində dayanılır. Axı SSRİ-yə qoşulma da var. Bir halda ki, rəsmi İrəvan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib Azərbaycanın Naxçıvana yol məsələsindəki tələbini, daha doğrusu, üçtərəfli bəyanatla üzərinə düşən öhdəliyini yerinə yetirməkdən boyun qaçırır. O zaman ölkəmiz də Alma-Ata Bəyannaməsi məntiqini mübahisələndirmək haqqını özündə saxlayır.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Vətən müharibəsinin fəlsəfəsi

### XII MƏQALƏ

***Bu zəfər tarixi zəfərdir. İndi isə bizim üçün yeni dövr başlayır – quruculuq dövrü.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



### Vətən savaşı və multiregional miqyas

İndi Vətən savaşının regional miqyasda yaratdığı yeni geosiyasi vəziyyətin multiregional miqyasa təsirindən danışmaq olar. Bu təsirin məntiqi ardıcıllığı aşağıdakı kimidir: Ərazi bütövlüyünün təmini regional geosiyasi mənzərəni yenilədi, sonuncu da Azərbaycanın regionlararası məkanda yeni səviyyədə fəaliyyət göstərməsinə yol açdı. Hazırda Azərbaycan regional və multiregional miqyaslarda siyasi-diplomatik fəaliyyətini uyğunlaşdırmaqla yeni təhlükəsizlik arxitekturasının yaradılmasında fəal iştirak edir. II Qarabağ savaşında əldə edilən Zəfərin siyasi və geosiyasi dividendlərini geniş məkanda qalıcı təhlükəsizlik arxitekturasının formalaşmasına istiqamətləndirməklə Azərbaycan milli maraqlarla yanaşı, regional maraqları da ön plana çəkmiş olur. Vətən müharibəsinin yaratdığı bu imkanın siyasi qiyməti verilməlidir.

Son 4 ilin təcrübəasi göstərir ki, postmüharibə dövründə regional təhlükəsizliyin yeni arxitekturasının formalaşması mürəkkəb məsələdir. Eyni zamanda, regionlararası məkanda qalib ölkə kimi fəaliyyətin səmərəli üsulunu tapmaq məharət tələb edir. Burada əsas məqam bir ölkənin Vətən müharibəsində əldə etdiyi nailiyyəti regionlararası məkana düzgün proyeksiya etməsi ilə bağlıdır.

Məsələ ondan ibarədir ki, Vətən müharibəsində təkbaşına regional mənzərəni yeniləşdirən dövlət, regionlararası məkanda eyni məntiqlə fəaliyyət göstərə bilmir. O, regional təşkilat çərçivəsində uğurlu siyasi-diplomatik üsul tapmalıdır. Bu da təcrübə tələb edir. Bundan başqa, Vətən savaşında hərb meydanında əldə edilən qələbə digər sferalarda dəyişikliklərin təkanverici amili oldu. Lakin postmüharibə mərhələsində regionlararası məkanda hərbi fəaliyyət istisnadır. Deməli, məharətli siyasətlə hərbdə əldə edilən və regiona aid olan müsbət tendensiyaların yaratdığı əlverişli şəraitdə siyasi-diplomatik uğurlar qazanmaq lazım gəlir.

### Postmüharibə dövründə təhlükəsizlik arxitekturası

Təhlükəsizlik arxitekturası kontekstində bunun üçün liderin yaradıcı və məharətli addımlar atması şərtdir. Azərbaycan Prezidentinin son bir neçə ay ərzində həmin istiqamətdə fəaliyyətinin təhlili fonunda son tezisin məzmununu açmaq mümkündür.

Prezident İlham Əliyevin son aylar səfərlərinin trayektoriyası Yaxın Şərqi (Misir), Mərkəzi Asiyanın (Özbəkistan), Şərqi (Pakistan) və Avropanı (İtaliya) əhatə edir. Bundan başqa, Rusiya Prezidenti Azərbaycana səfər etmişdir. Bu səfərlərdə müzakirə edilən məsələlər sırasında ortaq olanları da vardır. Onlar təhlükəsizlik, enerji əməkdaşlığı və nəqliyyat marşrutları ilə bağlı olmuşlar. Özü də yalnız Azərbaycana aid müzakirələr aparılmamışdır.

Məsələn, Misir Prezidenti ilə müzakirələr, bütövlükdə, Yaxın Şərq üçün aktual olan mövzular üzrə aparılmışdır. Bura Qafqaz da daxil olmaqla təhlükəsizlik məsələləri daxildir.

Özbəksitanda da enerji, nəqliyyat və təhlükəsizliyin təmini məsələləri ön plana çıxmışdır. Mərkəzi Asiyanın bu böyük və güclü dövləti ilə Azərbaycan strateji müttəfiq olmuşdur. Pakistan səfəri də vurğuladığımız istiqamətlər üzrə son dərəcə faydalı olmuşdur. Rusiya Prezidentinin Bakıya səfəri isə, ümumiyyətlə, son zamanlar ekspert dairələrinin ən çox müzakirə etdiyi və onu birbaşa regional təhlükəsizlik, enerji və nəqliyyat mövzuları ilə bağladığı məlumdur.

Nəhayət, İlham Əliyevin son İtaliya səfəri də enerji, nəqliyyat-loqistika və təhlükəsizliklə bağlı mövzular üzrə olmuşdur.

Bu səfərlərdə müzakirə edilən məsələləri bir məntiqi prizmada təhlil etsək, görərik ki, rəsmi Bakı milli və regional miqyasda əldə etdiyi nailiyyətləri regionlararası miqyasda siyasi-diplomatik müstəviyə proyeksiya edə bilir. Bu prosesin başlıca məntiqi, özəlliyi ondan ibarətdir ki, regionlararası miqyasda təhlükəsizlik arxitekturası regional təhlükəsizlik üçün müəyyən mənada "çətir" rolunu oynamalıdır. Lakin bunun üçün regional miqyasda təhlükəsiziliyin təminatçı faktoru olmalıdır. Konkret olaraq, yerli dövlətlərdən biri həmin vəzifənin məsuliyyətini üzərinə götürməlidir.

Ermənistan və Gürcüstan bu vəzifənin öhdəsindən gələ bilməzlər. Çünki onların özlərinin daxili vəziyyəti sabit deyildir və dövlət kimi çox zəif təsir gücünə malikdirlər. Azərbaycanın isə II Qarabağ savaşında parlaq qələbə təcrübəsi vardır və dövlət kimi regionun ən güclüsüdür. Azərbaycanla bu coğrafiyada hər kəs hesablaşır.

Yuxarıda vurğuladığımız kimi, bu prosesdə Azərbaycanın regional təşkilatlarda fəaliyyəti xüsusi yer tutmalıdır. Çünki təhlükəsizliyin və əməkdaşlığın mühüm tərəfi hüquqi təminatla bağlıdır. Regional təşkilatlar çərçivəsində fəaliyyətin beynəlxalq hüquq çərçivəsində aparılması lazım gəlir.

### Regional əməkdaşlıq və təhlükəsizlik

Hərbi zəfərdən sonra multiregional miqyasda siyasət regional əməkdaşlıqla təhlükəsizliyi siyasi-diplomatik müstəvidə sintez etməyi nəzərdə tutur. Özlüyündə mürəkkəb olan bu vəzifə Vətən savaşından sonra yaranan əlverişli geosiyasi dinamika fonunda həyata keçirilə biləndir. Regional əməkdaşlıqla təhlükəsizliyin arxitekturasına eyni bucaq altında baxmaq imkanı Cənubi Qafqazda yeni hadisədir. Bir nümunədə onun vacibliyini anlamaq mümkündür.

Hazırda Zəngəzur dəhlizinin açılması ilə bağlı bir sıra böyük dövlətlərin kəskin mübarizəsi başlamışdır. Rəsmi Moskvanın bu layihəni reallaşdırmaq istiqamətində bəyanat verməsindən sonra ona daha açıq etirazı Qərb deyil, İran etdi. Gözlənilirdi ki, artıq Zəngəzurda kiçik də olsa, hərbi kontingenti olan Amerika Kremlə sərt reaksiya verəcək. Lakin səs Tehrandan çıxdı. İran Zəngəzur dəhlizinin açılmayacağı kimi qəti fikir bildirdi. Hətta Azərbaycanla Naxçıvan arasında quru yolunun heç bir variantda açılmayacağı barədə cümlə də işlədildi. Əlbəttə, təəccüblü və təəssüfedicidir, lakin KİV-də yayılan informasiyalara görə, faktdır.

Bu, onu göstərir ki, Cənubi Qafqazda təhlükəsizliklə əməkdaşlığın nisbətinə münasibət xeyli mütəhərrikdir. Gözlənilmədən hansısa böyük dövlət irəli sürülən bir fikrə kəskin reaksiya verə bilər. Bu da, bütövlükdə, situasiyanın riskli olduğunu göstərir. İranın Rusiyaya hədələyici cavab verməsi isə daha dərinlərdə regional əməkdaşlıq və təhlükəsizliyin kövrək olduğuna işarərdir. Belə bir çoxməchullu şəraitdə Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı necə siyasi xətt tutmalıdır ki, əməkdaşlıqla təhlükəsizlik bir-birini tamamlasın?

Onu da nəzərə almaq lazımdır ki, Ermənistan və Gürcüstan faktiki olaraq bu məsələdə faydalı ola bilmirlər. Ermənistan məlum məsələdir. Gürcüstan isə özünün daxilində meydana gəlmiş problemlərdən baş aça bilmir. Regional əməkdaşlıq və təhlükəsizlik üçün hansısa tutarlı addım ata bilməz. Deməli, Azərbaycanın üzərinə yük daha böyük ölçüdə düşür.

### Multiregional əməkdaşlıq və təhlükəsizlik

Vurğulanan məqamlardan Vətən müharibəsinin fəlsəfəsi baxımından daha çox əhəmiyyətlisi və aktual hesab edilən bir məsələ məntiqi olaraq alınır. Vətən muharibəsinin yaratdığı yeni geosiyasi şərtlərin multiregional miqyasa transformasiyası faktiki siyasi-diplomatik müstəvidə həyata keçməlidir. Nəzəri olaraq bunu ifadə etmək çətin deyildir. Lakin real fəaliyyətdə ona nail olmaq son dərəcə mürəkkəb məsələdir. Bu kontekstdə əsas sual Azərbaycan Prezidentinin vurğulanan transformasiyanı necə həyata keçirməsi ilə bağlıdır.

Proseslər göstərir ki, Prezident İlham Əliyev II Qarabağ savaşının yaratdığı yeni geosiyasi dinamikanı regionlararası məkana adekvat transformasiya etmək üçün çoxvektorluqla çoxəlaqəlilik istiqamətlərini üzvi surətdə sintez edir. Diplomatiyada, bu, olduqca maraqlı bir məqamdır. Çünki XXI əsrin şərtləri elədir ki, burada mütəhərrik və nəticəverici siyasi-diplomatik fəaliyyət xüsusi məharət tələb edir. Diplomatiyada isə çoxistiqamətliliklə çoxaspektli əlaqələri nəticəverici yöndə məzmunlaşdırmaq bu baxımdan ayrıca qabiliyyət və məharət tələb edir. Məsələnin fəlsəfi baxımdan mahiyyətini izah edək.

Çoxistiqamətlilik siyasi-diplomatik fəaliyyətin liderin öncədən seçdiyi və prioritet adlandırdığı istiqamətlərdə fəaliyyətlərin cəmini nəzərdə tutur. Burada hələlik seçilən istiqamətlərdə atılan addımların konkret məzmunu ön plana çıxmır – əsas parametr istiqamətlərin çoxluğudur. Ona görə də çoxaspektli fəaliyyət çoxistiqamətliliyi məzmunca elə tamamlamalıdır ki, qarşıya qoyulan məqsədə hüquqi çərçivədə nail olmaq mümkün olsun. Burada siyasi-diplomatik fəaliyyətin səmərəverici məzmunlaşmasını təmin edən mexanizm Vətən savaşının regional miqyasda yaratdığı dinamikadır. Deməli, həmin müsbət nəticədən elə yararlanmaq lazımdır ki, regionlararası məkanda alınacaq nəticə regional uğurun məntiqi davamı ola bilsin.

Bunun gerçəkləşməsi üçün lider Vətən müharibəsinin siyasi, geosiyasi, iqisadi, təhlükəsizlik və ideoloji dividendlərini uğurlu surətdə regionlararası miqyasa transformasiya edəcək kollektiv fəaliyyət forması tapmalıdır. Bu formanı Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatı (TDT) mərkəzdə olmaqla regional təşkilatlar əsasında müəyyən etmişdir. Yəni TDT miqyasında Bakının siyasi-diplomatik fəaliyyəti regionlararası məkanda Vətən savaşının geosiyasi və təhlükəsizlik aspektlərində uğurlarını yenidən aktuallaşdırmalıdır. İndi müşahidə edilən proseslər həmin istiqamətdə Bakının kifayət qədər fəal olduğunu və nəticələr aldığını göstərir.

Beləliklə, Azərbaycanın təkbaşına Vətən savaşında qalib gəlməsi öncə Cənubi Qafqaz regionu miqyasında geosiyasi düzəni yeniləşdirdi, sonra isə əldə edilən nəticələri regionlararası miqyasda çoxistiqamətliliklə çoxaspektli əlaqələr müstəvisinə proyeksiyasına nail oldu. Vətən müharibəsinin fəlsəfi dərkində bu məqamın da rolu olduqca əhəmiyyətlidir. Söhbət faktiki olaraq geniş bir geosiyasi məkanda ciddi rol oynayan müstəqil dövlətin siyasi-diplomatik və hüquqi fəaliyyətinin məzmunlaşmasından gedir. Bu, həm milli miqyasda, həm də postsovet məkanı miqyasında ilk təcrübədir. Ona görə də ilk təcrübə kimi Azərbaycanın bu fəaliyyətinin fəlsəfi ilə yanaşı, siyasi-nəzəri anlamı da dərindən araşdırılmalıdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Qərbin təzyiqləri qarşısında Rusiyaya qarşı gözlənilməz və ağlagəlməz siyasi demarşlar nümayiş etdirən rəsmi İrəvan, deyəsən, indi bunun altını çəkməkdədir. Rusiyadan tamamilə qopma texnologiyasına xidmət edən KTMT-nin toplantı və təlimlərində iştirakdan imtinası İrəvana "kollektiv Qərb"dən bəzi dividentlər qazandırsa da, vəd olunanı tam əldə edə bilməyəndən sonra seçim etmək məcburiyyətində qaldı. İqtisadiyyatının 70 faizi Rusiyanın dominantlıq etdiyi Avrasiya İqtisadi İttifaqından asılı vəziyyətdə olan Ermənistanın, əslində, başqa seçim variantı da yox idi. Paşinyan iqtidarının düşdüyü indiki durumu bir el məsəlimizdə daha düzgün təsvir edilib: "Örkən nə qədər uzun olsa da, yenə gəlib doğanaqdan keçir".**

# Roma Statutundan imtina

*Paşinyan "Rusiyadan qaçış" planını "Rusiyaya dönüş" taktikası ilə əvəzləyir*

Ermənistan XİN rəsmisi Ani Badalyan bəyan edib ki, onun ölkəsi Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Vilnüs bəyannaməsinə qoşulmayıb. Roma Statutu adını almış bəyannamə–müqavilənin şərtinə əsasən, Rusiya Prezidenti Vladimir Putin üzv dövlətin ərazisinə daxil olanda onun həbsi qaçılmazdır. Çünki bu barədə BCM-nin qətnaməsi var.

"Ermənistan lap əvvəldən həmin bəyannaməyə qoşulmayıb. Onu imzalamaq məsələsi də gündəlikdə deyil. Ölkə ona ya qoşulur, ya da qoşulmur". A.Badalyan açıqlamasını bu şərhlə tamamlayıb.

*

Məlumat üçün bildirək ki, BCM 2023-cü ilin mart ayında Rusiya Prezidenti Vladimir Putini Ukraynada törədilmiş hərbi cinayətlərə görə cavabdeh qismində ittiham edərək həbsinə order verib. Ermənistan parlamenti BCM-nin Roma Statutunu ratifikasiyası edib. İndi məlum bəyannaməni imzalamadığını bəyan edən rəsmi İrəvanın bu addımına qarşı Rusiya XİN açıqlama yayaraq Ermənistanın bu qərarının qəbuledilməz olduğunu bildirmişdi: "Ermənistan tərəfindən Roma Statutunun ratifikasiyası ikitərəfli münasibətlər üçün ən mənfi nəticələrə səbəb olacaq. Moskva Ermənistan parlamentində statutla bağlı zərərli qərara möhür vurmayacaq qüvvələrin olacağına ümid edir".

Amma Paşinyan iqtidarı Kremlin bu xəbərdarlığını vecinə almadı və Roma Statutunu təsdiqlədi. Amma hazırda Ermənistan XİN baş vermiş faktı ört-basdır etməyə çalışır. Oxucuların diqqətinə 2023-cü il oktyabrın 3-də Ermənistan parlamentində keçirilən səsvermənin nəticələrini çatdırırıq. Ermənistan Milli Assambleyası lehinə 62 səslə Roma Statutunu ratifikasiya edib. Oktyabrın 14-də isə prezident Vahan Xaçaturyan parlamentin qərarının qüvvəyə minməsi barədə sərəncam imzalayıb. Bəs, Ermənistan XİN hansı hüquqi və məntiqi əsasla ölkənin qanunverici orqanının ratifikasiya etdiyi və prezidentin təsdiqlədiyi müqavilə ilə boynuna götürdüyü öhdəlikdən imtina edir?





İndi isə 11 ay əvvəlki səsvermədən dərhal sonra erməni deputat Eduard Ağacanyanın dedikərinə diqqət yetirək: "Ermənistanın Roma Statutunun ratifikasiya olunacağı təqdirdə Rusiyanın müəyyən addımlar atacağına inanmağa əsası yoxdur. Bu addımın Ermənistanla Rusiya arasında ikitərəfli əməkdaşlığa heç bir aidiyyatı yoxdur və bu barədə Ermənistan rəsmiləri rusiyalı həmkarlarına məlumat veriblər. Eyni zamanda, Ermənistan tərəfi bununla bağlı bəyanatlar və daxil olan reaksiyalarla tanışdır. İrəvanın mövqeyi dəyişməz olaraq qalır: Ermənistan suveren dövlətdir və biz müstəsna olaraq ölkəmizin dövlət maraqlarını rəhbər tutmalıyıq".

Jurnalistlərin Ağacanyandan Rusiya tərəfindən müəyyən tədbirlər görüləcəyi təqdirdə İrəvanın nə edəcəyini soruşduqda o, hakimiyyətin buna uyğun reaksiya verəcəyini bildirmişdi. Beləliklə, Ermənistan BCM-nin Roma Statutu üzrə boynuna götürdüyü öhdəlikləri tanıyıbsa, bu ölkəyə ayaq basdığı anda Rusiya Prezidentini həbs etməli idi. Onu da xatırladaq ki, bir il əvvəl Valdimir Putinin Ermənistana səfəri planlaşdırılırdı. Fəqət Ermənistan parlamentinin bu qərarından sonra həmin səfərin taleyi, eləcə də ümumiyyətlə, Rusiyanın reaksiyasının nə olacağı ciddi marağa səbəb olmuşdu.

*

Baş nazir Nikol Paşinyan yeddi ay bundan əvvəl "Politico Europe" nəşrinə müsahibəsində BSM-nin Roma Statutunun Ermənistanın təhlükəsizlik maraqları baxımından vacib statusa malik olduğunu vurğulamışdı. O, bununla bağlı bildirmişdi ki, Ermənistanın hazırkı təhlükəsizlik sistemi və alətləri müasir standartlara cavab vermir və onların yeniləri ilə əvəzlənməsi vaxtı yetişib. Əlbəttə, onun Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyün Ermənistana heç bir fayda gətirmədiyini söyləməsi də diqqətdən yayınmamışdı.

Beləliklə, Paşinyan bu səpkili ikibaşlı açıqlamaları ilə Moskvaya müəyyən mesajları ötürdüyü qənaətində idi. Əslində, bu zaman rəsmi İrəvan hüquqi cəhətdən tez-tez naqolay vəziyyətlərə düşürdü. Misal üçün, Paşinyanın Roma Statutu ilə KTMT-ni müqayisəsi hətta erməni ictimaiyyətində ironiya ilə qarşılanmışdı. Sosial şəbəkələrdə bu mövzuda xeyli rəy paylaşılmışdı.

Digər tərəfdən, Paşinyan 2023-cü ilin martında Roma müqaviləsinin vacibliyinə dair izahına Qarabağ məsələsini də əlavə etməyi yaddan çıxarmamışdı. Bildirmişdi ki, bölgədəki Rusiya sülhməramlıları üzərlərinə düşən öhdəlikləri yerinə yetirməyi bacarmırlar. Aydın məsələdir ki, Ermənistan baş naziri Qarabağdan söz açarkən Roma Statutuna bağladığı psevdo-ümidlərini də dilə gətriməyi unutmamışdı. O demişdi ki, bu beynəlxalq sənədin köməyi ilə "Azərbaycanı beynəlxalq cinayət məsuliyyətinə" cəlb edəcək. Ümidlər özünü doğrultmadı. Vaxt İrəvanın ziyanına işlədi və o, öz aləmində düzgün saydığı və Qərbə doğru atdığı bir addımın əvəzinə geriyə üç addım atmağa məhkumdur.

***ARAYIŞ:*** Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu 1998-ci il 15 iyun – 17 iyul tarixləri arasında Birləşmiş Millətlər Təşkilatı Konfransının İtaliyanın paytaxtı Romada qəbul etdiyi BCM-nin qurulması haqqında statutdur. 2016-cı ilin mart ayından bugünədək 139 dövlət müqaviləni imzalasa da, cəmi 124 ölkə onu təsdiqləyib. Ermənistan son mərhələni adlamaqla statutun 125-ci tamhüquqlu üzvü olub.

***İ.HƏSƏNQALA***
***XQ***

### Ekspert rəyi



**Fikrət SADIQOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Əslində, mahiyyət etibarilə Roma Statutu formal bir prosedurdur. Doğrudur, bir çox dövlətlər bu öhdəliyi öz üzərinə götürüblər və müəyyən şərtlər daxilində buna əməl edə bilərlər. Rusiya Prezidenti də bunu yaxşı başa düşür və bu səbəbdən həmin ölkələrə səfər etmir. Ermənistan isə Roma Statutuna qoşulmaqla onu göstərmək istəyirdi ki, o, Rusiyadan tamamilə üz döndərir və Qərbə daha da yaxınlaşmaq niyyətindədir. Eyni zamanda, bu, heç də o demək deyildi ki, Vladimir Putin Ermənistana gələrsə, onu həbs edəcəkdilər.

Rəsmi İrəvan bir sıra istiqamətlər üzrə Rusiya ilə sıx bağlıdır. Buraya nəqliyyat, iqtsadiyyat, sərhəd, hərbi-texniki sahələr daxildir. Bu ölkənin ərazisində Rusiyanın hərbi bazaları yerləşir. Faktlar onu təsdiqləyir ki, Paşinyan ikibaşlı oyunlarını davam etdirməklə Qərbdən nələrisə qoparmağa çalışırdı. Güman edirdi ki, onun bu oyunları Qərbdə qəbul olunacaq, ölkəsinə müəyyən güzəştlər ediləcək. İşdir-şayət, fors-major duruma düşəcəyi təqdirdə isə guya, onu xilas edəcəklər. Ən maraqlısı isə odur ki, eyni vaxtda iki stulda əyləşməyə çalışanın aqibəti sonda acınacaqlı olur. Paşinyan hazırda bu vəziyyətlə üzləşib. Yəqin indiyə qədər bunu başa düşmürdü.

Rusiyadan qopmağın ölkəsi üçün hansı fəsadları törədə biləcəyini təsəvvürünə gətirən Ermənistan baş naziri bu gün artıq geriyə dönüş etməyə çalışır. Həm də Moskvanın konkret ismarıcları onu Qərbə doğru getdiyi yoldan qayıtmasına səbəb oldu. Onun bu yoldan hara kimi və necə dönəcəyini isə zaman göstərəcək.

“Əsrin müqaviləsi”-30

# “Qərbi Çıraq” Xəzərin yeraltı xəzinəsinin qapısıdır

## *Ötən müddətdə bu platformadan 30 milyon tona yaxın neft çıxarılıb*

**Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun işlənməyə daxil edilməsini tamamlamaq məqsədilə inşa olunmuş 5 hasilat və 1 texniki təchizat platformasının istismara verilməsi ilə ölkəmizdə neft istehsalı sürətlə artmağa başladı. Artıq 2010-cu ildə hasilatın səviyyəsi 50 milyon tonu ötüb keçmişdi ki, bu da Azərbaycanın neft sənayesi üçün rekord göstərici idi.**



Bununla belə, 1997-ci ilin payızında istifadəyə verilmiş “Çıraq” yatağının geniş bir ərazinin əhatə etməsi, eləcə də zəngin neft ehtiyatları burada daha bir hasilat platformasının inşasına zərurət yaradıb. Beləliklə, 2010-cu il martin 9-da AÇG-nin işlənməsi üzrə Rəhbər Komitənin qərarı ilə “Çıraq” adlandırılan yeni neft layihəsi həyata vəziqə qazanıb. Ümumi dəyəri 6 milyard dollar olan bu layihə mövcud “Dərinsulu Günəşli” və “Çıraq” platformaları arasında yeni bir dəniz qurğusu quraşdırmaqla əvvəlki illərdə yaradılmış infrastrukturda müşahidə edilən boşluğu aradan qaldırmaq məqsədi daşıyıb.

Yeri gəlmişkən, “Çıraq” neft layihəsi BP və tərəfdaşlarına Azərbaycanın yerli ehtiyatlarından istifadəni optimallaşdırmaq öhdəliyini yerinə yetirmək üçün daha bir imkan yaradıb. Belə ki, layihə çərçivəsində inşa olunmuş “Qərbi Çıraq” platformasının dayaq blokunun, üst modullarının inşasında, eləcə də sualtı boru kəmərlərinin çəkilməsində Azərbaycan Dövlət Neft Şirktinin (SOCAR) birgə müəssisələrindən, gəmilərindən, tikinti-quraşdırma meydançalarından və digər zəruru infrastrukturundan istifadə olunub. Bu zaman yerli subpodratçıların imkanlarından maksimum istifadə edilib ki, bunun da nəticəsində layihə üzrə ümumi vəsaitin 30 faizindən çox hissəsi ölkə daxilində xərclənib. Eyni zamanda, layihənin icrası dövründə 20 milyon adam-iş saatı sərf olunub ki, bu zaman da heç bir istehsalat qəzası qeydə alınmayıb.

Layihə çərçivəsində nəzərdə tutulmuş tikinti-quraşdırma işlərinin mühüm detallarından sayılan “Qərbi Çıraq” platformasının dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda inşa olunub. “Bos Şelf” şirkətinin podratçısı olduğu dayaq bloku Xəzər dənizində indiyədək quraşdırılmış bu tip ən ağır qurğudur. Onun ümumi çəkisi 18 min 200 ton, hündürlüyü isə, təqribən, 185 metrdir. Qurğunun ümumi çəkisi 6700 ton olan 13 payası (üstəgəl bir ehtiyat payası), 7 dik borusu, 8 “J” şəkilli və 10 qoruyucu borusu var. Dayaq blokunun tikintisinə 2 min nəfər cəlb olunub.

“Çıraq” neft layihəsinindigər əsas qurğularından sayılan hasilat platformasının üst modulları isə “AMEK-TEKFEN-AZFEN” alyansının Bibiheybətdəki tikinti-quraşdırma sahəsində inşa olunub. Onu da qeyd edək ki, platformanın dayaq bloku və üst modulları SOCAR-a məxsus STB-1 daşıma barjı vasitəsilə tam təhlükəsiz şəkildə dənizə çatdırılıb. Bununla yanaşı, layihə çərçivəsində sualtı boru kəmərləri çəkilib, “Dədə Qorqud” üzən yarımdalma qurğusu vasitəsilə ərazidə qabaqlayıcı quyular qazılıb.

“Əsrin müqaviləsi” çərçivəsində əldə edilmiş zəngin təcrübəyə əsaslanan “Çıraq” neft layihəsi üzrə bütün tikinti-quraşdırma işləri, qurğu və avadanlıqların inşası tamamilə ölkə daxilində həyata keçirilib. Həmin işlərə, ümumilikdə, 3500 nəfər işçi cəlb olunub. Subpodratçı və təchizatçı mütəxəssislərin də daxil olduğu işçi qüvvəsinin 96 faizini isə yerli vətəndaşlar təşkil edib.

Dənizin 170 metr dərinliyində, mövcud “Çıraq” və “Dərinsulu Günəşli” platformaları arasında quraşdırılmış yeni platformanın layihə gücü gündəlik 183 min barel neft təşkil edib. Platforma, həmçinin gündəlik 285 milyon kubmetr qaz ixrac etmək gücündədir.

“Qərbi Çıraq” platformasından hasilat 2014-cü il yanvarın 28-də öncəqazma quyularından biri olan “J05” quyusunun istismara daxil edilməsi ilə başlayıb. Xam neft əvvəlcə platformada quraşdırılmış texnoloji qurğulardan keçərək yeni yataqdaxili boru kəməri vasitəsilə mövcud 30 düymlük sualtı boru kəmərinə ötürülüb. Daha sonra isə həmin kəmərlə Səngəçal terminalına ixrac edilib. Platformadan digər öncəqazma quyuları işə düşdükcə hasilat da artmağa başlayıb.

Sözügedən platformada maksimal illik neft hasilatı isə 2016-cı ildə qeydə alınıb. Həmin il buradan 6 milyon ton neft çıxarılıb. Platformada gündəlik orta hasilatın həcmi 120 min barel təşkil edib. Bütövlükdə isə hasilat başlayandan indiyədək “Qərbi Çıraq” platformasında, təqribən, 28,8 milyon ton neft hasil olunub. Bununla belə, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunda ehtiyatların azalması “Qərbi Çıraq”platformasına da təsirsiz ötüşməyib. 2024-cü ilin birinci yarısının yekunlarına görə, burada gündəlik orta hasilatın səviyyəsi 29 min barel təşkil edib.

# Kiçik və orta biznes “yaşıllaşır”

**Dünya üzrə şirkətlərin 90 faizdən çoxu kiçik və orta bizneslərdir. KOB-lar dünyada məşğulluğun 70 faizini, ümumi daxili məhsulun 50 faizini təmin edir. KOB-ların ətraf mühitə fərdi təsiri nisbətən kiçik olsa da, qlobal miqyasda istixana qazı emissiyasının 50 faizi, biznes sektorunun enerji istifadəsinin isə 30–60 faizi onların payına düşür. Milyonlarla KOB-un “yaşıl” iqtisadiyyata keçidi iqlim dəyişiklikləri ilə qlobal mübarizəyə öz töhfəsini verə bilər. Azərbaycanda fəaliyyətdə olan sahibkarların 99,6 faizini KOB subyektləri təşkil edir.**




Bütün bunlar haqqında “Yaşıl” iqtisadiyyatda kiçik və orta biznesin rolu” mövzusunda keçirilən konfransda ətraflı danışılıb, KOB-ların iqlim dəyişiklikləri ilə mübarizəyə, “yaşıl” iqtisadiyyata keçidə verə biləcəkləri töhfə bir daha diqqətə çatdırılıb.

İqtisadiyyat, ekologiya və təbii sərvətlər nazirliklərinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən konfransda aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların və sahibkarların ictimai birliklərinin nümayəndələri, müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxışlarında “yaşıl” iqtisadiyyatın dayanıqlı inkişafda rolu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi “Təmiz ətraf mühit və “yaşıl” artım ölkəsi” milli prioriteti üzrə görülən tədbirlər, ekoloji təmiz texnologiyaların tətbiqi, eləcə də “yaşıl” istehsalın artırılması, təkrar emal və çirklənmiş ərazilərin bərpasının təşviqi üzrə qarşıda duran vəzifələr barədə məlumat veriblər.

Qeyd olunub ki, Azərbaycanda KOB subyektlərinin sosial-iqtisadi inkişafda çəkisi və rolu artmaqdadır. KOB-lar ÜDM-nin artmasına, məşğulluğa, azad olunmuş ərazilərin iqtisadi reinteqrasiyasına mühüm töhfələr verir. “Yaşıl” iqtisadiyyatın indiki inkişafında da KOB-ların töhfəsi diqqət çəkir.

Konfransda BMT-nin iqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin icraçı direktoru Yusif Abdullayev və Dünya İqlim Fondunun İdarə Heyətinin sədri Cens Nilsen çıxış ediblər.

KOB-ların “yaşıl” transformasiyası milli və qlobal səviyyədə maraqlı tərəflərin birgə fəaliyyəti nəticəsində mümkündür. Bu zərurətdən irəli gələrək Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən KOB-ların “yaşıl” keçidinin asanlaşdırılmasına dəstək üçün qlobal təşəbbüs irəli sürülüb və bu, KOB-ların “Yaşıl iqlim keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi”ndə öz əksini tapıb. Konfrans çərçivəsində müvafiq bəyannamə COP29-un prezidentinə təqdim edilib.

Tədbirdə KOBİA və “ACWA Power Azerbaijan Renewable Energy” MMC arasında KOB-ların “yaşıl” keçidi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və “ACWA Power Azerbaijan Renewable Energy” MMC-nin direktoru Səlim Güven tərəfindən imzalanmış sənəd kiçik və orta sahibkarlıq subyektlərinin “yaşıl” iqtisadiyyata keçidinə dəstək məqsədilə birgə əməkdaşlıq tədbirlərini nəzərdə tutur.

Konfransda BMT-nin Qlobal Sazişi tərəfindən korporativ dayanıqlılıq mədəniyyətinin təşviqində fəal iştirakına görə KOBİA-ya sertifikat təqdim edilib.

Tədbir “KOB subyektlərinin yaşıl iqtisadiyyata keçidinin zərurəti” və “İqlim maliyyəsi və KOB-lar” mövzularında panel iclaslarla davam edib.

# Biznes layihələri qovluqlarda qalmır

## *Özəl bölməyə 8 ayda 138 milyon manatdan çox güzəştli kredit ayrılıb*

**Bu ilin yanvar–avqust ayları ərzində Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən 3507 layihənin maliyyələşdirilməsinə 138,3 milyon manat güzəştli kredit verilib. Fondun məlumatına görə, verilən kreditlər hesabına 2808 yeni iş yerinin yaradılması nəzərdə tutulub. Kreditlərin sahibkarlıq subyektləri üzrə bölgüsündə mikro sahibkarların payı 97,1 faizə yüksəlib.**




Qeyd edək ki, fondun sahibkarlıq subyektlərinə yönəltdiyi kreditlərlə qeyri-neft sənayesinin inkişafının gerçəkləşdirilməsi qarşıya önəmli vəzifə kimi qoyulub. Başqa sözlə, sahibkarlara maliyyə vəsaitləri ayrılan zaman onların idxaldan asılılığın azaldılması üçün adıçəkilən sektorda sənaye müəssisələrinin yaradılmasına üstünlük verilib.

Elə buna görədir ki, son illər aparılan islahatların nəticəsində güzəştli maliyyələşmə, kredit-zəmanət və faizlərin subsidiyalaşdırılması mexanizmlərinə çıxış imkanları genişləndirilib, investisiya təşviqi mexanizmi əhəmiyyətli dərəcədə təkmilləşdirilib, sənaye zonalarının inkişafı təşviq olunub, dövlətin yeni dəstək alətləri tətbiq edilib. Eyni zamanda, özəl bölmədə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı əhəmiyyətli dərəcədə azaldılıb, investisiya yatırımının stimullaşdırılması məqsədilə investisiya təşviqi sənədinin verilməsinə başlanılıb, satınalmalar sahəsində kotirovka sorğusu proseduru tamamilə elektronlaşdırılaraq, vahid internet portalı yaradılıb.

Bütün bunlara yanaşı, sahibkarlığın inkişafını şərtləndirən vergi qanunvericiliyi müasirləşdirilib. Özəl sektorun fəaliyyətini daha da gücləndirilmək məqsədilə şəffaflıq və hesabatlılığın artırılması, rəqəmsallaşmanın geniş vüsət alması, rəqabət mühitinin inkişafının təmin olunması kimi məsələlər də hər zaman diqqətdə saxlanılıb.

Son illərdə regionlarda sahibkarlıq fəaliyyətinin güzəştli maliyyə mexanizmləri ilə təşviq edilməsi də diqqətdə saxlanılıb. Ümumiyyətlə, bu məsələ məşğulluğun təmin edilməsi və iqtisadi fəallığın dəstəklənməsi üçün önəmli xarakter daşıyıb. Cari ilin ötən ayları ərzində Azərbaycanda verilən güzəştli kreditlərin 70 faizdən çox hissəsinin regionların (Bakı, Sumqayıt və Abşeron istisna olmaqla) payına düşməsi də bunun bariz ifadəsidir.

Onu da deyək ki, sahibkarların qeyri-neft sənayesindəki inkişafı davam etdirmək, istehsal və ixracı artırmaq barədə fikirlərinə həssaslıqla yanaşılıb. Eyni zamanda, iş adamları ilə xammalın keyfiyyəti, daxili bazarın qorunması, kommunal xidmətlərdə differensial tariflər, dövlət satınalmaları, kredit resurslarına çıxış, ixtisaslı kadr potensialı kimi məsələlər müzakirə olunaraq müəyyən layihələr reallaşdırılıb. Sahibkarların təklifləri əsasında dövlətin dəstək və təşviq alətləri daha da təkmilləşdiriləcək sistemli şəkildə həyata keçirilib.

Xatırladaq ki, bir müddət bundan əvvəl iqtisadiyyat naziri Mikayıl Cabbarov Gəncə şəhərində və ətraf rayonlarda fəaliyyət göstərən sahibkarlarla görüşündə qeyri-neft sənayesindəki inkişafı davam etdirmək, istehsal və ixracı artırmaq barədə müzakirələr aparıb, onların suallarını cavablandırıb. İqtisadiyyat naziri, eyni zamanda son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən sosial-iqtisadi inkişaf strategiyasının nəticəsi olaraq ölkəmizdə bütün sahələrin inkişaf etdiyini, o cümlədən qeyri-neft sənayesi üzrə dövriyyənin, istehsal və ixrac həcminin, yeni iş yerləri və digər iqtisadi göstəricilərin əhəmiyyətli dərəcədə artdığını vurğulayıb.

Yeri gəlmişkən, sahibkarlar son illərdə əldə etdikləri uğurları qeyri-neft sektorunun rəqabətədavamlı inkişafı, yeni istehsal sahələrinin stimullaşdırılması və ixrac qabiliyyətinin yüksəldilməsi ilə əlaqələndiriblər. İş adamları, həmçinin əlverişli biznes mühitinin inkişafı və investisiya imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən vergi və gömrük islahatlarını, daxildə emala xüsusi gömrük prosedurunun, sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsi üzrə dövlət dəstəyi mexanizmlərini yüksək dəyərləndiriblər.

Beləliklə, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın ÜDM-də payı 81 faizi, məşğulluqda payı isə 70 faizi keçib. Özəl bölməyə dövlət dəstəyinin daim diqqətdə saxlanılması qeyri-neft sektorunda müasir texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrin yaradılmasına, real sektora investisiya qoyuluşlarının sürətlənməsinə əlverişli şərait yaradıb.

Ölkədə sahibkarlığa dövlət maliyyə yardımı mexanizminin formalaşdırılması kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsini gerçəkləşdirib. Bu, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli maliyyələşmə mexanizmlərinin tətbiqi ilə reallaşıb. Adıçəkilən fondun vəsaiti əsasən, qeyri-neft sektorunun inkişafı, innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilib.

Fondun vəsaitləri demək olar ki, dövlət büdcəsindən daxilolmalar hesabına formalaşır və kreditləşməyə yönəldilir. Eyni zamanda, Sahibkarlığın İnkişafı Fondu hazırda potensial maliyyə vəsaitinin cəlb edilməsi məqsədilə beynəlxalq maliyyə qurumlar ilə birgə araşdırmalar apararaq birgə proqramlar hazırlayır.

Sahibkarlığın inkişafını şərtləndirən ən mühüm amil isə hazırda qlobal çağırışlar fonunda respublikamızda mövcud makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyat şaxələndirilməsinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasıdır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarların ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

# NeftF d
# Çinlə investisiya əməkdaşlığı

**Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında işgüzar səfərdə olub. Fondun mətbuat xidmətindən aldığımız məlumata əsasən, səfər çərçivəsində nümayəndə heyəti 24-cü Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisinin açılış mərasimində iştirak edib və bu ölkənin bir sıra dövlət və özəl sektor qurumları ilə görüşlər keçirib.**



Çin Xalq Respublikası Baş nazirinin müavini He Lifeng və digər dövlət qurumlarının nümayəndələri ilə dəyirmi masada iki ölkənin suveren sərvət fondlarının birgə fəaliyyəti üçün mövcud olan imkanlar, potensial tərəfdaşlıq sahələri, eləcə də investisiya tədbirləri çərçivəsində davamlı inkişaf məsələləri müzakirə edilib, “yaşıl” enerji təcrübələrinin tətbiqinə dair fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Çin İnvestisiya Korporasiyasının (ÇİK) sədri Penq Çun ilə reallaşan görüşdə ARDNF və ÇİK arasında əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub və birgə fəaliyyətin bundan sonra da davam etdirilməsinə dair qarşılıqlı maraq ifadə edilib.

Çin İnvestisiya Korporasiyası sədrinin müavini Liu Haoling, “Blackstone” investisiya qrupunun prezidenti Conatan Qrey, “Brookfield Asset Management” şirkətinin baş icraçı direktoru Brüs Flatt, Çin Xalq Bankının sədr müavini Xuan Changneng, Çinin “China Energy Engineering Corporation”, “CATL”, “HiTHIUM”, digər sənaye və enerji şirkətlərinin rəhbərləri ilə də görüşlər keçirilib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# Təbiətin yaralarına “maliyyə məlhəmi” daha çox investisiya tələb edir

**Hazırda iqlim dəyişikliyinə gətirib çıxaran və genişmiqyaslı səmərəli mübarizə tədbirlərinin gerçəkləşdirilməsi zərurəti yaradan ətraf mühitin çirklənməsi dünya əhalisinin sağlamlığını ciddi təhlükələrlə üz-üzə qoyur. Ətraf mühitin çirklənməsinin isə başlıca səbəbi atmosferdə istixana qazlarının – karbon emissiyalarının getdikcə artması ilə bağlıdır. Məlum olduğu kimi, son illər avtomobillərin yandırdığı yanacaq və binaların qızdırılması zamanı istifadə olunan daş kömür atmosfer havasını daha çox çirkləndirir. Metan emissiyalarının əsas mənbələri isə kənd təsərrüfatı və neft-qaz sənayesidir. Bir sözlə, istixana qazlarının əsas mənbələri enerji, sənaye, nəqliyyat, binalar, kənd təsərrüfatı və torpaqdan istifadədir.**



Son illər müşahidə olunan şiddətli quraqlıqlar, daşqınlar, su qıtlığı, yanğınlar, dəniz səviyyəsinin qalxması, qütb buzlaqlarının əriməsi, dağıdıcı tufanlar, eləcə də biomüxtəlifliyin itməsi, qida çatışmazlığı, artan sağlamlıq riskləri, yoxsulluq və məcburi köçkünlərin sayının artması da qlobal iqlim dəyişikliyinin cari təsirlərinə daxildir.

İqlim dəyişikliklərinə əvvəlki dövrlərdə də təsadüf olunub. Lakin XX əsrin ortalarından başlayaraq Yer kürəsinin iqlim sistemi misli görünməmiş təsirlərə məruz qalıb. Bu da qlobal miqyasda ciddi dəyişikliklərlə nəticələnib. Belə bir təhlükəli şərait isə onilliklər ərzində atmosferdə toplanan su buxarı, karbon qazı, metan, azot oksidi kimi Günəş işığı ilə qızdırılan, Yer səthindən infraqırmızı istilik şüalarını udan qazlar tərəfindən meydana gəlir. Başqa sözlə, Günəşdən gələn şüaların bir hissəsi ozon təbəqəsi və atmosferdəki qazlar tərəfindən sovrulur. Günəş şüalarının digər qismi litosferdən, başqa bir qismi isə buludlardan geriyə əks olunur. Yer üzünə çatan şüalar geriyə dönərkən atmosferdəki su buxarı və digər qazlar tərəfindən tutulur. Bu hadisə Günəş şüaları ilə qızınan, amma daxildəki istiliyi çölə buraxmayan istixanaları xatırladır. Nəticədə atmosfer havası normadan artıq qızır ki, bu da istixana effekti adlanır.

İqlim dəyişikliyinə səbəb olan digər amil kosmosun istismarıdır. Belə ki, kosmosa buraxılan raketlər atmosferin yuxarı həddində ozon qatını zədələyərək atmosferdə istixana effekti yaradır. Ozon təbəqəsinin nazilməsi də qlobal istiləşməyə yol açan səbəblərdən biridir. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun hesabatına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. BMT-nin hesabatında isə göstərilir ki, son 150 ildə dünyada temperatur 1 dərəcə yüksəlib. Ehtimallara görə, əgər Yer kürəsində temperatur bu sürətlə qalxmaqda davam etsə, 2050-ci ilə qədər hərarət 2-2,5 dərəcə, 2100-cü ilə qədər isə 6 dərəcəyə qədər yüksələ bilər. Müəyyənləşdirilib ki, temperaturun artması okeanda suyun 1000 metr dərinliyinə qədər hiss olunurdusa, indi bu rəqəm 2000 metrə enib. Bu da isti axınların daha da artmasına səbəb olub.

Bu ümumbəşəri problemi həll etmək üçün 1992-ci ildə Rio-de-Janeyroda BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransında insanların iqlim sisteminə təhlükəli müdaxiləsi ilə mübarizə aparmaq üçün 154 dövlət tərəfindən “İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası” imzalanıb. Sözügedən sənəddə atmosferdə istixana qazlarının konsentrasiyalarının iqlim sisteminə təhlükəli antropogen müdaxiləsinin qarşısını alacaq səviyyədə sabitləşdirilməsi mühüm vəzifə kimi önə çəkilib.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da son illər temperatur 0,4-1,3 dərəcəyədək artıb. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanıb. Belə ki, Böyük Qafqazın yüksək dağlıq ərazilərində temperaturun 1,1-1,3 dərəcə artması müşahidə olunub. Ölkəmizdə aparılan tədqiqatlara əsasən, 1961–1990-cı illərlə müqayisədə 1991–2012-ci illərdə temperatur artımı 0,2-1,5°C intervalında dəyişib. Artıq Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə yüksək dərəcədə həssas olan ölkə kimi qeydə alınıb.

Qlobal istiləşmə Yer kürəsində təbii fəlakətləri artırıb, təbii resurslara, insanların həyat tərzinə mənfi təsir edib. Son 100 illik kosmik müşahidələr göstərir ki, tufan və çovğunların həm intensivliyi, həm də tezliyi artıb. İsti külək, qasırğa, yağıntılar güclənib, eyni zamanda sel və daşqın hadisələrinin sayı artıb. Heç şübhəsiz, bütün bu təbii fəlakətlərin artmasında əsas amil iqlim dəyişiklikləri olub.

Yeri gəlmişkən, dünya dövlətlərinin COP29-un Azərbaycanda keçirilməsini dəstəkləməsi heç də təsadüfi deyil. Məlum olduğu kimi, ölkəmizin bərpaolunan enerji potensialı olduqca yüksəkdir və zənginlikdən istifadə edilməsi ilə bağlı ciddi addımlar atılmaqdadır. Prezident İlham Əliyevin hələ 2004-cü ilin oktyabrın 21-də “Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında imzaladığı Sərəncam Azərbaycan Respublikasının bu istiqamətdə irimiqyaslı layihələrin həyata keçirilməsinə imkan yaradılıb.

Sərəncamın icrası ilə əlaqədar artıq respublikamızda böyük həcmli işlər görülüb. İşğaldan azad edilmiş torpaqlarımızın bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi istiqamətində həyata keçirilən addımları da nəzər alsaq, bu işlərin geniş miqyas alacağı qətiyyən şübhə doğurmur. Eyni zamanda, Prezident İlham Əliyevin qətiyyəti, sarsılmaz iradəsi, nəyi necə və nə vaxt etmək lazım olduğunu dəqiqliklə bilməsi Azərbaycan Respublikasının dünyanın prioritet elan etdiyi “yaşıl” enerji keçidinə də öz töhfəsini verəcəyinə əminlik yaradır.

***Azər ŞÜKÜROV,***
***texnika elmləri üzrə fəlsəfə doktoru***

# “Yaşıl enerji məkanı”nda müzakirələr

**“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulmuş tədbirlərin 2024-cü ilin birinci yarısı üzrə icrasına dair “Yaşıl enerji məkanı” İşçi qrupunun iclası keçirilib.**



İclasa sədrlik edən energetika nazirinin müavini Samir Vəliyev çıxışında adıçəkilən strategiyanın icrası çərçivəsində reallaşdırılan layihələrin “Yaşıl dünya naminə həmrəylik ili” üzrə həyata keçirilən tədbirlərlə həmahəng təşkil etdiyini vurğulayıb. İşçi qrupun iclaslarının müntəzəm keçirilməsinin hesabatlılığın səmərəliliyini artırdığını qeyd edib.

İşçi qrupun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn strategiyanın icrasının 2024-cü ilin ilk yarısı üzrə monitorinq nəticələrinə dair ilkin qiymətləndirmə hesabatını təqdim edib.

İclasda qaz və istilik təchizatı sahəsində dövlət–özəl tərəfdaşlığının inkişaf etdirilməsi, dənizdə külək enerjisi potensialının araşdırılması, bioenerji və geotermal enerjidən istifadə imkanlarının genişləndirilməsi, bərpaolunan enerji mənbələri üzrə informasiya sisteminin yaradılması, Elektromobillik üzrə Milli Planın hazırlanması, enerji saxlanc sistemlərinin tətbiqi, karbon tutulması, utilizasiyası və saxlanması texnologiyalarının tətbiqi və digər istiqamətlərdə gerçəkləşdirilən layihələr haqqında danışılıb.

# İqlim savaşı ekohəmrəyliyi gücləndirir

**Braziliyanın ətraf mühit və iqlim dəyişikliyi nazirinin müavini Andre Korrera Bakıda iqlim məsələlərində şəffaflığının artırılması mövzusunda keçirilən yüksək səviyyəli dialoq zamanı bildirib ki, iqlim dəyişikliyi və onun nəticələri ilə mübarizə heç bir ölkənin təkbaşına həll edə bilməyəcəyi böyük bir işdir. Onun sözlərinə görə, emissiyaların şəffaflığı üzrə qlobal sistemin qəbulu iqlim dəyişikliyi ilə mübarizə üzrə fəaliyyətdə yeni eranın başlanğıcını göstərir.**

A.Korrera bildirib ki, Azərbaycanın COP29-a sədrlik edən tərəf kimi irəli sürdüyü İkiillik Şəffaflıq Hesabatı təşəbbüsü inkişaf etməkdə olan ölkələrin ehtiyaclarına cavab verir və milli səviyyədə güclü şəffaflıq sistemlərinin yaradılmasını nəzərdə tutur.



“Gəlin potensial və texniki ehtiyaclardakı boşluqları aşkarlayaraq aradan qaldırmaq üçün bu fürsətdən istifadə edək, eləcə də qarşılıqlı etimad və əməkdaşlığı gücləndirək” deyə, – nazir müavini vurğulayıb.

# Meşələr həm də ekoloji sipərdir

**İndiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlər, iqtisadi potensiallar qorunmalı və təbii ehtiyatlardan səmərəli istifadə edilməlidir. Bunun üçün ətraf mühitin hər hansı komponentinin pozulmasına yol verilməməlidir. Bu baxımdan torpaq ehtiyatlarının sıradan çıxmasının qarşısı alınmalıdır. Çünki kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin qorunmaması gələcəkdə əhalinin ərzaq təminatında ciddi problemlər yarada bilər. Ona görə də kənd təsərrüfatı üçün yararlı olan 4,1 milyon hektar (respublika ərazisinin 47,7 faizi) torpaq sahəsinin mühafizəsinə xüsusi önəm verilməlidir. Müxbirimiz Pünhan Əfəndiyevin bununla bağlı ETN Coğrafiya İnstitutunun əməkdaşı, coğrafiya üzrə fəlsəfə doktoru Gülnar Allahyarova ilə müsahibəsini təqdim edirik.**



***– Azərbaycanda ekoloji problemlərdən sayılan torpaq eroziyasının əsas amillərindən biri küləkdir. Bəs külək eroziyasının intensivliyi nədən asılıdır?***

– Ölkəmizin əsas ekoloji problemləri qlobal iqlim dəyişmələri, torpaqların deqradasiyası (eroziya, şoranlaşma, səhralaşma), ərzaq təhlükəsizliyi, şirin su qıtlığı ilə bağlıdır. Bu problemlər arasında torpağın eroziya prosesi geniş yayılıb. Torpağın eroziyasına isə su ilə yanaşı, külək də təsir edir. Bu zaman külək eroziyası və ya deflyasiya baş verir. Belə hallar əsasən çöl rayonlarında baş verir və quraq keçən illərdə onun mənfi təsiri daha çox nəzərə çarpır. İntensivliyi isə torpağın üst qatının qranulometrik tərkibindən, strukturundan və küləyin sürətindən asılıdır. Küləyin sürəti saniyədə 4–6 metr olduqda diametri 1 millimetrdən kiçik, sürəti saniyədə 10 metrdən çox olduqda isə diametri 1 millimetrdən artıq olan hissəciklər sovrulmaya məruz qalır. Ayrılmış torpaq hissəcikləri hava axınları ilə eroziya mənbəyindən müxtəlif məsafələrə aparılır.



Bu, torpağın şumlandığı, lakin bitki örtüyünün hələ olmadığı yaz fəslində daha tez-tez baş verir. Külək torpaq hissəcikləri ilə yanaşı, torpaqda özünü hələ yaxşı bərkitməmiş toxumları da aparır. Yayda isə təmiz herik sahələri və cərgələrarası şumlanmış sahələr də külək eroziyası ilə üzləşir.

Defliyasiyaya (külək eroziyası) qumlu və qumsal, həmçinin səthi qurumuş struktursuz gillicəli və gilli torpaqlar daha asanlıqla məruz qalır. Külək qumluqları və torpağın üst narın hissəciklərini sovuraraq ərazinin landşaft örtüyünü dağıdır. Nəticədə torpaq və onun digər gil, lil, qum hissəcikləri bir sahədən sovrularaq digər ərazilərə ötürülür. İri hissəciklər, adətən, kiçik məsafəyə hərəkət edir və tez bir zamanda müxtəlif maneələr tərəfindən tutulub saxlanılır.

***– Hansı bölgələrdə torpaq örtüyünə külək eroziyası daha böyük ziyan vurur?***

– Külək eroziyasının ən çox müşahidə edildiyi yerlər Abşeron yarımadası, Qobustan, Samur çayından Qızılağac körfəzinə qədər Xəzər dənizinin sahil zonası, Mil və Muğan, Ceyrançöl, Acınohur düzləri və Bozdağ sistemidir. Burada küləyin təsiri nəticəsində yer səthinin quruluşu da dəyişir. Bu ərazilərdə təsərrüfat sahələrinə külək eroziyasının vurduğu ziyan çox böyükdür. Çünki torpaq örtüyü sovrularaq öz münbitliyini itirir, bəzi hallarda isə tamamilə sıradan çıxır və məhsuldarlıq dəfələrlə azalır.

***– Bu yaxınlarda Bakıda tozlu hava müşahidə olunurdu. Bu nə ilə bağlı idi və hansı mənfi təsirləri oldu?***

– Abşeron yarımadasının ərazisinin çox hissəsi yarımsəhra və səhra zonası olduğundan tez-tez tozlu hava müşahidə edilir. Qumlu torpaqlar küləyin təsirindən daha intensiv sorulur və bəzən qum fırtınalarına səbəb olur. Bu fırtınaların hərəkət istiqaməti küləyin hansı səmtə əsməyindən asılı olaraq dəyişir. Bir neçə gün əvvəl Bakıda tozlu hava müşahidə olunurdu və havada tozun miqdarı normadan 1,3 dəfə artıq idi. Buna səbəb isə qum dənələrinin Türkmənistandan ölkəmizə toz dumanı vasitəsilə daxil olması idi.

Respublikamızın ərazisindən sovrulan qumlar isə Xəzər dənizi sahilində, Aran rayonlarında və Abşeron yarımadasında daha çox müşahidə edilir. Bu, ərazinin landşaft örtüyünün dağılmasına səbəb olur. Belə təbiət hadisələri ən çox Abşeron yarımadasında baş verir. Bu zaman, hətta hərəkət edən qum təpəcikləri əmələ gəlir. Torpağın üst münbit qatı itirildiyindən səhralaşma da sürətlənir. Eyni zamanda, bitkilərin yaşıl yarpaqları üzərinə çökən qum çöküntüləri fotosintez prosesini ləngidir və ya dayandırır. Bundan ətraf mühitə, iqtisadiyyata, insanların təsərrüfat fəaliyyətinə və nəqliyyata ciddi ziyan dəyir.

İnsan sağlamlığına gəldikdə isə tozlu hava ağciyərlərdə ciddi problemlərə, o cümlədən silikoz, asfiksiya, ağciyər xərçəngi və “quru göz” sindromuna səbəb olur. Onu da deyim ki, qum, toz dənəcikləri sovrulma mənbəyindən on, yüz və hətta min kilometr məsafəyə aparılır. Küləyin qum dənələrini Türkmənistandan Azərbaycana gətirməsi də bunun bariz nümunəsidir.

***– Külək eroziyasının qarşısının alınmasında və kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında qoruyucu meşə zolaqlarının salınmasının əhəmiyyəti barədə nə deyərdiniz?***

– Torpaqqoruyucu və rekresiya əhəmiyyətinə malik olan təbii meşələrin qorunması ilə yanaşı, əkin sahələrinin külək və s. təsirlərdən mühafizəsi üçün tarlaqoruyucu meşə zolaqları salınmalı, onların sahəsi genişləndirilməlidir. Çünki ölkəmizin aran və dağətəyi bölgələrində ilin müəyyən vaxtlarında iqlim şəraiti kənd təsərrüfatı bitkiləri üçün əlverişli olmur. Əkin sahələri ciddi eroziyaya məruz qalır. Buna görə də belə şəraitdə iqlimlə əlaqədar meliorativ tədbirlər görülürməli, tarlaqoruyucu meşə zolaqlarının salınması diqqətdə saxlanılmalıdır.

Tarlaqoruyucu zolaqların ən müsbət xüsusiyyətlərindən biri küləyin sürətini azaltmasıdır. Araşdırmalar göstərir ki, tarlaqoruyucu meşə zolaqları küləyin sürətini təqribən 53 faizədək azaldır, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını isə, təqribən 20–30 faiz artırır. Çünki tarlaqoruyucu meşələrdə ağacların çətiri arasından keçən külək dağınıq və sürəti azalmış halda zolağın o biri tərəfindən çıxaraq üstdən əsən küləklə toqquşur və nəticədə onlar bir-birinin sürətini azaldır. Bu, meşənin tarlaya olan ən vacib təsirindən biridir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**XQ-nin qonaqları**

# Şuşanın son baharı da gözəldir

## *Müsahibimiz qazax yazarı, Qarabağ sevdalısı Nəsiha Gumarqızıdır*

**Tanınmış qazaxıstanlı şairə, yazıçı-publisist, ictimai fəal Nəsiha Gumarqızı son illər ölkəmizdə “Qarabağ sevdalısı” kimi tanınaraq, çox sevilir. Bu istedadlı qələm sahibi Azərbaycanla bağlı bir neçə dəyərli publisistik kitabın müəllifidir. 3 il əvvəl rus və qazax dillərində nəşr etdirdiyi “Карабах: долгая дорога домой” (“Qarabağ: evə uzun yol”) 500 səhifəlik kitabı isə bütün türk dünyasında xüsusi rəğbət və böyük əks-səda doğurub.**

Nəsiha xanım bugünlərdə yenidən Azərbaycanda olub, özünün dediyi kimi, növbəti dəfə gözəl və bənzərsiz Qarabağı ziyarət edib. Bakıda, Gəncədə, Şuşada, Xankəndidə ziyalılarla görüşlər keçirib. İki gün əvvəl doğma Almatıya yola düşmək ərəfəsində “Xalq qəzeti”nin əməkdaşı ilə yeni təəssüratlarını bölüşüb.



***– Nəsiha xanım, qonaqdan gəlişinin səbəbini soruşmazlar, amma oxucularımız üçün bunu bilmək maraqlı olardı...***

– Mən çağdaş türk dünyası dövlətlərinin yüksələn ulduzu saydığım Azərbaycanın böyük heyranlarındanam və bu qardaş ölkəni ziyarət etməkdən hər dəfə sonsuz qürur duyuram. Yeri gəlmişkən, cəmi 2 ay əvvəl, yəni iyul ayında da Bakıda olmuş, Qarabağa səfər etmişəm. O zaman bura Qazaxıstanda yaşayan azərbaycanlıların 44 nümayəndəsi ilə birlikdə gəlmişdim. Sağ olsunlar, məni özlərinki bilib sıralarında görmək istəmişdilər.



Mən həmin səfər barədə Qazaxıstan mətbuatında bir neçə məqalə yazmışam, bir sıra teleşirkətin təşkil etdiyi verilişlərdə bu barədə söhbət açmışam. Demək istəyirəm ki, bizim Qazaxıstanda dost, qardaş Azərbaycana son dərəcə böyük maraq var. Biz sizin uğurlarınıza çox sevinirik. Biz bütün türk dünyası əl-ələ verib güclü və qüdrətli Turan qurmalıyıq. Bu istiqamətdə görülən işlər məni çox sevindirir və duyğulandırır.

Budəfəki gəlişimin əsas səbəbini isə tanınmış jurnalist Emil Nəsirlinin baş redaktoru olduğu “Azərbaycanım” jurnalının yubiley tədbirlərində iştirak etmək idi. Mən bütün dünyada özünə geniş oxucu auditoriyası qazanmış bu nəşrin Orta Asiya ölkələri üzrə təmsilçisiyəm. Qeyd etmək istərdim ki, bu tədbirə dünyanın bir çox ölkələrindən nüfuzlu qələm sahibləri, elm və iş adamları, diplomatlar təşrif buyurmuşdular.

***– “Facebook” səhifənizdəki son paylaşımlarınızdan belə məlum oldu ki, siz Azərbaycana bu dəfə Qazaxıstan Yazıçılar İttifaqının sədrinin müavini, qazax xalqının sevimli şairi Baurjan Jakıb ilə birlikdə gəlmisiniz.***

– Baurjan Jakıb son dərəcə istedadlı şairdir. Onun haqqında bizim ölkədə deyirlər ki, Jakıbın şeirləri yerdə yox, göylərdə yazılır, ilahidən gəlir. Yəni son dərəcə ilhamlı insandır. Təəssüf ki, onunla sizi görüşdürə bilmədim. O, məndən bir gün əvvəl Qazaxıstana qayıdıb. Amma telefonunu verərəm, zəng edib onun da Azərbaycan barədə təəssüratlarını öyrənsəniz, çox yaxşı olardı...(Mən həmsöhbətimə söz verdim ki, qəzetimizin yaxın nömrələrinin birində bunu edəcəyəm-müəllif).

Baurjan bəy Şuşadan olduqca böyük təəssüratlarla qayıtdı. Burada gördüklərindən, eşitdiklərindən çox təsirlənmişdi. Azərbaycanda olduğu üç gün ərzində Şuşaya, Qarabağa 6 şeir həsr etdi. Bu şeirlərin hər birini mənə oxudu. Bir daha qeyd etmək istəyirəm ki, hörmətli Baurjan bəy türk dünyası və ədəbiyyatına, eləcə də Azərbaycana son dərəcə bağlı insandır. Söz verdi ki, bu gözəl diyara bundan sonra tez-tez gələcək.

***– Nəsiha xanım, icazə verin sizi Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü seçilməyiniz münasibətilə təbrik edim...***

– Təşəkkür edirəm. Azərbaycan Yazıçılar Birliyinin biletini mənə türk dünyasının əfsanəvi qələm sahibi Anar şəxsən özü təqdim edib. Bu, mənim üçün unudulmaz bir hadisədir. Zarafat deyil, Azərbaycan ədəbiyyatı dünya mədəniyyətinə böyük töhfələr verib. Azərbaycan yazıçılarını birləşdirən bir ittifaqın üzvü olmaq çox qürurvericidir.

Mən hələ gənclik illərimdən bəri Azərbaycan ədəbiyyatını böyük həvəslə mütaliə edirəm. Hörmətli Anarın kabinetində olanda onun Azərbaycan–Qazaxıstan ədəbi əlaqələri haqqında müdrik söhbətlərini sonsuz maraqla dinlədim.

***– Siz artıq 4-cü dəfədir ki, Şuşanı ziyarət edirsiniz. Dəfələrlə qeyd etmisiniz ki, hər dəfə də burada özünüz üçün yeni bir möcüzə, sirr açırsınız. Bu dəfə Şuşa nə ilə sizi heyran etdi?***

– Mən Şuşada heç vaxt payızda olmamışdım. Mənə elə gəlir ki, payızın ilk günlərində Şuşa çox əsrarəngizdir. Bildiyimə görə, türklər payızın yağmursuz, günəşli günlərinə son bahar deyirlər. Şuşa, həqiqətən, son baharda xüsusilə gözəldir!

Bəzən məndən soruşurlar ki, Şuşa sizin üçün adiləşə bilərmi? Qətiyyətlə cavab verirəm ki, yox, bu şəhər mənim üçün heç vaxt sıradan bir şəhərə çevrilə bilməz. Şuşa Çanaqqala qədər hər türk üçün əzizdir, doğmadır! Burada bütün Şərq peşəkar musiqisinin yaradıcısı, böyük Üzeyir bəyin müqəddəs ruhu dolaşır.

Yeri gəlmişkən, bir neçə gündən sonra İkinci Qarabağ müharibəsinin başlanmasının 4-cü ildönümü tamam olacaq. Mən Qarabağda ağır döyüşlərin başladığı ilk günlərdə son dərəcə həyəcanlı idim. Şuşanın azad olunması xəbərini eşidəndə isə göz yaşlarım sel kimi axdı. Bu, əlbəttə, sevinc göz yaşları idi!

Mən Azərbaycanın Qarabağdakı Zəfəri, Şuşanın fəthi barədə hər yerdə, ən müxtəlif auditoriyalarda böyük həvəslə söz açıram. Hər bir xalqa, millətə belə ədalətli zəfərin nəsib olmasını arzulayıram!

Bu gün isə bir daha qəlbimdən dilimə axan sözləri izhar etmək istəyirəm. Bəli, Azərbaycan dövləti, xalqı və onun əsgəri yenilməz və qüdrətlidir. Biz sizinlə fəxr edirik. Siz bütün türk dünyasının başını uca etmisiniz!

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev adını tarixə qızıl hərflərlə yazdırıb. Fateh Prezidentə eşq olsun, deyirəm! Bir daha vurğulamaq istəyirəm: Azərbaycanın Qarabağdakı Zəfəri bütün türk dünyasının tarixi qələbəsidir.

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Türküstanda azərbaycanlı folklorşünasın ustad dərsi

**Türküstan şəhərində Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı, Türkiyə Elmlər Akademiyası, Türk Dil Qurumu və Əhməd Yəsəvi Beynəlxalq Türk–Qazax Universitetinin dəstəyi ilə türk dünyasının gənc alimləri üçün “Türkologiya” və “Yeni enerji texnologiyaları” mövzularında yay məktəbləri keçirilib. Yay məktəblərində türk ölkələrindən 37 tanınmış alim mühazirə oxuyub.**



“Türkologiya” yay məktəbində AMEA Folklor İnstitutunun müasir folklor şöbəsinin müdiri, professor Füzuli Bayat Qırğızıstan, Türkmənistan, Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan və Monqolustandan olan gənc alim və tədqiqatçılara “Qədim türk mifologiyası” mövzusunda ustad dərsi keçib.

Bu barədə mətbuata Folklor İnstitutundan bildirilib. Mühazirədə türk mifologiyasında dünya modeli, dünyanın üçlü strukturu, Tanrı-ruhlar, Tanrı-insan münasibətləri və s. məsələlərdən bəhs olunub. Mühazirə auditoriya tərəfindən maraqla qarşılanıb, mövzu ətrafında geniş elmi diskussiya aparılıb.

“Türkologiya” yay məktəbi çərçivəsində gənc alimlər türk dünyasının tarixi, arxeologiyası, dili və ədəbiyyatı üzrə nəzəri və tətbiqi biliklərini dərinləşdirmək imkanı əldə ediblər.

# Türk dünyasının ortaq əlifbası da olacaq

**Bugünkü iclas tarixi hadisədir. Biz yazılı şəkildə ünsiyyət qurmalıyıq və buna nail olmalıyıq. Türkiyə, Azərbaycan, Özbəkistan və Türkmənistan artıq latın əlifbasından istifadə edir. İndi növbə Qazaxıstan və Qırğızıstanındır.**



Bu sözləri mediaya açıqlamasında Türk Dilçilik Cəmiyyətinin prezidenti Osman Mert Türk Dünyası Ortaq Əlifba Komissiyasının sentyabrın 9-da Bakıda keçirilən üçüncü iclasında deyib.

Onun sözlərinə görə, Sovet İttifaqının dağılması ilə müstəqillik əldə etmiş türk respublikaları üçün bu gün yeni səhifə açılır: “Qazaxıstanın latın əlifbasına keçməsi 2025-ci ilə qədər baş verə bilər. Eyni zamanda, bir ildən sonra Birinci Türk Qurultayının 100 illiyi tamam olacaq. Türk dünyasının ortaq əlifbası layihəsini 2026-cı ilə qədər başa çatdırmağı nəzərdə tuturuq”.

Türk Dilçilik Cəmiyyətinin rəhbəri əlavə edib: “Tarix bizim üzərimizə bu məsuliyyəti qoyub və daha qətiyyətli olmalıyıq. Hazırda türk dövlətləri arasında yaxınlaşma var. Ortaq türk əlifbası yaradaq və bununla da adlarımızı tarixə yazaq”.

***Fidan SALMANOVA***
***XQ***

**Türküstanı gəzə-gəzə...**

# Mərkəzi Asiyanın çinli müsəlmanları – dunqanlar

**Birinci yazı**

Özbəkistanda 130-dan çox millətin nümayəndələri yaşayırlar. Bunlar arasında dunqanlar da var. Çin müsəlmanları olan dunqanlar 1842–1877-ci illərdə Dunqan üsyanındakı məğlubiyyətdən sonra Cinin Şensi, Qansu və Sintszyan əyalətlərindən Mərkəzi Asiyaya köçüblər.

Çin dilinin şensi dialektində danışan dunqanlar iki dini qrupa bölünürlər: “yaxşı” və “yaman”. Qansu dialektində danışan dunqanlar daha çox cahiriyə sektasında birləşirlər. Əsas dinləri İslam olsa da, daosizm, konfutsiçilik və buddizmə də sitayiş edirlər.

Dunqanlar Qırğızıstanın Çuy vilayəti ilə Qazaxıstanın Cambul vilayətinin sərhədində, Özbəkistanda isə Daşkənddə və Daşkənd vilayətində, Əndicanda və Fərqanə vadisinin şəhərlərində məskunlaşıblar. Hazırda Qazaxıstanda 100 minə yaxın, Qırğızıstanda təxminən o qədər, Özbəkistanda 5 minə yaxın dunqan yaşayır. Özbəkistanda yaşayanların əksəriyyəti Daşkənd vilayətinin Urtaçirçik rayonundakı Dunqan kəndində yerləşib. Bu kiçik kəndi Özbəkistanda kiçik Çin adlandırırlar. Dilləri sino – Tibet dil qrupuna daxildir. Dunqanların mənşəyi haqqında alimlər arasında vahid fikir yoxdur. Özləri ərəb kökənli olduqlarını düşünürlər. Xalq arasında dolaşan əfsanəyə görə, Tan dövrü (618–907) İmperatoru yuxuda görür ki, onu yaşıl paltarlı bir gənc əjdahanın caynağından xilas edir. Müdriklər imperatora deyir ki, əjdaha köçəri düşmənlər, yaşıl paltarlı gənc isə Qərbdə yeni yaranmış dinin simvoludur. Onların məsləhəti ilə imperator Ərəbistana səfirlər göndərib Məhəmməd Peyğəmbərdən (s.ə.s) kömək istəyir. Peyğəmbərin (s.ə.s) göndərdiyi 3 min əsgər düşmənə qalib gəlir. Onları yanında saxlamaq üçün imperator əsgərləri çin qızları ilə evləndirir. Bu nikahlardan doğulan nəsil isə dunqanlar adlanır.



Başqa bir fərziyyəyə görə, dunqanların əcdadı olan türklər Mərkəzi Asiyada yaşayıblar, monqollar onları Çinə qovub. Çində isə dunqanları müsəlmanlığı qəbul edən çinlilər sayırlar. Belə bir fikir də var ki, dunqanlar Çinə 1271-1368-ci illərdə Suriya, Mavərənnəhr, İran və Uyqurstandan gətirilib. Bunlar hərbçilər, qullar, alimlər, sənətkarlar və ticarətçilər olublar. Beləliklə ərəblər, farslar və uyğurlar çinlilərlə qarışaraq xuey (dunqan) etnosunu formalaşdırıblar.

Dunqan sözünün bir neçə yaranma versiyası var:

1. Dunqan türk sözü olan Turqandan yaranıb, müəyyən ərazidə doğulan deməkdir.

2. Dunqan xuey sözünün türkcəyə tərcüməsidir, dönmüş mənasını verir.

3. Dunqanlar Çin dilində danışan tunkenlərdir.

4. Dunqan şərq sahilləri mənasını verir. Dunqanlar əbəs yerə demirlər ki, biz Şərqdən gəlmişik.

Dunqanlar əsrlər boyu əkinçilik, bostançılıq və düyü yetişdirməklə məşğul olublar. İndi də onlar müxtəlif tərəvəzlər – şirin bibər, badımcan, turp, kök, sarımsaq, çöl sarımsağı, pomidor, Çin kələmi, ədviyyat bitkiləri, paxlalı bitkilər əkib-becərirlər. Özbəkistanda düyü istehsalının yeni səviyyəyə qalxmasında dunqanların əməyi böyükdür.

Dunqanlar milli mətbəx ənənələrini qoruyub saxlayıblar. Yeməklərində ənənəvi tərəvəzlərdən əlavə nişastadan, müxtəlif ədviyyatlardan istifadə edirlər. Əhali arasında lağman, manpar, mantı, funçoza adlanan dunqan yeməkləri çox məşhurdur. Mantı sözü Çin mənşəlidir. Əfsanəyə görə, bu yeməyi Çin sərkərdəsi və dövlət xadimi Çjuqe Lyan yaradıb. Belə ki, döyüş zamanı çayı uğurla keçmək üçün bir neçə adam qurban verilməli idi. Sərkərdə insanları güdaza vermək istəmir. Əmr edir ki, xəmirdən kündələr hazırlayıb çaya atsınlar. Kündələrə “man tu” adı verilir, yəni kəsilmiş başlar.

Dunqanlar arasında ailə münasibətləri çox möhkəmdir. Dunqan ailəsi yeni nəsillərə ötürülən etnomədəni dəyərlər içərisində mühüm yer tutur. Ailə strukturunda üstün olan ənənə 2 və ya 3 nəslin nümayəndəsinin yaşadığı kiçik ailədir. Valideynlərin bir və ya bir neçə oğulla birgə yaşadığı ailələr də çoxdur. Bəzən isə oğullar ayrı yaşasalar da, ailə büdcəsi müştərək olur.

Ailədaxili münasibətlər – böyüklərə hörmət, uşaqlara diqqət dunqanlar üçün çox əhəmiyyətlidir. Dunqan ailəsində uşaqlar kicik yaşlarından əməyə alışdırılır. Ailədə rəhmətə gedən olanda 3,5,7,12,30,40,100-cü gün və il mərasimləri qeyd olunur. Dunqanların qeyd etdikləri başqa əlamətdar günlər də var: şirmyan – yeni doğulan uşağın 10-cu günü, manyue – yeni doğulan uşağın 40-cı günü, sun li – 50 illik yubiley və s. keçirilir.

Dunqanlar əsasən ana dilində danışırlar, Fərqanə vadisində və Daşkəndin qədim məhəlləsində yaşayanlar isə özbək dilində ünsiyyət qururlar. Dunqanlar rus, qırğız, qazax və Koreya dillərini də bilirlər. Dunqan dilində ərəb, fars və türk sözləri də çoxdur.



1990-cı ildə Daşkənddə Dunqan Mədəniyyət Mərkəzi yaradılıb. Mərkəzdə ana dili dərsləri keçirilir, Dunqan milli mədəniyyət muzeyi fəaliyyət göstərir, dunqan mədəniyyətinə aid eksponatlar sərgilənir.

Özbəkistanda fəaliyyət göstərən Çin şirkətləri dunqan diasporunun inkişafına, aztəminatlı dunqan ailələrinə kömək göstərirlər. Gənclərin təhsil almasına xüsusi diqqət yetirilir. Belə ki, 200-dən çox gənc Çinin müxtəlif şəhərlərinə oxumağa göndərilib. Mərkəzi Asiyada, o cümlədən, Özbəkistanda yaşayan dunqanlar arasında həkimlər, alimlər, müəllimlər, aqronomlar kifayət qədərdir.

Dunqanların özünəməxsus məişət və toy adətləri var. Bu haqda növbəti yazıda söhbət açacağıq.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

Xatirələrdə yaşayanlar

# Azərbaycan pediatriyasının qürur qaynağı

**Dünya şöhrətli alim, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, Rusiya Elmlər Akademiyasının üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli Adilə Namazovanın anadan olmasının 98-ci ili tamam olur.**



Adilə xanım milli genofondumuzun sərvəti olan uşaqlarımızın sağlam gələcəyi uğrunda qəhrəmancasına mübarizə aparıb, cəmiyyətin xeyrinə vaxtını, biliyini əsirgəməyib. 1926-cı ilin sentyabrında Ağdam rayonunun Seyidli kəndində dünyaya göz açıb. Yaddaşlarda xeyirxah insan, mahir həkim, istedadlı pedaqoq, elm təşkilatçısı kimi qalıb. 1949-cu ildə Tibb İnstitutunu uğurla bitirən Adilə xanım doğma yurdu Ağdama qayıdıb rayon uşaq məsləhətxanasının rəhbəri kimi çalışıb. Gələcəyin alimi bilik və bacarığını daha da artırmaq, səhiyyənin inkişafına öz töhfəsini vermək üçün təhsilini davam etdirib, elmi axtarışlara başlayıb. O, səhiyyə sahəsindəki xidmətlərinə və tibb elminə verdiyi töhfələrinə görə 1971-ci ildə keçmiş SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilən ilk azərbaycanlı qadın alim olub.

Ulu öndər Heydər Əliyev akademik Adilə Namazovanı Azərbaycanda elmi pediatriyanın banisi adlandırırdı. Adilə xanım xatirələrində bildirirdi ki, onun kadr hazırlığı sahəsində gərgin fəaliyyətinə Ümummilli lider və akademik Zərifə Əliyeva hər zaman dəstək olublar. Müstəqillik dövründə də Ulu öndər Adilə xanımın sədri olduğu Azərbaycan Pediatrlar Assosiasiyasının fəaliyyətini hər vasitə ilə dəstəkləyib.

Öz sahəsini sevməsi və elmə bağlı olduğu qədər ölkəmizin ictimai həyatında da yaxından iştirak edən akademik 1972-ci ildə Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) sədri, 1973-cü ildə isə SSRİ Uşaq Həkimləri Cəmiyyəti İdarə Heyətinin üzvü olub. 1995-ci ildə Türkdilli Ölkələrin Pediatrlar Assosiasiyasının vitse-prezidenti, Ümumdünya Pediatrlar Assosiasiyası İdarə Heyətinin üzvü seçilib.

Adilə xanım uzun illər Azərbaycan Respublika Qadınlar Cəmiyyətinin və Sovet Qadınları Komitəsinin Rəyasət Heyətinin üzvü kimi bu sahədə geniş fəaliyyət göstərib, tez-tez qadınların, uşaqların vəziyyəti haqqında çıxışlar edərək hökumətin, parlament üzvlərinin diqqətini həmin problemə yönəldib. Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü dövrdə keçmiş SSRİ-nin millət vəkili kimi yüksək kürsülərdən hər zaman öz sözünü deyib.

Keçmiş sovet ordusunun 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda və ətraf bölgələrdə amansız vəhşiliklər, qırğınlar törətdiyi zaman Adilə xanım Namazova qaniçənlərə qarşı fəal mübarizə aparıb. O, Xalq artisti bəstəkar Arif Məlikov və fəhlə Sara Vəzirova ilə birlikdə "Salyan" kazarmasına və digər yerlərə gedərək sovet ordusu komandirləri tərəfindən tərksilah edilərək zirzəmilərə salınan 300-dən çox Azərbaycan əsgərinin azad edilmələrinə nail olub.

Adilə xanım uzun illər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərib. 20 il Azərbaycan Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının, eləcə də uzun müddət Azərbaycan Respublikası "Bilik" Cəmiyyətinin tibb bölməsinin sədri olub. O, "SOS Kinderdorf" Uşaq-Kəndlərinin Azərbaycan Assosiasiyası İdarə Heyəti, Bakı şəhəri Nəsimi rayon Qadınlar Şurası İdarə Heyəti və digər təşkilatlarda öhdəsinə düşən ictimai vəzifəni uğurla icra edib. 1994-cü ildən etibarən uzun müddət Azərbaycan Respublikası Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü olub. 2002-ci ildə Azərbaycan Respublikası Uşaq Fondunun həmsədri seçilib.

Adilə xanım 350-dən çox məqalənin, 30-dan çox monoqrafiya, dərslik və kitabın, eyni zamanda MDB məkanında "Tibbi etika" adlı ilk dərsliyin müəllifidir. Onun elmi-tədqiqat işlərinin nəticələri beynəlxalq elmi jurnallarda dərc olunub, Yaponiya, ABŞ, İngiltərə, Hindistan, Əlcəzair, Avstriya, İtaliya, Türkiyə, Fransa, Almaniya, Rusiya, İsrail, Argentina, Belçika, İspaniya, Misir və digər xarici ölkələrdə keçirilən elmi konqres və konfranslarda dinlənilərək yüksək qiymətləndirilib.

Hələ gənc təbib ikən ölkəmizdə pediatriya elmi məktəbinin olmaması onu narahat edirdi. Odur ki, vəzifə pillələri ilə yüksələndən sonra alim Azərbaycanda ilk dəfə E.Əfəndiyev adına 2 saylı şəhər xəstəxanasında xüsusi biokimyəvi laboratoriya və ürək-tənəffüs sisteminin funksional fəaliyyətini müəyyənləşdirən elektrofizioloji elmi mərkəz yaradıb, istedadlı gənc həkimləri, tələbələri mərkəzdə elmi fəaliyyətə cəlb edib. Bununla da Azərbaycanda yeni pediatriya elmi məktəbi formalaşmağa başlayıb. Alimin yetirmələri onun rəhbərliyi altında böyük həvəslə çalışır, bir-birinin ardınca namizədlik, doktorluq dissertasiyaları müdafiə edirdilər.



Adilə xanım uşaqlarda ürək, qan-damar sistemi xəstəliklərinin öyrənilməsi, profilaktikası və səmərəli müalicə üsullarının tapılması ilə dərindən maraqlanıb. O, 1954–1957-ci illərdə Moskvada müəllimi G.N.Speranskinin elmi rəhbərliyi ilə tədqiqat işi üzərində gərgin əmək sərf edib və çalışdığı uşaq xəstəlikləri kafedrasında bu istiqamətdə təcrübəsini artırıb.

Alim öz tədqiqatında yeni kompleks elektrofizioloji üsullar – oksigemometriya, pnevmotaxometriya, venoqrafiya, pletizmoqrafiya və s. istifadə edərək ilk dəfə uşaqlarda revmatizmin fəal mərhələsində ürək və qan-damar sisteminin funksional vəziyyətini, ürək əzələsində baş vermiş, o dövrə qədər öyrənilməmiş patoloji dəyişikliklərin mərhələsini, dərəcəsini öyrənib, şərhini verib, rasional müalicə üsullarını təklif edib. Adilə xanımın XX əsrin 60-cı illərinə qədər hələ də öyrənilməmiş və tam ümidsiz hesab olunan anadangəlmə ürək qüsurlarının müəyyən edilməsində ciddi səy göstərərək tədqiqatlar həyata keçirib.

Həmyerlimiz bu tədqiqatların yekunlarını ümumiləşdirməklə SSRİ Səhiyyə Nazirliyinin Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi Şurasında müdafiə etdiyi dissertasiya işi ilə diqqət mərkəzində olub, dünyanın görkəmli alimləri bu elmi işi yüksək qiymətləndiriblər.

Adilə Namazova SSRİ Dövlət İxtira Komitəsindən 5 ixtira vəsiqəsi alıb. O, dünyada ilk və yeganə pediatr idi ki, uşaqlarda anadangəlmə ürək qüsurları zamanı sanballı, çoxtərəfli, dərin elmi tədqiqatlar aparıb konservativ və cərrahi müalicə üsullarını işləyir, fəsadların qarşısını almaq tədbirlərini təklif edir, ürək üzərində aparılası cərrahi əməliyyatın proqnozunu verir, cərrahi əməliyyatdan sonrakı yaxın və uzaq dövrlərdə (1 ilə qədər, 5 ildən sonra) olan müsbət və mənfi dəyişiklikləri bütün dəqiqliyi ilə ətraflı öyrənirdi.

Azərbaycanda müasir tibb təhsilinə bioetika fənninin inteqrasiyası və tətbiqi işində də akademik Adilə Namazovanın xidmətləri danılmazdır. Bioetikaya dair tədris vəsaitlərinin Azərbaycan dilində nəşri və bir sıra digər tədbirlərin reallaşdırılmasında onun böyük əməyi olub. Adilə xanım uzun illər AMEA-nın Tibbi Bioetika Komitəsinin, ATU-nun Tibbi Bioetika Komitəsinin üzvü kimi öhdəsinə düşən ictimai işləri də bacarıqla yerinə yetirib.

1999–2000-ci illərdə assosiasiya ABŞ təhsil qrantını qazanır, tibbi bioetika üzrə təhsil proqramı və tədris materialları tərtib olunur. Proqram UNESCO-nun 11-ci sessiyası, Bakı Humanitar Forumu və digər mötəbər beynəlxalq tədbirlərdə, eləcə də Təhsil Nazirliyində təqdim edilir.

APA hazırda da tibb təhsili tədris olunan universitet və kolleclərdə tibbi bioetikanın tədrisi metodikası üzrə tədbirlər keçirir, tədris proqramı əsasında Azərbaycan Tibb Universitetində (ATU) müəllimlər üçün təlimlər təşkil olunur. Bu gün ATU-nun hər bir fakültəsində bioetika fənni 3 dildə tədris olunur. Bu baxımdan uşaq hüquqları haqqında məlumatlılığı artırmaq məqsədilə nəşr olunan "Uşaq hüquqları dünya xalqlarının nağıllarında" kitabı maariflənmə mənbəyi kimi əhəmiyyətli nəşr hesab olunur və imtiyazlı uşaqlar üçün təşkil olunan tədbirlərdə təqdim edilir.

Akademik Adilə Namazovanın Türkiyənin görkəmli elm adamlarından biri, ictimai-siyasi xadim, Azərbaycanın və Ulu öndərin səmimi ürək dostu, Ümumdünya Pediatrlar Cəmiyyətinin sədri, professor İhsan Doğramacı ilə sıx dostluq əlaqələri də bir örnəkdir.

Adilə xanım tələbələrinə həkim olmağın necə bir fədakarlıq olduğunu aşılayırdı. Bu peşənin tam mənasında bir könül işi olduğunu deyirdi. Həkim olmaq üçün tibbi biliklərə bələd olmağın kifayət etmədiyini, bu peşədə sənətkar qədər incə, mühəndis qədər intizamlı olmağın vacibliyini öyrədirdi.

Ömrünün 70 ilə yaxın bir dövrünü səhiyyəmizin, tibb elminin inkişafına, şəxsi nümunəsində yeni həkim nəslinin, yüksək–ixtisaslı tibb mütəxəssislərinin yetişdirilməsinə həsr edən, insanlara şəfqət sovqatı bəxş edən pediatr alim bu yolda səmimiyyətlə, ardıcıl və yorulmadan fəaliyyət göstərib.

2020-ci ilin dekabrında tanınmış elm xadimi, ictimai xadim, minlərlə anaya körpələri ilə birlikdə şəfa verən təbib Adilə Namazova dünyasını dəyişib. Onun rəhbərliyi ilə yaratdığı elmi məktəbin yetirməsi olan 60-dan artıq alim namizədlik və doktorluq dissertasiyasını müdafiə edərək təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həkimlik və elmi fəaliyyətlərini uğurla davam etdirirlər.

***Təranə TAĞIZADƏ,***
***Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, tibb üzrə fəlsəfə doktoru***

Vida sözü

# El Vüsalının söz əbədiyyəti

**Onunla son dəfə mərhum həmkarımız Ələsgər Cabbarovun xatirəsinə həsr olunmuş mərasimdə görüşdüm. Orada maraqlı çıxış eləmiş, sonra kafelərin birində çay süfrəsi arxasında dərdləşmişdik. İmzasına dərin hörmət bəslədiyim jurnalistin qənimət söhbətlərini dinləmişdim. O vaxt görüş yerimizi qəfil tərk etdiyi kimi, indi də aramızdan qəfil çıxıb getdi.**

...Hidayət Elvüsal Kürdəxanı qəbristanlığında, erkən itirdiyi həyat yoldaşı Mahrunun yanında torpağa tapşırılaraq onun "vüsal"ına yenidən qovuşdi. Amma təəssüf ki, 30 ildən çox həsrətini çəkdiyi, 44 günlük Vətən müharibəsində döyüşən və medallar alan nəvələri Yunis, Fərid və Fuadın da düşməndən azad edilməsində xidmətlərinin olduğu doğma Kəlbəcər alınandan sonra xəstəliyi üzündən oraya gedə bilmədi, necə deyərlər, Elvüsal elin vüsalına yetişə bilmədi.



Hidayət mahalda məşhur olan Nağılar nəslinin ünlü nümayəndəsi idi. Böyük qardaşı – taleyi dolanbaclar toplusu olan, sevgi, qəm-möhnət şairi Sücaətin şeirləri dillər əzbəri olub. Elə onun, həm də əmisi Həbib Əhmədovun yaradıcılığından ruhlanan Hidayət də gözəl şeirlər yazıb.

*Sənin adın dodağımda bal dadır,*
*Xəyalımda bir köç gedir, yoldadır.*
*Elvüsalın el-obası hardadır,*
*Həsrət gözü yolda qalan Kəlbəcər?!*

Hidayət Yunis oğlu Elvüsal Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsində oxuduğu vaxtlar Kəlbəcərdə çıxan "Yenilik" qəzetində və yerli radioda çalışıb. Sonrakı illərdə "Azərbaycan gəncləri", "Kommunist", "Səhər", "Ədalət" və başqa qəzetlərdə işləyib.

Halallığı həyat amalı olan ünlü qələm sahibi "Səhər" qəzetində çalışarkən "Belə-belə işlər" adlı özəl rubrikası ilə məşhurlaşmışdı. Dövrün problemlərini özünəməxsus satirik üslubda qələmə alırdı. Eyni zamanda mahnı mətnlərinin müəllifi və həvəskar bəstəkar kimi də tanınırdı ("YouTube"da "Kəlbəcər" mahnısı var).

Onun 70 illiyi 5 il əvvəl Mətbuat Şurasında keçiriləndə sədr Əflatun Amaşov demişdi: "Ötən əsrin 90-cı illərində ən populyar qəzetlərdən olan "Səhər"in çox satılmasının və oxunmasının bir səbəbi oradakı operativ və dolğun informasiyalar idisə, digər bir səbəbi onun səhifələrində, demək olar ki, hər gün dərc olunan "Belə-belə işlər" rubrikası idi. Həmin rubrikanın müəllifi isə Hidayət Elvüsal idi".

"Səhər"in oxucuları tanınan qələm sahibinin haqq sözünə inanırdılar. Hətta Xalq şairi Bəxtiyar Vahabzadə Hidayətin yazılarını çox böyük maraqla oxuduğunu bildirmiş və onu "müasir dövrümüzün Mirzə Cəlili" adlandırmışdı.

Tələbə yoldaşı Akif Cabbarlının dedikləri:

– Sentyabrın 8-i mənim və tələbəlik illərimin dostları üçün ağır, üzücü xəbərlə açıldı. 1973-cü il məzunlarından birinin, bizim 612-ci qrupun fəxri olan Hidayət heç kimi incitmədən, əziyyət vermədən, özünəməxsus təmkinlə bu həyata və bizə "əlvida" söylədi. Onunla eyni vaxtda bir kollektivdə də işləmişik – "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində. Qrup yoldaşımız, tanınmış qələm sahibi Maral Poladovanın təşəbbüsü ilə biz Hidayət Elvüsalın 75 illiyi ilə bağlı bir kitab nəşr etdirmək qərarına gəlmişdik. Mən həmin kitab üçün "Sərrast söz ovçusu" başlıqlı qeydlərimi də yazmışdım. Çox heyiflər olsun ki, bu kitabı sağlığında ona çatdıra bilmədik.

Həmkarımız İbrahim Nəbioğlu isə öz xatirələrində ötən illəri yada salır:

– "Səhər" qəzetinin baş redaktoru Məzahir Süleymanzadə ilə müavini Hidayət Elvüsal 1990-cı ildə yenicə baş vermiş 20 Yanvar hadisələri barədə həyatlarını riskə qoyaraq topladıqları şəkil və yazılardan ibarət bir qovluq materialı mənə verib, Türkiyə mətbuatına çatdırmağı xahiş etmişdilər. O materiallar türk qəzetlərində çıxaraq görünməmiş bir rezonansa səbəb olmuşdu. Məzahir Süleymanzadə ilə Hidayət Elvüsal mənim üçün bir qəhrəmana çevrildilər onda..."

Onun haqqında yazdığım bu qeydlərin sonunda, nədənsə, özünün yazdığı "Ayrılaq" şeirinin misraları yadıma düşdü:

***Kamanmı inlədi gözləri nəmli?***
***Tarmı nalı çəkdi ürəyi qəmli?***
***Kövrəlib ağladın dərdli-ələmli,***
***Heç olarmı belə zülüm, ayrılaq?!***

Bayaq xatırladığım yubiley tədbirində Hidayət Elvüsala Mətbuat Şurasının diplomu və Ahıl Jurnalistlər Birliyinin xatirə hədiyyəsi olan qol saatı təqdim edilmişdi. Heyif ki, onun ömür saatı bugünlərdə həmişəlik dayandı...

***Əli NƏCƏFXANLI***
***XQ***

# Qarabağ xalçaları Şuşaya qayıtdı



**Qalib Azərbaycan Ordusunun işğaldan azad etdiyi Qarabağda mədəniyyət sahəsində də canlanma özünü göstərir. Muzey və onların filiallarının yenidən təşkili məsələsinə xüsusi diqqət yetirilir. 31 ildən sonra fəaliyyətini bərpa edən Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı zənginləşən eksponatlarıyla doğma şəhərdə varlığını davam etdirir.**

Qarabağda xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan filial ilk dəfə Azərbaycan Xalçası və Xalq-Tətbiqi Sənəti Dövlət Muzeyinin tərkibində fəaliyyətə başlayıb. 1987-ci il mayın 19-dan etibarən Şuşa şəhərində XIX əsrin tarixi-memarlıq abidəsi sayılan Mehmandarovların malikanəsində yerləşdirilib. 1992-ci ildən Şuşa şəhəri işğal altında olduğundan filial fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi. O dövrdə filialın kolleksiyasındakı 246 eksponatdan ancaq 183-ü Bakıya gətirilmişdi.

2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən burada bərpa işlərinə başlanıldı. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olundu. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək, binanın tarixi siması özünə qaytarılıb. Hazırda filialın ekspozisiyasında əsasən 1992-ci ildə erməni hərbi birləşmələrinin bu şəhərə hücumu zamanı təxliyə olunmuş eksponatlar, qiymətli xalçalar sərgilənir.



Milli Xalça Muzeyindən əldə etdiyimiz məlumata görə, hazırda filialda 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri nümayiş olunur. Qeyd olunan eksponatların əksəriyyətinin tarixi XVIII-XX əsrlərə aiddir. Son illər filialın kolleksiyasına bir neçə sənətkarlıq nümunələri də daxil edilib. Getdikcə zənginləşən filiala son illərdə bir sıra sənətkarlıq nümunələri də hədiyyə olunub. Filiala verilən xalçalar əvvəllər eksponatların sırasında yer almayıb. Bəzi kolleksiyaçılar şəxsi saxlanclarında qoruduqları Şuşaya aid xalçaları muzeyə hədiyyə ediblər.

Deyilənlərə əlavə olaraq qeyd edək ki, Şuşa xalçaçılarının sənətkarlığı hər bir ilmədə aydın görünür. Bu gün Azərbaycan xalçaçılığın Şuşa ruhu sanki yenidən dirçəlir. Tarixən Şuşa xalçaları həm toxunuş texnikası, həm də şux rəng palitrası ilə seçiyyələnir. Elə bu yaxınlarda Şuşa sakini Sahib Həsənovun filiala təhvil verdiyi xalça və məfrəşi də əsl sənətkarlıq nümunələrindən hesab etmək olar. "Bağçada güllər" adlı xalçanı Sahib bəyin nənəsi ilə anası 1959-cu ildə birgə toxuyublar. Məfrəşin toxunma tarixi isə XIX əsrin ortalarına aid edilir.

Hər iki eksponat haqqında xatirələrini bölüşən S.Həsənov dedi:

– Birinci Qarabağ müharibəsindən əvvəl bu xalça Şuşada onların evlərinin divarını bəzəyib. Şəhər işğal olunanda ailəmiz üçün ən əziz əşya kimi onu da Bakıya apardıq. Xalçanın üzərində nənəmin və anamın adlarının baş hərfləri "Ə" (Əzət) və "S" (Səltənət) yazılıb. Xoşbəxtik ki, uzun illər sonra doğmalarımdan yadigar qalan bu xalça da bizimlə bərabər öz yurduna qayıtdı. Düşünürəm ki, ən doğru addım onu muzeyə bağışlamaqdır".

***Ceyhun ALIŞLI***
***XQ***

# Vaşinqton və London Rusiyaya təzyiqi gücləndirir

**ABŞ və Böyük Britaniya xarici siyasət məsələlərinin müzakirə olunacağı mühüm səfərlər mübadiləsi aparacaqlar. Dövlət katibi Antoni Blinken dünən Londona gəlib. Cümə günü isə Böyük Britaniyanın Baş naziri Kir Starmeri Ağ Evdə ABŞ Prezidenti Cozef Bayden qəbul edəcək. Digər məsələlərlə yanaşı, müttəfiqlər Ukrayna ilə münaqişədə Rusiyaya qarşı müqaviməti və Kiyevə verilən Qərb silahlarının istifadəsinə qoyulan məhdudiyyətlərin aradan qaldırılmasını müzakirə edəcəklər.**



Antoni Blinken ölkənin yeni hökuməti ilə "strateji dialoqa" başlamaq üçün Böyük Britaniyaya gəlib. Müttəfiqlər həm ümumi, həm də bir sıra aktual məsələləri həll edəcəklər. Məsələn, Qırmızı dənizdə husilərin gəmilərə hücumları davam edir. İsrail və HƏMAS hərəkatı arasında danışıqlar hələ də masadadır. Ukraynadakı münaqişə kontekstində isə ən mühüm mövzu Kiyevə Rusiya ərazisinin dərinliklərinə uzaqmənzilli raketlər atmağa icazənin verilib-verilməməsi məsələsidir. Media vurğulayır ki, həm London, həm də Vaşinqton bu cür zərbələrin həyata keçirilməsinə icazə verilməsinə rəsmi şəkildə qarşı çıxsalar da, bağlı qapılar arxasında Britaniya hakimiyyəti gizli şəkildə Ukraynaya icazə verməyə hazırdır.

Bu cür məhdudiyyətlərin aradan qaldırılmasını Britaniyanın kölgə müdafiə naziri Qrant Şapps təklif edir. O, eyni fikri "The Sunday Times" qəzetinə müsahibəsində də bildirib. Cənab Şapps Rusiya Prezidenti Vladimir Putinə ultimatum irəli sürməyə çağırıb: ya Ukraynaya raket hücumları dayandırılsın, ya da ABŞ, Böyük Britaniya, Fransa və ola bilsin ki, Almaniya simmetrik şəkildə cavab verməyə icazə versin. Yeri gəlmişkən, Şapps başqa bir məsələdə də özünü "şahin" kimi göstərib: o, leyboristləri İsrailə hərbi təchizatı qismən dayandırdığına görə tənqid edib. Ancaq rəsmi London Ukraynaya zərbə endirməyə icazə verməyə tələsmir.

Amerikalılar da bu məsələdə soyuqqanlı davranırlar. ABŞ-nin müdafiə naziri Lloyd Ostin Almaniyadakı "Ramstein" bazasına səfəri zamanı deyib ki, Amerikanın uzaqmənzilli raketlərindən Rusiya ərazisinin dərinliklərinə zərbə endirmək üçün istifadə Ukrayna ordusunun uğuru üçün həlledici rol oynaya bilməz. O bildirib ki, Ukrayna pilotsuz uçan aparatların köməyilə raketlər olmadan da uzaq məsafələrdəki hədəfləri vura bilir. Cənab Ostin vurğulayıb ki, yaxın gələcəkdəki hədəf Ukraynaya öz ərazisini effektiv şəkildə qorumağa kömək etməkdir. ABŞ Ukraynanın əsas tərəfdaşıdır və ona maliyyə və hərbi dəstək verir. Ona görə də bu məsələdə Vaşinqtonun sözü həlledici olacaq.

Təbii ki, Amerikada heç də hamı Rusiyanın dərinliklərinə raket zərbəsi endirilməsi məsələsində ehtiyatlı davranmırlar. Belə ki, Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Uilyam Börns Londonda MI6-nın direktoru Riçard Mur ilə görüşdə deyib ki, "Qərb liderləri Kremlin nüvə silahının eskalasiyası ilə bağlı hədələrindən qorxmamalıdırlar". Bununla yanaşı, cənab Börns qeyd edib ki, ABŞ nüvə zərbəsinin cavabsız qalmayacağını açıq şəkildə Moskvaya çatdırıb.

Qərb mətbuatı yazır ki, Blinken və Starmerin səfərləri zamanı Çinə qarşı mübarizə, husi məsələsinin həlli, İsraillə münasibətlər, hətta "yaşıl" gündəm müzakirə olunacaq. Bununla belə, çox güman ki, digər mövzulardan daha vacibi Ukrayna olacaq. Burada müttəfiqlər arasında qarşılıqlı anlaşma mümkündürmü? Bu sualın cavabını isə yaxın vaxtlarda biləcəyik.

***SE LAY***
***XQ***

# Ermənistan indi də BRICS ilə oynamağa başlayıb

**Ermənistan parlamenti BRICS-ə üzvlük planlarını rədd edib. Bununla belə, ölkənin Xarici İşlər Nazirliyindən bildirilib ki, Kazanda keçiriləcək qurumun sammitinə nümayəndə heyəti göndəriləcək. Rusiyanın BRICS-ə sədrliyinə hazırlıq üzrə təşkilat komitəsinə rəhbərlik edən Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov deyib: "Oktyabrın 22–24-də BRICS-in Kazanda keçiriləcək sammitinə, ümumilikdə, 36 ölkənin lideri dəvət olunub. Onlardan 18-i artıq iştirakını təsdiqləyib". Onun sözlərinə görə, qonaqlar arasında BRICS-ə üzv ölkələrin liderləri ilə yanaşı, MDB ölkələrinin rəhbərləri və Afrika, Latın Amerikası, Yaxın Şərq və Cənub-Şərqi Asiyanın nüfuzlu regional təşkilatlarına sədrlik edən dövlətlərin nümayəndələri də var. Ermənistan da dəvət olunan və iştirak etmək arzusunu bildirən ölkələr arasındadır.**



Qeyd edək ki, BRICS özünü Qərbə alternativ kimi göstərmir, beynəlxalq təsisatları və onların hüquqi bazasını (BMT, BVF, Dünya Bankı) əvəz edən hər hansı strukturlar yaratmağa çalışmır. Lakin ona üzvlük ABŞ və Avropa İttifaqının (Aİ) geosiyasi və geoiqtisadi qarşıdurmada olduğu Rusiya və Çin ilə daha sıx əməkdaşlığı genişləndirir. Ermənistan isə 2018-ci ildən Qərbə doğru meyillənir. Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra İrəvan bunu gizlətməyə belə çalışmır. Artıq Paris və Brüssel görüşləri, MKİ rəhbərləri, Avropa rəsmiləri və Amerika hərbçilərinin səfərləri İrəvan üçün normaya çevrilib. Bütün bunlar Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) tədbirlərinə məhəl qoymamaq, bu hərbi bloka üzvlüyün dondurulması və müttəfiqlik münasibətlərinin etibarlılığına şübhə ilə paralel baş verir. Hətta İrəvanda Moskva ən sərt şəkildə "xəyanətdə" ittiham olunur.

Rusiya ilə münasibətləri yumşaltmaq istəyinin olmadığını nəzərə alsaq, Nikol Paşinyanın BRICS sammitinə gəlişi, yumşaq desək, qəribə görünür. Əgər Qərbə meyillisənsə, niyə "diktator" və "beynəlxalq asayişi pozan" kimi təqdim olunan Rusiya Prezidenti Vladimir Putinlə görüşməli və adı onunla birlikdə çəkilməlidir? Üstəlik, sülh sazişi imzalamaq cəhdlərinə baxmayaraq, Bakı və Ankara İrəvan tərəfindən hələ də düşmən kimi qəbul edilir. Bu arada Türkiyə və Azərbaycan BRICS-ə qoşulmaq niyyətində olduqlarını bildiriblər.

Azərbaycanın BRICS-ə üzvlük üçün müraciəti ölkənin Asiya təşkilatları ilə əlaqələrinin dərinləşdirilməsi üzrə strategiyasının tərkib hissəsidir. Bu addım Azərbaycanın beynəlxalq platformalarda mövqeyini daha da gücləndirmək məqsədi daşıyan çoxvektorlu xarici siyasətinin bariz nümunəsidir. Ölkənin BRICS və Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) kimi qlobal təşkilatlarda fəal iştirakı təkcə iqtisadi deyil, həm də siyasi mövqeyini möhkəmləndirir. Deməli, Kazanda İrəvanın "düşmənləri" söz sahibi olacaqlar.

Bəs Paşinyan niyə Kazana gəlir? Maraqlı sualdır. Qeyd edək ki, hələ heç kim Ermənistanı Avropa İttifaqına (Aİ), NATO-ya qəbul etməyib. Onlar Ukrayna, Moldova və Gürcüstanı öncə "həzm etməlidirlər". Ermənistan bu ölkələrlə müqayisədə arxa plandadır. Paşinyan təbii ki, rus sərhədçilərini Zvartnotsdan çıxarıb, lakin Gümrüdəki baza hələ də qalır. Ermənistan iqtisadiyyatı və enerji sektoru Rusiya şirkətlərindən asılıdır. Ölkənin ixracının, demək olar ki yarısı, idxalının 20 faizi Rusiyanın payına düşür. Onun ticarət dövriyyəsində BRICS-ə üzv olan Çin və Birləşmiş Ərəb Əmirliyi də önəmli rol oynayır. Üstəlik, Azərbaycan və Türkiyə ilə münasibətlər normallaşmadıqca, ABŞ və Aİ Ermənistana zəmanət vermədikcə Rusiya İrəvan üçün əsas təhlükəsizlik amili olaraq qalır. Ona görə də iqtisadiyyat və geosiyasi reallıq Paşinyanı sammitdə iştirak etməyə məcbur edir. Fransa ilə birlikdə nüfuzlu Si Cinpin və ya Ermənistanı aktiv şəkildə silahlandıran Narendra Modi ilə əl sıxmaq ona zərər verməzdi. Ermənistan hökumətinin rəsmən Qərbyönümlü bəyanatlarına baxmayaraq, ölkə Çin və Hindistan kimi dövlətlərlə sıx münasibətlərə görə BRICS-də iştirak etməyə məcbur olur.

Bundan əlavə, Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqı (AİI) kimi təşkilatlarda qalması Rusiya ilə əlaqələrini davam etdirmək məcburiyyətində qoyur.

Ekspertlərin fikirincə, yalnız Avropa investisiyalarına güvənmək də təhlükəlidir. Kim bilir, Ukraynada davam edən münaqişə və dəyişən təbii qaz qiymətləri Avropa iqtisadiyyatına necə təsir edəcək? Hər halda yaxşı heç nə gözlənilmir. Qərbə böyük ümidlər bəsləməyin nə qədər təhlükəli olduğu Gürcüstan və Ukraynanın timsalında aydın görünür. Onlar yalnız vədlər verməyi sevirlər.




Bununla bağlı politoloq Samir Hümbətov deyib ki, Ermənistan nəbz yoxlamasına keçib: "Çünki indiki hakimiyyət daha çox qərbyönümlü siyasəti ilə tanınır. Amma Paşinyan üçün tez-tez tərəf dəyişdirmək adi hala çevrilib. Ermənistan manipulyasiyalar etməklə gələcəkdə BRICS-i də kənarda qoymaq istəmir. Paşinyan hakimiyyətinə qarşı Qərbdə təhdid, təzyiq olarsa, Ermənistan bu halda üzünü BRICS-ə çevirə bilər.

Quruma daxil olanlar dünyanın böyük ölkələridir, Ermənistana yaxın dövlətlər də var. Azərbaycan və Türkiyədən sonra Ermənistanın da təşkilata daxil olmaq məsələsi müzakirə oluna bilər. Ermənistanla sülh müqaviləsi imzalanacaqsa, bu, birbaşa onun quruma üzv olmasına şərait yarada bilər. Amma düşünürəm ki, indiki halda bu məsələ real deyil".

Beləliklə, İrəvan iki stulda oturmağa daha çox üstünlük verir. Bir tərəfdən, Avropa İttifaqına, digər tərəfdən isə, BRICS kimi təşkilatlara qoşulmaq istəyir. Bu cür "çoxvektorlu" yanaşma İrəvanın dəqiq xarici siyasət xəttinin olmamasını göstərir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## 45-ci Ümumdünya Şahmat Olimpiadası

**Bu gün füsunkar və Vikipediyada göstərildiyi kimi, Rusiyadakı Volqadan sonra Avropada ikinci ən uzun çay olan Dunay sahillərində, Macarıstanın baş şəhəri Budapeştdə 45-ci Ümumdünya Şahmat Olimpiadasının təntənəli açılış mərasimi olacaq. Zəka sahiblərinin iyulun 20-də 100 yaşı tamam olmuş Beynəlxalq Şahmat Federasiyasının (FİDE) bir əsrlik yubileyi ilinə təsadüf edən budəfəki görüşü hər iki ildən bir keçirilən bu yarışların tarixində özünə rekordçu Olimpiada kimi yer edəcək. Çhess-results.com saytındakı siyahıya əsasən, onun medalları uğrunda 197 kişi və 184 qadın komandası mübarizə aparacaq.**

# Zəka sahiblərimizdən daha çox medal gözləyirik




Əlbəttə ki, həmişəki kimi, dünya şahmat ulduzlarının prinsipial rəqabətində Azərbaycanın qədim və müdrik oyun ustaları da həm kişi qrossmeysterlərin, həm də qadınların yarışında təmsil olunub, gərgin mübarizəyə Xəzər sahillərinə medal və fərdi mükafatlarla qayıtmaq əzmi ilə başlayacaqlar.

Fəxrlə xatırlatmaq yerinə düşər ki, Ümumdünya Şahmat Olimpiadasının paytaxtı olmaq sevincini Bakı və onunla birlikdə Azərbaycanın idman ictimaiyyəti də yaşamışdır. Səkkiz il əvvəl, 2016-cı ilin sentyabrında əzəmətli Milli Gimnastika Arenasında keçirilən, açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident



Mehriban Əliyevanın da iştirak etdikləri Olimpiada öz bayrağı ətrafına 176 ölkə təmsilçilərini toplamış və bu göstəriciyə görə yeni rekord müəyyənləşdirmişdi.

İndi isə Ümumdünya Şahmat Olimpiadasının iştirakçıları və rəsmi şəxsləri Budapeştin qonağıdırlar. Bu gün keçiriləcək püşkatma mərasimindən sonra komandaların, o cümlədən, həmvətənlərimizin ilk rəqibləri məlum olacaq. Birinci raundun görüşləri sabaha, sentyabrın 11-nə təyin edilmişdir. Çempion, gümüş və bürünc medalların, habelə müxtəlif mükafatların sahibləri 11 raundun nəticələrinə əsasən müəyyənləşəcək.

Yüz yaşlı FİDE ailəsinin ən hörmətli üzvlərindən biri, Azərbaycan Şahmat Federasiyasının nümayəndələri, Avropa çempionatlarının üçqat qalibi, həmçinin gümüş və bürünc medallarının sahibi ölkəmizin kişi qrossmeysterlərinin komandası Olimpiadada Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Nicat Abasov, Aydın Süleymanlı və Məhəmməd Muradlıdan ibarət heyətlə mübarizə aparacaq. Komandanın kapitanı rolunda isə Teymur Rəcəbov çıxış edəcək. Görək belə yarışlarda daim birinci və ikinci taxtalarda oyunçu kimi mübarizə aparmış qrossmeysterin kapitan rolunda debütü necə olacaq?

Kişi komandalarının yarışında ən yüksək reytinqli üç iştirakçı ABŞ (2757), Hindistan (2753) və Çin (2724) yığmalarıdır. Azərbaycan millisi 2657 əmsalla 12-cidir. Türkiyə (2591) 22-ci mövqedədir.

Qadın komandamız (2398) isə reytinq siyahısında Hindistan (2467), Gürcüstan (2462), Polşa (2422), Çin (2416) və Ukraynadan (2400) sonra altıncı pillədədir. Qızlar Olimpiada sınaqlarına təcrübəli mütəxəssis Mixail Şereşevskinin rəhbərliyi ilə hazırlaşmışlar.

Bu turnirdə millimizin şərəfini Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Xanım Balacayeva və Gülnar Məmmədova qoruyacaqlar. Onların hər birinin ustalıq səviyyəsi kifayət qədər yüksəkdir. Bu da yığmamızın medallar uğrunda mübarizədə yarışın startından finişədək baş rollardan birini oynayacağına ümidimizi artırır. Dünya qadın şahmatında yüksək nüfuz sahibi kimi tanınan G.Məmmədzadə, bu il Yunanıstanın Rodos adasında keçirilmiş qadınlar arasında Avropa çempionatında 10 mümkün xaldan 8,5 xal toplayıb, finişdə fəxri kürsünün ən yüksək pilləsində qızıl medal sevinci yaşamış, beləliklə də, Avropa çempionu olmuş ilk azərbaycanlı xanım şahmatçı Ülviyyə Fətəliyeva və onların özləri kimi istedadlı rəfiqələri Gülnar, Xanım və Gövhər, düşünmək olar ki, məqsədə çatıb Olimpiadanın mükafatçısı olmağı bacaracaqlar.

Qadın komandalarının yarışında Türkiyə millisinin heyətində Azərbaycan şahmat məktəbinin yetirməsi Xəyalə İsgəndərovanın da çıxış edəcəyini diqqətinizə çatdıraq. Bu komanda reytinqə görə (2290) cədvəldə 16-cıdır. Kollektivin kapitanı da azərbaycanlı Nicat Məmmədovdur.

Beləliklə, Dunay sahillərində 45-ci Ümumdünya Şahmat Olimpiadası başlanır. Bu gündən etibarən sentyabrın 22-dək planetin hər yerində şahmat həvəskarları norveçli dahi Maqnus Karlsen, ABŞ təmsilçisi Fabiano Karuana, çinli Dinq Liren, bizim Şəhriyar Məmmədyarov, qadınların mübarizəsində Harika Dronovalli (Hindistan), Nana Dzaqnidze (Gürcüstan), Anna Uşenina (Ukrayna), azərbaycanlı Günay Məmmədzadə kimi neçə-neçə görkəmli ustanın çıxışlarını böyük maraq və xoş bir həyəcanla izləyəcəklər. Artıq 1-ci turun görüşləri start ərəfəsindədir. Sabah axşam ilk nəticələr məlum olacaq. Kimi Olimpiadaya qələbə ilə başlamasına sevinəcək, kimi də məğlubiyyətinə təəssüflənəcək.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## "Gəncə Şərab–2" ASC səhmdarlarının nəzərinə!

7 oktyabr 2024-cü il saat 10.00-da "Gəncə Şərab–2" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın müzakirəsinə aşağıdakı məsələlər daxildir:

1. "Gəncə Şərab-2" ASC-də struktur dəyişiklikləri.

2. Səhmdar cəmiyyətin idarə heyətinin (icra orqanının) seçilməsi.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinin materiallarını və yığıncağın gündəliyinə salınan məsələlərlə bağlı təklifləri əldə etmək üçün "Gəncə Şərab–2" ASC-nin Gəncə şəhəri, Zaur İsmayılov küçəsi 86 (keçmiş Kənar küçəsi 3) nömrəli ünvana müraciət etmək olar.

Səhmdarların növbədənkənar ümumi yığıncağı Gəncə şəhəri, Zaur İsmayılov küçəsi 86 (keçmiş Kənar küçəsi 3) nömrəli ünvanda, "Gəncə Şərab–2" ASC-nin inzibati binasında keçiriləçəkdir.

Əlaqə tel– (022)-255-07-01.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 196 (30600) 10 sentyabr 2024-cü il, çərşənbə axşamı

# "Starliner" Yerə ekipajsız qayıtdı



**"Starliner" kosmik gəmisi Uayt Sands poliqonuna uğurla eniş edib. Gəmidə heç kim olmayıb. Gəminin Butç Uilmor və Sunya Uilliamsdan ibarət ekipajı Beynəlxalq Kosmik Stansiyada (BKS) qalıb və gələn ilə qədər Yerə qayıtmayacaq.**

Statliner iyunun 5-də kosmosa göndərilmişdi. Uçuşun əsas məqsədi gəmi sistemlərinin göyərtədəki insanlarla necə davranacağını yoxlamaq idi. Plana görə, Starliner BKS ilə birləşməli, ekipaj üzvləri stansiyada səkkiz gün qalmalı və bundan sonra astronavtlar Yerə qayıtmalı idilər.

Ancaq BKS ilə birləşmə zamanı istiqamətə nəzarət sisteminin bir neçə mühərriki sıradan çıxıb. Sonradan onların əksəriyyətinin işi bərpa olunub, lakin bu, Starlinerin təhlükəsizliyi ilə bağlı suallar doğurub.

Bundan sonra, NASA və Boeing nümayəndələri mühərriklərdə nə baş verdiyini və Starlinerin Yerə qayıtması zamanı oxşar vəziyyətin təkrarlana biləcəyini öyrənmək üçün fəal işləməyə başlayıblar. Buna görə də Uilmor və Uilyamsın "işgüzar səfəri"nin müddəti bir neçə dəfə uzadılıb.

Nəticədə NASA risk etməmək qərarına gəlib və gəminin Yerə ekipajsız dönəcəyini bildirib. Uilmor və Uilyams BKS-də qalacaqlar və ekipajı bu səbəbdən dörd nəfərdən iki nəfərə endirilən "Crew-9" ekspedisiyasının bir hissəsi olaraq Yerə qayıdacaqlar.

*S.ELAY*
*XQ*

# Paralimpiya Oyunları tarixə qovuşdu

**Parisdə "Stad de Frans" stadionunda Yay Paralimpiya Oyunlarının bağlanış mərasimi keçirilib.**



Tədbirdə səhnəyə əvvəlcə iştirakçı ölkələrin nümayəndə heyətləri daxil olublar. Rəsmi paradda Azərbaycan Bayrağını Olimpiadanın qızıl mükafatçıları olan paraatletlər Lamiyə Vəliyeva və Səid Nəcəfzadə dalğalandırıblar.

Qeyd edək ki, "Paris-2024" Yay Paralimpiya Oyunları avqustun 28-də start götürüb, sentyabrın 8-dək davam edib.

# Bədii gimnastların 7 "San Marino" medalı

**Azərbaycanın bədii gimnastları San Marino Respublikasının Serravalle şəhərində keçirilən "San Marino Cup" yarışında 7 medal qazanıblar.**




Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, iki gün davam edən turnirdə böyüklərdən İlona Zeynalova çoxnövçülükdə, halqa və topda 2-ci, gürz və lentlə hərəkətlərin icrasında 3-cü yeri tutub.

Gənclərdən isə Şəms Ağahüseynova lentlə hərəkətlərdə qızıl, çoxnövçülükdə gümüş mükafata yiyələnib.

# "Paris-2024"-də Makronu fitə basıblar

**Parisdə Paralimpiya Oyunlarının bağlanış mərasimində iştirak edənlər Fransa Prezidenti Emmanuel Makronu fitə basıblar.**



Bu barədə "CNEWS" telekanalı bildirib.

Tribunada Paralimpiya Komitəsinin rəhbəri Endryu Parsonsun yanında dayanan Makronun şəkli stadionun böyük ekranlarında yayımlanmağa başlayan vaxt ictimaiyyət bənzər reaksiya verib. Qeyd olunur ki, bu mərasimdə çıxış edən Fransa komandası, könüllülər qrupu və Fransanın Olimpiya Oyunlarının Təşkilat Komitəsinin rəhbəri belə fitlərlə və bəyənilməz səs-küylə qarşılanmayıb.

*L.QURBANOVA*
*XQ*

# Özü tikanlıdır, təsiri canlıdır

**Qanqal ənənəvi tibbdə istifadə olunan bir bitkidir. Mütəxəssislər onun digər yabanı bitkilərdən bəzi üstünlükləri barədə açıqlama veriblər.**



1. Qanqalın tərkibində sərbəst radikalların zərərli təsirləri ilə mübarizə aparan və hüceyrə yaşlanmasının qarşısını alan antioksidanlar var.

2. Bitki ekstraktları antiinflamatuar xüsusiyyətlərə malikdir, bu da bədəndəki iltihabı azaldır və artrit kimi xəstəliyin simptomlarını aradan qaldırır.

3. Həzmi yaxşılaşdıran qanqal ənənəvi olaraq istifadə olunur, mədə şirəsini artırır. Həmçinin köp və həzmsizlik kimi problemlərin qarşısını alır.

4. Bitki antibakterial və antifungal xüsusiyyətlərə malikdir, bu da onu infeksiyalarla mübarizədə təsirli edir. Buna görə də qara ciyər problemlərində qanqaldan hazırlanan "Karsil" preparatının təyin edilməsi təsadüfi deyil. Dərman qara ciyərdə toplanan toksinlərin çıxarılmasında faydalıdır.

5. Qanqal qan dövranını stimullaşdırır, bu da ümumi sağlamlığa kömək edir.

6. İmmunitet sistemini gücləndirir və xəstəliklərə qarşı müqaviməti yaxşılaşdırır.

7. Qanqal tez-tez şorbalarda və çaylarda istifadə olunur. O, sağlamlıq üçün fayda verməkdən əlavə, özünəməxsus ətir və dadı ilə də seçilir.

*Z.HÜSEYNLİ*
*XQ*



# "Toyota" şirkəti elektromobilləri azaldır

**Yaponiyanın "Toyota Motor" şirkəti 2026-cı il üçün elektrik avtomobillərinin istehsalı üzrə planlarını üçdə bir azaldıb. Bu barədə "Nikkei" qəzeti xəbər verir.**

Dünyanın ən böyük avtomobil istehsalçısı indi 2026-cı ildə 1 milyon elektrikli avtomobil istehsal etməyi planlaşdırır. "Toyota" 2026-cı ilə qədər ildə 1,5 milyon, 2030-cu ilə qədər isə 3,5 milyon elektrikli avtomobil istehsal etmək hədəfinin dəyişməz olaraq qaldığını açıqlayıb.

Elektrikli avtomobillər hazırda qlobal satışların, təxminən, 1 faizini təşkil edir. Bu həftənin əvvəlində İsveç avtomobil istehsalçısı "Volvo" 2030-cu ilə qədər tam elektrikə keçmək məqsədindən imtina etdiyini açıqlayıb. ABŞ-da Ford, General Motors və digər avtomobil istehsalçıları da yeni elektrik modellərinin istehsalını təxirə salırlar.

*XQ*



# Dağlıq ərazilərdə şimşək çaxacağı gözlənilir

**Sentyabrın 10-da Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, havanın temperaturu gecə 18-22° isti, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 758 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli az yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq, mülayim şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək.

Havanın temperaturu gecə 15-20° isti, gündüz 30-35° isti, dağlarda gecə 8-13° isti, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# "Köçərilər dünyası" Astanada yarışır

**Xəbər verildiyi kimi, 5-ci Dünya Köçəri Oyunları çərçivəsində Astanada "Köçərilər dünyası" etnoaulunun açılışı olub.**



Qazaxıstan paytaxtının sakinləri və qonaqlar köçərilərin özünəməxsus mədəniyyəti ilə tanış olmaq imkanı əldə ediblər. Etnoaul bir neçə zona üzrə təşkil olunub: mərkəzi meydan, xalq musiqisi üçün çadır, açıq səma altında köçəri sivilizasiyalar muzeyi, idman tədbirləri, milli mətbəx, regionların etnoməskənləri və s.

Bayramın keçirildiyi ərazidə Şərq bazarı təşkil edilib. Ölkənin 200-dən çox sənətkarı öz məhsullarını sərgiləyirlər. Ərazidə konsert proqramları və idman tədbirləri də təşkil olunub.

Sentyabrın 13-dək davam edəcək Dünya Köçəri Oyunlarında 89 ölkədən, təxminən, 2800 idmançı iştirak edir. Yarışlar çərçivəsində 21 idman növü üzrə 97 dəst medal uğrunda mübarizə aparılır.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi tanınmış yazıçı-jurnalist, redaksiyanın keçmiş əməkdaşı

**Hidayət ELVÜSALIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov və rayon icra hakimiyyəti aparatının kollektivi Qalib Rzayevə əzizi

**NAZİM RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

✓ *2005-ci il aprelin 16-da Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "Meridian" Humanitar İctimai Birliyinə verilmiş qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3864
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00